Bu kitab Azərbaycan xalqının Ümummilli Lideri, ölkənin yeni müstəqil neft-qaz strategiyasının banisi Heydər Əliyevin xatirəsinə dərin hörmət və minnətdarlıq hissi ilə Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə qeyd edilən "Heydər Əliyev İli"nə bp şirkətinin hədiyyəsidir.

İLHAM ŞABAN

# BAKI-TBİLİSİ-CEYHAN (BTC)

## Azərbaycanın əsas neft ixrac kəməri, 2006-2022

FAKTLAR, SƏNƏDLƏR VƏ RƏQƏMLƏR TOPLUSU

TEAS PRESS


btc
Eni
INPEX

"Bu müqaviləni imzalayarkən "Azəri-Çıraq-Günəşli"dən gələcəkdə ildə 50 milyon tondan artıq neft hasil edilməsini nəzərdə tutmuşduq. Amma neft dünya bazarlarına çıxarılmalıdır. Bunun üçün müxtəlif yollar var idi, müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla: Türkiyə ilə, Gürcüstanla və bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq nefti Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xətti ilə Türkiyənin Ceyhan limanına çatdırmağı qərara aldıq".

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
18 sentyabr 2002-ci il

"2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada – Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi... Bu gün Bakı-Ceyhan kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də dünya bazarlarına çıxarılır".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
29 may 2018-ci il

"BTC-nin istismara verilməsi neft sənayesinin zəngin tarixində mühüm mərhələdir. Layihədə iştirak edən ölkələrin: Azərbaycanın, Gürcüstanın və Türkiyənin, eləcə də digər ölkələrin minlərlə insanlarına, işçi qüvvəsi üzvlərinə, yerli icmalara, şirkətlərə, hökumətlərə, beynəlxalq təşkilatlara, tərəfdaşlarımıza və öz işçilərimizə əvəzedilməz dəstəyə görə təşəkkür edirəm. BTC XXI əsrin ilk nəhəng mühəndis layihəsidir".

**Lord Braun**
BP Qrupunun Prezidenti
13 iyul 2006-cı il

"Əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur. 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft boru xəttini istismara verdik. Bu günə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini – 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistan, 12 milyon tonunu Qazaxıstan, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni, bir sözlə, Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
30 noyabr 2013-cü il



*Müəllif kitabın ərsəyə gəlməsində verdikləri məsləhətlərə görə "BP-Azərbaycan" və SOCAR şirkətlərinin kommunikasiya və xarici əlaqələr üzrə departamentlərinə minnətdarlığını bildirir.*

İlham Şaban
Bakı-Tbilisi-Ceyhan (BTC)
*Azərbaycanın əsas neft ixrac kəməri, 2006-2022*
*Faktlar, sənədlər və rəqəmlər toplusu*

Layihə rəhbəri: *Ülkər Hüseynova*
Nəşriyyat redaktoru: *Famil Cəfərli*
Texniki redaktor: *Vüsalə Babayeva*
Korrektor: *Flora Əliyeva*
Dizayner: *Mahir Allahverdiyev*
Üz qabığının dizaynı: *Sevinc Ələkbərova*
Çapa məsul: *Rəşad İsmixanov*

Bakı, TEAS Press Nəşriyyat evi, 2023, 152 səh.
ISBN 978 9952 563 62 7

*Kitabın məzmununa və burada istifadə olunan fikir və mülahizələrə görə bp məsuliyyət daşımır.*

www.teaspress.az
Bütün hüquqlar qorunur.

© TEAS-Press Nəşriyyat evi, 2023

# MÜNDƏRİCAT


*Ön söz* ........ *xi*
*Müqəddimə* ........ *xiii*

I FƏSİL. BAKI-TBİLİSİ-CEYHAN BORU KƏMƏRİNİN YARANMASI

BTC haqqında əsas faktlar ........ 1
BTC kəmərinin kommersiya göstəriciləri ........ 3
BTC əsas ixrac boru kəmərinin tarixçəsi ........ 4
Xarici bazarlarda neft satmaq arzusu ........ 9
“Azəri-Çıraq-Günəşli” müqaviləsində yer almış əsas ixrac kəməri ........ 12

II FƏSİL. BTC-nin MARŞRUTUNUN TƏYİN EDİLMƏSİ

Azərbaycan neftinin əsas ixrac marşrutunun seçimi ........ 15
Heydər Əliyev: “Bu qərarı şəxsən özüm qəbul etmişəm” ........ 19
Ankara Bəyannaməsi ........ 22

III FƏSİL. BAKI-TBİLİSİ-CEYHAN ÜZRƏ SAZİŞİN İMZALANMASI

Hazırlığın son mərhələsi ........ 29
Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə sazişin imzalanması ........ 31
BTC: siyasi, yoxsa iqtisadi müqavilə? ........ 33
Natiq Əliyev: “BTC iqtisadi cəhətdən səmərəli kəmərdir” ........ 35
Kremldən İstanbul sazişlərinə soyuq baxış ........ 36
Azərbaycan BTC ilə bağlı yeni sazişlər imzalayır ........ 37
Dövlət Neft Şirkətinin BTC-dəki payının maliyyələşdirilməsi ........ 47
Dövlət Neft Fondu BTC layihəsinin maliyyələşdirilməsinə başlayır ........ 51
“BTC Co.” şirkətinin təsis edilməsi ........ 51

IV FƏSİL. BTC-nin TİKİNTİ MƏRHƏLƏSİ

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi ........ 53
Əsas ixrac boru kəmərinin tikintisi və maliyyələşdirilməsi ........ 84
Səngəçal neft terminalının genişləndirilməsi ........ 86
Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tam istismara verilməsi ........ 90

V FƏSİL. BTC-nin İSTİSMAR DÖVRÜ

Ceyhandan yola salınan ilk tanker ........ 93
BTC ilə 100 milyonuncu barel neftin ixracı ........ 93
BTC ilə 500 milyonuncu ton neftin ixracı ........ 94
BTC ilə Ceyhana çatdırılan neft ildə neçə tankerə yüklənir? ........ 95

VI FƏSİL. BTC İLƏ DAŞINAN TRANZİT NEFTİ

Xəzəryanı ölkələrin BTC ilə neft daşımaları ........ 97
Qazaxıstan neftinin BTC ilə daşınmasına dair qanunun təsdiqi ........ 100

YEKUN ........ 127
ƏLAVƏLƏR ........ 129
İSTİNADLAR ........ 131
İNDEKS ........ 133

# ÖN SÖZ

Bu kitab Xəzərin böyük neftinin böyük bazarlara çıxarılmasında Azərbaycanın və tərəfdaşlarının uzun illər ərzində sərf etdikləri gərgin əmək nəticəsində əfsanəvi görünə biləcək bir layihənin – Bakı-Tbilisi-Ceyhan boru kəmərinin gerçəkləşdirilməsinə həsr olunub.

"Faktlar, sənədlər və rəqəmlər" formatında təqdim edilən kitabda təkcə bu layihə ilə bağlı materiallar, sadəcə, toplanaraq çeşidlənməyib, layihənin tarixi, sadəcə, xronoloji ardıcıllıqla verilməyib, bu kitabda həmçinin boru kəməri ilə bağlı maraqlı faktlar toplanıb, çoxsaylı statistik məlumatlar vizual şəkildə və daha anlamlı formatda təqdim olunub, habelə layihə ətrafında baş verən bütün hadisələrin hər kəsin başa düşəcəyi dildə sadə izahı verilib.

Kitabın nəşrində məqsəd təkcə BP şirkətinin operatorluğu ilə Azərbaycanda reallaşdırılan bir layihənin hesabatını təqdim etməkdən ibarət deyil. Məqsəd həm də qapalı su hövzəsi olan Xəzər dənizinin neft ehtiyatlarının dünya bazarlarına çıxışını təmin edən Bakı-Tbilisi-Ceyhan kəmərinin ölkənin iqtisadi həyatında oynadığı rolu göstərməkdən, habelə bu layihənin Azərbaycanın iri neft ixracatçısına çevrilməsi və region ölkələri ilə əməkdaşlığın yaradılması işinə verdiyi misilsiz töhfəni vurğulamaqdan ibarətdir.

Bu irimiqyaslı layihənin həyata keçirilməsi həm Azərbaycan, həm də layihədə təmsil olunan şirkətlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan boru kəmərinin əsas resurs mənbəyi hesab edilən "Azəri-Çıraq-Günəşli" yatağının işlənilməsinə operatorluq edən BP şirkəti üçün əlamətdar hadisədir. Çünki bütün maraqlı tərəflərin səyləri nəticəsində əfsanədən reallığa çevrilən Azərbaycanın əsas ixrac boru kəməri layihəsi bundan sonra neçə onilliklər ərzində də ətraf mühitə ziyan vurmadan, səmərəli və təhlükəsiz şəkildə

işləməsi sayəsində təkcə regionda deyil, ümumən kəmərin keçdiyi bütün ölkələr boyunca yeni iqtisadi imkanlar yarada bilən bir layihədir.

Bu kitabın nəşri 2023-cü ildə, Azərbaycanda elan edilmiş "Heydər Əliyev İli"ndə Ulu Öndərin yaradıcısı olduğu Azərbaycanın neft strategiyasına bir yubiley hədiyyəsidir.

# MÜQƏDDİMƏ

2016-cı ildə Azərbaycan OPEC+ formatında dünya neft bazarının tənzimlənməsində iştirak edən ölkələr sırasına qatıldı. Beynəlxalq miqyasda Azərbaycan neftinə olan böyük maraq təkcə ölkənin hasilatçı qismində uzun illər əldə etdiyi nailiyyətlərlə şərtlənmirdi. Burada daha çox onun çoxşaxəli ixrac imkanlarının, müxtəlif ölkələrə doğru istiqamətlənmiş neft kəmərlərinin mövcudluğu və Xəzərdə ən böyük neft donanmasına malik olması kimi faktorlar da var idi. Amma, təbii ki, Azərbaycanda cəlbedici hal kimi onun əsas ixrac kəməri idi: 10 il əvvəl istismara verilmiş Bakı-Tbilisi-Ceyhan kəməri.

Ulu Öndər Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqli ilə bağlı idi. Bu sahədə Azərbaycanın maraqlarının qorunması ilə davam edən uzunmüddətli danışıqlar prosesi sonda ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi ilə yekunlaşdı.

Bu kəmərin əsas ixrac kəməri kimi çəkiləcəyi ilk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə qətiləşib dəqiqləşdi. Bununla da kəmərin reallaşmasına dair son siyasi qərar verilmiş oldu. 1998-ci il oktyabrın 29-da isə Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-nin energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsi ideyasını müdafiə edən Ankara Bəyannaməsinin imzalanması ilə bu layihəyə dair ilkin razılaşma əldə olundu.

Sonrakı dövrlərdə məhz Heydər Əliyevin siyasi iradəsi nəticəsində həmin layihəni maraqlı tərəflərlə uzlaşdırıb razılaşdırmaq, beynəlxalq güc mərkəzlərinin dəstəyini qazanmaq, nəhayət, onu imzalamaq mümkün oldu.

Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə ilk Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasını, çox təəssüf ki, görə bilmədi. Amma onun başladığı bu mürəkkəb yolu 2003-cü ildə Azərbaycan Prezidenti seçilmiş İlham Əliyev uğurla davam etdirdi. İlham Əliyev əvvəlcə Bakı-Tbilisi-Ceyhanla paralel çəkilmiş Bakı-Tbilisi-Ərzurum qaz kəməri, daha sonra isə Xəzəri Avropa ilə bağlayan "Cənub Qaz Dəhlizi" layihələrini də gerçəkləşdirdi. Məhz bunların sayəsində hazırda Azərbaycanın enerji resurslarının daha böyük həcmdə Qərb bazarlarına çıxarılması üçün geniş formatda işlər aparılır. Bu da ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Azərbaycanın neft strategiyasının təntənəsidir.

I FƏSİL

# BAKI-TBİLİSİ-CEYHAN BORU KƏMƏRİNİN YARANMASI

## BTC haqqında əsas faktlar

Azərbaycanın əsas ixrac neft kəməri olan Bakı-Tbilisi-Ceyhan (BTC) hazırda, əsasən, "Azəri-Çıraq-Günəşli" yatağından hasil edilən nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı nəql edir. Bundan əlavə, Xəzər hövzəsi ölkələrində (Türkmənistan, Qazaxıstan və Rusiya) hasil edilən neftin bir hissəsi də dünya bazarlarına bu boru kəməri ilə çıxarılır. Rusiya neftinin BTC ilə nəqli 2022-ci il dekabrın 1-dən dayandırılıb.[1]

BTC kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayıb Azərbaycandan, Gürcüstandan və Türkiyədən keçərək Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan dəniz terminalınadək uzanır.

- Birbaşa təsirə məruz qalan, başqa sözlə, boru kəməri marşrutunun hər iki tərəfində 2 km dəhliz boyunca 450 icma (750 min adam) qeydə alınıb. Təqribən 100 000 insan birbaşa təsirə məruz qalan qismində tanınıb.[2]
- 2003-cü ilin sonuna qədər boru kəməri boyunca torpaq sahiblərinə 133 milyon ABŞ dolları məbləğində vəsait ödənilib; vergilər, hökumət ödənişləri və hüquqi xərclər bu məbləğə daxil deyil.
- Torpaqayırma işləri üzrə ümumilikdə 22 000 saziş imzalanıb.
- Boru kəməri boyunca İctimai Sərmayə Proqramı üzrə 25 milyon dollar vəsait xərclənib.
- Kəmərin tikintisinə 2003-cü ilin aprel ayında start verilib.
- Kəmərin əvvəlindən sonunadək 220 000 boru hissəsi qaynaqlanıb və 2 milyon borunun qaldırılması əməliyyatı yerinə yetirilib.

- Kəmərin tikintisinə ümumilikdə 110 milyon adam-iş saatı sərf olunub.
- Boru kəməri bütün marşrut boyunca torpağa basdırılıb, 500 yaşayış məntəqəsinin ərazisindən keçib və tikinti zamanı heç bir ev başqa yerə köçürülməyib.
- Boru kəmərinin tikintisi üzrə əsas podratçılar bunlardır: Azərbaycan ərazisində CCIC şirkəti, Gürcüstanda "Spi Petrofak" şirkəti, Türkiyə hissəsinin tikintisi üzrə əvvəlcədən təsbit olunmuş qiymətə "açar" təhvili müqaviləsi əsasında BOTAŞ şirkəti.
- Tikintinin ən intensiv dövründə təqribən 22 000 adam işə cəlb olunub ki, onların da 80 faizə qədərini yerli əhali təşkil edib.
- Neft boru kəmərinin Gürcüstan hissəsinə 2005-ci il avqustun 10-da, Türkiyə hissəsinə 2005-ci il noyabrın 18-də daxil olub, Ceyhan terminalına isə 2006-cı il mayın 28-də çatıb.[3]
- Boru kəməri 2006-cı ilin iyun ayından etibarən istismardadır.
- Kəmərin modernizə edilməmiş istismar müddəti 40 ildir.
- Boru kəmərinin Azərbaycan və Gürcüstanda yerləşən hissələrinin operatoru "BTC Co." şirkətinin səhmdarları adından BP, Türkiyədə yerləşən hissəsinin operatoru isə "BOTAŞ İnterneşnl Limited" (BİL) şirkətidir.
- Boru kəmərinin uzunluğu 1768 kilometrdir: onun 443 km-i Azərbaycandan, 249 km-i Gürcüstandan, 1076 km-i isə Türkiyədən keçir.
- Boru kəmərinin Azərbaycan hissəsində diametri 42 düymdür. Gürcüstan ərazisində bu göstərici 46 düymdür. Boru kəmərinin diametri Türkiyədə Ceyhan dəniz terminalına enən axırıncı eniş boyu hissədə 34 düymədək azalır.
- BTC ilə nəql edilən 600 min barel həcmində Azərbaycan nefti ilə doldurulmuş ilk tanker ("British Hawthorn") Ceyhan limanını 2006-cı il iyunun 4-də tərk edib.
- BTC-nin gündəlik ötürmə gücü hazırda 1,2 milyon bareldir.
- 2010-cu il iyulun 21-də BTC ilə 1 milyon 57 min barel xam neft nəql edilib, bununla da kəmər özünün indiyədək ən yüksək gündəlik ötürmə gücü səviyyəsinə çatıb.[4]
- 2010-cu ildə kəmərlə illik nəqletmə ən yüksək göstəriciyə – 286 milyon 214 min barelə çatıb, yəni gündəlik ortalama

784 148 barel. 2022-ci ildə BTC vasitəsilə ixrac olunmuş təxminən 224 milyon barel xam neft və kondensat Ceyhan terminalında 305 tankerə yüklənərək yola salınıb.[5]

- BTC boru kəmərinin obyektlərinə 8 nasos stansiyası (Azərbaycanda 2, Gürcüstanda 2, Türkiyədə 4), 1 təzyiq azaltma stansiyası, 2 aralıq ərsinburaxma stansiyası, 101 kiçik siyirtmə məntəqəsi daxildir.
- Boru kəməri 1500-dən artıq çayla və 13 seysmik qırılma xətti ilə kəsişir. Boru kəmərinin ən yüksək nöqtəsi hündürlüyü 2800 metr olan dağlardan keçdiyi yerdir, bundan sonra 0, Ceyhanda yenidən dəniz səviyyəsinə enir.
- BTC boru kəməri Azərbaycanda 13 bölgədən: Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa rayonlarından; Gürcüstanda 7, Türkiyədə isə 9 bölgədən keçir.
- BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara veriləndən 2022-ci ilin sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 531 milyon tondan çox (3,99 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5244 tankerə yüklənərək dünya bazarlarına çıxarılıb. 2023-cü il yanvarın 18-də isə BTC ilə neft ixracı 4 milyard barel həddinə çatıb.

## BTC kəmərinin kommersiya göstəriciləri:[6]

- BTC-nin birbaşa inşaat xərcləri 4 milyard ABŞ dolları təşkil edib. Bu yalnız tikinti işlərinin xərcidir, boru kəmərinin doldurulması, maliyyə xərcləri və bank faizlərinin ödənilməsi bura daxil deyil.
- Ümumi maliyyə kreditinin məbləği 2,6 milyard dollardır.
- Maliyyə kreditləri verən qurumlar: Beynəlxalq Maliyyə Korporasiyası və AYİB (Avropa Yenidənqurma və İnkişaf Bankı);
- Altı ölkədən (Böyük Britaniya, ABŞ, Almaniya, Yaponiya, Fransa, İtaliya) ixrac kredit agentlikləri və siyasi risklər üzrə sığorta qurumları;
- “ABN Amro”, “Citigroup”, “Mizuho” və “Societe Generale” başda olmaqla 15 kommersiya bankı;
- BP, “Equinor”, “TotalEnergies” və “ConocoPhilips” də baş sponsor kimi kredit ayırıb.




"BTC Co." şirkətinin səhmdarları

Azərbaycanın əsas ixrac boru kəmərinin tikintisi və istismarı üçün 2002-ci ilin avqustunda yaradılmış "BTC Co." şirkətinin səhmdarları hazırda 11 şirkətdir:

## BTC əsas ixrac boru kəmərinin tarixçəsi

**5 sentyabr 1997**

Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması və ona danışıqların aparılması üçün lazım olan bütün səlahiyyətlərin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanır. İşçi qrup əsas ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq və sərmayəçilərin, digər əlaqədar təşkilatların

iştirakı ilə neft kəmərinin çəkilişi zamanı ortaya çıxan məsələlərin operativ həllini təmin etmək məqsədilə yaradılır.

**29 oktyabr 1998** Türkiyə Böyük Millət Məclisində Türkiyə Prezidenti Süleyman Dəmirəl, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, habelə ABŞ-nin energetika naziri Bill Riçardson Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara Bəyannaməsini imzalayırlar.

**20 noyabr 1998** ARDNŞ-nin I vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev ABŞ-də "Avrasiya nəqliyyat dəhlizi: əfsanə və reallıq" mövzusunda konfransda çıxış edərkən Azərbaycan hökumətinin Bakı-Tbilisi-Ceyhan marşrutuna sadiq olduğu barədə bəyanat verir.

**17 aprel 1999** Azərbaycan neftinin Gürcüstan üzərindən ixracını nəzərdə tutan Bakı-Supsa neft kəməri istismara verilir.

**18 noyabr 1999** İstanbulun "Çırağan" sarayında "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-nin şahidliyi ilə Azərbaycan, Gürcüstan və Qazaxıstan respublikaları arasında İstanbul Bəyannaməsinin, Trans-Xəzər qaz kəməri barədə Azərbaycan, Türkiyə, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq

| | |
|---|---|
| | bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında "Qarşılıqlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilir. |
| **29 dekabr 1999** | Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BTC əsas ixrac boru kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında Sərəncam imzalayır. |
| **29 dekabr 1999** | Neft ehtiyatlarının istismarından əldə edilən gəlirlərin səmərəli istifadəsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Dövlət Neft Fondu təsis edilir. |
| **30 avqust 2001** | Azərbaycan hökuməti "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinə dair "Faza-1" layihəsinə sanksiya verir. |
| **24 may 2002** | Moskvada rəsmi səfərdə olan ABŞ Prezidenti Corc Buş rusiyalı həmkarı Vladimir Putinlə birgə mətbuat konfransında "Xəzər boru kəməri (Tengiz-Novorossiysk) və Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Xəzər dənizinin nəhəng enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının təşkilini özəl müəssisələr öz üzərilərinə götürəcək" fikrini və "Mən enerji və enerji təhlükəsizliyi sahəsində əməkdaşlığınıza və birgə işləməyə hazır olduğunuza görə sizə təşəkkür etmək istəyirəm" bəyanatını səsləndirir.[7] |
| **30 iyul 2002** | Azərbaycan Respublikasının Prezidenti BTC boru kəməri layihəsində ARDNŞ-nin (SOCAR) iştirak payının maliyyələşdirilməsi haqqında Fərman imzalayır. |
| **29 noyabr 2002** | ABƏŞ-in prezidenti Devid Vudvord Tbilisidə Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Georgi Çanturiya və Təbii Ehtiyatlar Nazirliyinin "Yaşıllar" hərəkatının nümayəndələri ilə keçirilən görüşdə BTC əsas ixrac boru kəmərinin marşrutunun dəyişməyəcəyini qəti şəkildə bəyan edir, bununla da həmin məsələdə qarşılıqlı razılıq əldə olunur. |

| | |
|---|---|
| **1 avqust 2002** | BTC neft kəmərinin tikintisini və istismarını həyata keçirmək üçün Kayman adalarında "BTC Co." şirkəti təsis edilir. |
| **Aprel 2003** | Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə start verilir. |
| **11 avqust 2003** | Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev BTC əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, Bakı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış olur. |
| **11 noyabr 2003** | Avropa Yenidənqurma və İnkişaf Bankı İdarə Heyəti BTC boru kəməri tikintisi layihəsinə 250 milyon dollar kredit qərarını təsdiqləyir. |
| **3 fevral 2004** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakıda "Gülüstan" sarayında BTC ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsi üçün layihənin son maliyyələşmə sənədləri paketi imzalanır. |
| **10 mart 2004** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 38 nömrəli Fərmanının 12-ci bəndinə görə, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının əbədiləşdirilməsi ilə əlaqədar olaraq, bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən irəli sürülən təşəbbüslərə əsasən BTC neft kəmərinə Heydər Əliyevin adının verilməsi təklifi dəstəklənir. |
| **16 oktyabr 2004** | Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində, Gürcüstanın Qardabani rayonu ilə sərhəddə BTC kəmərinin Azərbaycan və Gürcüstan hissələrini birləşdirməsi mərasimi keçirilir. "Qızıl qaynaq" adlanan bu mərasimdə hər iki ölkənin prezidentləri: İlham Əliyev və Mixail Saakaşvili boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdirirlər.[8] |
| **10 may 2005** | Operatoru BP olan "BTC Co." şirkəti Səngəçal terminalındakı BTC baş nasos stansiyasının neftlə doldurulmasına başlayır. |



BTC neft ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi

| | |
|---|---|
| **25 may 2005** | BTC neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin rəsmi açılışı keçirilir. |
| **12 oktyabr 2005** | BTC kəmərinin Gürcüstan hissəsi istifadəyə verilir. Bu münasibətlə Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilir. |
| **28 may 2006** | BTC kəməri ilə nəql edilən Azərbaycan nefti Türkiyənin Ceyhan terminalına çatdırılır. |
| **4 iyun 2006** | Xəzər nefti ilə yüklənmiş ilk tanker Ceyhan terminalından dünya bazarlarına yola salınıb. |
| **16 iyun 2006** | Azərbaycanla Qazaxıstan arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və |

| | |
|---|---|
| | Azərbaycan Respublikasının ərazisi ilə BTC kəməri vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında müqavilə imzalanır. |
| **13 iyul 2006** | BTC boru kəmərinin Türkiyədəki hissəsi, Ceyhan terminalı və BTC boru kəmərinin ixrac sisteminin açılış mərasimi keçirilir. |
| **Mart 2007** | BP şirkəti BTC-nin gündəlik buraxıcılıq gücünün 1 milyon barelə (ildə 50 milyon ton) çatdırıldığını elan edir. |
| **Mart 2009** | BP şirkəti BTC-nin gündəlik buraxıcılıq gücünün 1,2 milyon barelə (ildə 60 milyon ton) çatdırıldığını elan edir. |
| **13 sentyabr 2010** | BTC boru kəməri ilə nəql olunan xam neftin həcmi 1 milyard barelə çatır. |
| **22 oktyabr 2012** | Ceyhan terminalında BTC ilə nəql edilmiş neftin yüklənildiyi 2000-ci tanker yola salınır. |
| **22 aprel 2014** | Ceyhan terminalında BTC ilə nəql edilmiş neftin yüklənildiyi 2500-cü tanker yola salınır. |
| **15 sentyabr 2015** | Ceyhan terminalında BTC ilə nəql edilmiş neftin yüklənildiyi 3000-ci tanker yola salınır. |
| **16 iyul 2018** | BTC ilə ixrac olunan neftin həcmi 3 milyard barelə çatır. |
| **13 dekabr 2021** | BTC ilə ixrac olunan neftin həcmi 500 milyon tona çatır. |
| **23 mart 2022** | Ceyhan terminalında BTC ilə nəql edilmiş neftin yüklənildiyi 5000-ci tanker yola salınır.[9] |
| **18 yanvar 2023** | BTC ilə ixrac olunan neftin həcmi 4 milyard barelə çatır. |

## Xarici bazarlarda neft satmaq arzusu

Azərbaycan 1991-ci ildə müstəqillik qazanandan sonra öz gələcək inkişafını bazar iqtisadiyyatı üzərində qurulan münasibətlərdə görür, eyni zamanda dövlət iqtisadiyyatından özəl iqtisadiyyat keçidin çətinliklərini də başa düşürdü. Çünki dövlətin əlində

cəmləşmiş iqtisadi imkanlar əvvəlki illərdə olduğu kimi gəlir gətirmirdi. Keçmiş sovet respublikaları arasında onilliklər boyu mövcud olmuş iqtisadi əlaqələr zəifləmiş, bəzi hallarda isə ümumiyyətlə heçə enmiş, get-gedə dağılan mərkəzləşmiş iqtisadi münasibətlərin yerində isə yenisini qurmaq mümkün olmamışdı.

Yenicə müstəqillik qazanmış ölkənin inkişaf yoluna çıxması üçünsə hökmən kapital lazım idi. Özü də stabil gəlirli iqtisadi sahələrin olması mütləq şərt idi ki, keçid dövrünün üfüqdə görünən dumanlı yolunda yeni, mürəkkəb və ziddiyyətli məqamlarla rastlaşanda onları dəf etmək imkanı olsun.

Azərbaycanda müstəqillik əldə ediləndən sonra üç ildən az bir müddətdə üç dövlət başçısı dəyişmişdi. Çünki Azərbaycan digər postsovet respublikalarından fərqli olaraq, özünün müstəqilliyinə daha ağır şəraitdə başlamalı olmuşdu: qonşu respublika ilə yaşanan etnik münaqişə, – hansı ki, sonradan, sözün əsl mənasında, müharibəyə çevrildi, – və Qarabağ uğrunda müharibənin birinci mərhələsi Azərbaycanın məğlubiyyəti, torpaqlarının 20 faizi üzərində nəzarətin itirilməsi, 1 milyon nəfərədək qaçqın və köçkün ordusunun yaranması və bir neçə il hiperinflyasiya şəraitində yaşaması ilə nəticələndi.

Belə bir şəraitdə Azərbaycanda xalqın çağırışı və tələbi ilə hakimiyyətə gəlmiş Heydər Əliyev iqtisadi yüksəlişə nail olmaq üçün istinad nöqtəsi olaraq neft sənayesini görürdü. Çünki bu dahi şəxsiyyət hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi sənayeyə rəhbərlik etdiyi zamandan neft-qaz sektorunun gətirdiyi və gətirə biləcəyi gəlirlərin iqtisadiyyatın digər sahələrinin verəcəyi mənfəətdən nə qədər böyük və üstün olduğunu yaxşı bilirdi.

Amma neft sektorunun yüksəlişi təmin edə biləcək gəlirlilik səviyyəsinə çıxması üçün onun modernizasiyaya ehtiyacı vardı. Vəziyyəti mürəkkəbləşdirən bir amil də o idi ki, neft-qaz sektoru digərlərindən daha çox kapital tələb edən sahə idi. Kapitalyönümlü olmasına baxmayaraq, burada məşğulluq digər sahələrlə müqayisədə dəfələrlə az idi. Ona görə də Azərbaycan neftdən elə həcmdə gəlir əldə etməli idi ki, bu qazanc ölkənin bütün vətəndaşlarının həyatında hissolunacaq dəyişikliklərə gətirib çıxarsın.

O dövrdəki hadisələrə indi nəzər yetirəndə, demək olar ki, 1993-cü ilin sonuna doğru Azərbaycan rəhbərliyi iqtisadi dönüşün yaradılması üçün əlindəki imkanları və problemlərin həlli yollarını aşağıdakı şəkildə görürdü:

- Xarici bazarlara dünya miqyasında rəqabətədavamlı xammal, mal və xidmət çıxarmaq lazım idi. Bunlardan ölkədə o dövr üçün yalnız xammal vardı və bu xammal da neft idi.
- Neft satışından inkişaf üçün lazım olacaq gəliri əldə etmək üçün hasilatın həcmini dəfələrlə artırmaq lazım idi. Hasilatın artımı hələ qazanca nail olmaq demək deyildi, gərək onu bazara çıxarıb kapitala çevirmək imkanı da olaydı. Məsələni qəlizləşdirən bir problem də Xəzərin qapalı su hövzəsi olması, yəni Azərbaycanın dünya bazarına birbaşa çıxışının olmaması idi. Digər amil isə o idi ki, Azərbaycan müstəqillik illərində xam neft satan ölkə deyildi; Qroznı-Bakı ixrac kəmərinə gəlincə isə, bu kəmər ötən əsrin 80-ci illərində Rusiyada hasil olunan neftin emal edilmək üçün Azərbaycana göndərilməsindən ötrü çəkilmişdi.
- Bu məsələnin həllinə nail olmağın yolu müasir texnologiyaların cəlb edilməsindən keçirdi ki, buna da böyük kapital qoyuluşu tələb olunurdu. Bütün bunlar xarici şirkətlərlə işbirliyinin qurulmasını zərurətə çevirirdi.
- Xarici şirkətlər üçün elə münbit şərait yaradılmalı idi ki, onlar bir tərəfdən Azərbaycan hökumətinin təkliflərindən boyun qaçırmayaydılar, digər tərəfdən isə bir neçə yaşı olan gənc ölkə ilə mənfəətin bölüşdürülməsi məsələsində "nə edim ki, daha çox qazanım" prinsipindən daha cəlbedici təkliflərə meyil edəydilər.

Azərbaycan bu məsələlərin həlli üçün keçmiş Sovetlər Birliyi məkanında yenilik olan addımı atır – yataqların işlənilməsi hasilatın pay bölgüsü sazişləri (HPBS) əsasında həyata keçiriləcəkdi. Bu da neft sənayesinin tam olmasa da, qismən bazar relsləri üzərinə keçməsi demək idi. Burada dövlətlə şirkətlərin münasibətləri artıq elə qaydalarla tənzimlənirdi ki, hökumətin sonradan hansı qərarları verməsindən və öz iqtisadi kursunu hansı səmtdə aparmasından asılı olmayaraq, müqavilə sahəsində məhz parlament tərəfindən təsdiq edilərək qanun səviyyəsinə qaldırılmış HPBS müqaviləsindən irəli gələn maddələr işləsin.

Necə deyərlər, Azərbaycan hökuməti özünün neft sənayesinin xarici investisiyalar üçün açıq olduğunu gündəmə gətirir və xarici sərmayədarlara yatırdıqları vəsaitin sonradan müqavilə ilə

razılaşdırılmış şəkildə geri qaytarılmasına dövlət zəmanəti verdiyini ortaya qoyurdu.

Bu proses onunla yekunlaşdı ki, Azərbaycan çox mürəkkəb ictimai-siyasi və iqtisadi şəraitdə olmasına baxmayaraq, 1994-cü il sentyabrın 20-də özünün ilk HPBS tipli müqaviləsini – "Azəri-Çıraq-Günəşli" dəniz neft yataqları bloku üzrə kontraktı imzalamağa nail oldu.

Həmin müqavilədə şirkətləri Azərbaycana bağlayan bir sıra maraqlı məqamlar vardı. Yəni məsələ dünyanın digər ölkələrində olduğu kimi "neftini çıxar, gətir yaxınlıqdakı məntəqədə təhvil ver və ya sat, pulunu al, vergini ödə və mənfəəti bölüşdür" şəkilli sadə sxemli biznes fəaliyyəti ilə yekunlaşmırdı.

Əvvəla, Azərbaycan şirkətlərə elə bir dəniz yataqları təklif etmişdi ki, onların risk dərəcəsi çox aşağı idi, yəni burada təsdiqlənmiş neft ehtiyatları vardı, sadəcə, yeni qiymətləndirilmə aparılmalı idi. İkincisi, Azərbaycanın vəziyyətindən asılı olmayaraq, işlək neft-qaz infrastrukturu mövcud idi və müxtəlif sahələr üzrə mütəxəssisləri vardı. Üçüncüsü, Azərbaycan imzaladığı müqavilə ilə yataqların mərhələli şəkildə işlənilməsi prosesinin icra olunmasını və görüləcək işlərin həcminin zaman-zaman artırılmasını nəzərdə tuturdu. Həmçinin yeni terminalın tikintisi, onun genişləndirilməsi, mövcud ixrac sisteminin təmiri, yeni ixrac kəmərlərinin tikintisi nəzərdə tutulmuşdu.

Yəni xarici şirkətlərin Azərbaycanda onilliklər boyu fəaliyyət göstərməsi üçün geniş imkanlar ortaya qoyulurdu. Sonrakı dövr göstərdi ki, neft sənayesində xarici sərmayədarlarla əməkdaşlığın məhz Azərbaycan modeli layihələrə qoyulan kapital xərcləmələri, hasil edilən karbohidrogen ehtiyatlarının maya dəyəri, vaxtında yaradılan infrastruktur və əldə edilən gəlirlərin rasional xərclənməsi baxımından digər Xəzəryanı ölkələrdə həyata keçirilən neft-qaz müqavilələrindən daha effektiv oldu.

## "Azəri-Çıraq-Günəşli" müqaviləsində yer almış əsas ixrac kəməri

Azərbaycanın böyük neftini dünya bazarlarına çıxaracaq infrastrukturun yaradılması məsələsi hələ ölkə müstəqillik illərində özünün xarici şirkətlərlə ilk müqaviləsini imzalamasından əvvəl diskussiya mövzusuna çevrilmişdi.

Hasil edilən neftin dünya bazarlarına necə çıxarılacağı məsələsi öz əksini 1994-cü il sentyabrın 20-də imzalanmış "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinə dair hasilatın pay bölgüsü sazişində[10] tapmışdı. Belə ki, müqavilənin X maddəsi "İlkin neft hasilatının əldə edilməsinin, yataqların tammiqyaslı işlənilməyə başlamasının və əsas ixrac neft kəmərinin istismara verilməsinin nəzərdə tutulan müddətləri və şərtləri" adlanır. Burada 10.1 maddəsinin "c" bölümündə göstərilirdi ki, "xam neftin əsas ixrac neft kəmərinə verilməsinə başlanması – qüvvəyəminmə tarixindən sonrakı əlli dörd (54) ay ərzində" həyata keçirilə bilər.

Yəni müqavilənin şərtlərindən çıxış etsək, neftin əsas ixrac boru kəmərinə doldurulmasına 1999-cu ilin mayında başlanılmalı idi. Reallıqda isə neft boru kəmərinin Gürcüstan hissəsinə 2005-ci il avqustun 10-da, Türkiyə hissəsinə 2005-ci il noyabrın 18-də daxil olmuş, Ceyhan terminalına 2006-cı il mayın 28-də çatmışdı.

Azərbaycan Prezidenti Heydər Əliyev müqavilədəki 54 ay məsələsini konsorsium rəhbərliyinin diqqətinə hələ 1996-cı ilin oktyabrında ABƏŞ Rəhbər Komitəsi üzvlərini qəbul edib görülən və görüləcək işlərlə bağlı verilən məlumatları dinləyərkən çatdırmışdı. Amma ABƏŞ rəhbəri Terri Adams əsas ixrac boru kəmərini bu müddət ərzində hazır etməyin mümkün olub-olmaması ilə bağlı suala o zaman birmənalı cavab verməmişdi.

Elə zənn etmək olmaz ki, şirkətlər müqavilədə yazılan və özlərinin təsdiq etdikləri maddələrə əməl etməkdən hansısa səbəb üzündən boyun qaçırıb. Bu göstərilən müddətlərə AÇG müqaviləsində nə zaman əməl edilməsi və nə zaman edilməməsi də göstərilir və səbəbləri də açıqlanır.

Müqavilədə qeyd olunur: "Tərəflər razıdır ki, hazırda əldə olan məlumata əsaslanmaqla yuxarıda göstərilən müddətlərə riayət edilməsi Tərəflər üçün ən optimal iqtisadi nəticələri təmin etməyə imkan verir. Tərəflər qeyd edirlər ki, nəzərdə tutulan bu müddətlər (yaxud Tərəflərin bu sənəddə nəzərdə tutulmuş qaydada razılaşdırdıqları hər hansı başqa müddətlər) dəqiq müddətlərə maksimum yaxın olan müddətlərdir və Podratçı üçün öhdəlik deyildir. Tərəflər işlərin gedişinə müntəzəm nəzarət edəcək və zəruri hallarda əsaslı səbəblər olduqda bu müddətlər Tərəflərin qarşılıqlı razılığı ilə dəyişdiriləcəkdir".

Ona görə də hətta 1996-cı ilin oktyabrında Rəhbər Komitənin V iclasında "ilkin neftin "Çıraq-1" platformasından hasil edilməsinə"

dair qəbul edilmiş qərara görə, bu hadisə 1997-ci il avqustun 28-nə proqnoz edilsə də, reallıqda onu həmin il noyabrın əvvəllərində gerçəkləşdirmək mümkün oldu. Çünki neftin hasilatı, ilkin emalı və nəqli çox mürəkkəb proseslərin məcmusudur və onları heç də həmişə dəqiq proqnozlaşdırmaq mümkün olmur. Gecikmələrlə bağlı obyektiv səbəblər ortaya çıxır. Bu kimi səbəblər olduğundan Azərbaycan tərəfi məsələləri heç vaxt arbitraj məhkəməsində həll etmək fikrinə də düşməyib.

II FƏSİL

# BTC-nin MARŞRUTUNUN TƏYİN EDİLMƏSİ

## Azərbaycan neftinin əsas ixrac marşrutunun seçimi

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ, "Azəri-Çıraq-Günəşli" neft yataqları blokunun istismar edilməsi üçün yaradılmış konsorsium) ekspertləri 1996-cı ilin avqust ayında əsas ixrac boru kəmərinin marşrutlarının öyrənilməsinə başladılar. Bunu ABƏŞ-in Bakıdakı mənzil qərargahı "Villa Petrolea"nın açılışı mərasimində jurnalistlərə ABƏŞ-in xam neftin ixrac məsələləri üzrə vitse-prezidenti Qreqori Riç bəyan etmişdi.[11]

Onun sözlərinə görə, ilkin olaraq ildə 35-40 milyon ton nefti dünya bazarlarına çıxarmaq qabiliyyətində olan boru kəmərinin tikintisi və onun optimal variantları nəzərdən keçirilir. ABƏŞ vitse-prezidenti əlavə etmişdi ki, əsas ixrac boru kəmərinin marşrutları arasında Bakı-Ceyhanın adı daha çox hallanır və Ceyhana qədər uzanan bir neçə marşrut nəzərdən keçirilir. Bu da onunla əlaqədardır ki, əgər Azərbaycan nefti boru kəməri ilə Ceyhana çıxarılsa, o zaman Bosfor üzərindən keçid zamanı həm yaşana biləcək gərginliyi, həm də mümkün ekoloji riskləri tam aradan qaldırmaq mümkün olacaq. Qara dəniz limanlarına gedən marşrutlar isə həcmlərin artımı ilə sözügedən riskləri də artırmış olur.

Elə həmin il oktyabrın 10-da Azərbaycan Prezidenti Heydər Əliyev ABƏŞ-in Rəhbər Komitəsinin üzvlərini qəbul edərkən dövlət başçısına məlumat verilmişdi ki, 1997-ci ilin yayında əsas ixrac boru kəmərinin marşrutlarına dair müfəssəl hesabat hazır olacaq. ABƏŞ prezidenti Terri Adams hazırda aşağıdakı mümkün marşrutlara baxıldığını bildirirdi:

- Neftin Rusiyadan keçməklə Qara dəniz limanına çatdırılması, sonra Bosfordan keçməklə dünya bazarlarına tankerlərlə daşınması;
- Neftin Rusiyadan keçməklə Qara dəniz limanına çatdırılması, sonra tankerlərlə Bolqarıstanın Burqas limanına daşınması, daha sonra Burqas-Aleksandropol kəməri ilə Bosfordan yan keçməklə dünya bazarlarına daşınması;
- Neftin Gürcüstandan keçməklə Qara dəniz limanına çatdırılması;
- Türkiyə ərazisindən keçməklə Ceyhan limanına çatdırılması (bu zaman Ceyhana neftin iki müxtəlif variantda çatdırılması mümkündür);
- Sonuncu variant kimi neftin tankerlərlə Türkmənistana daşınması, daha sonra isə Türkmənistan-Əfqanıstan-Pakistan marşrutu ilə Ərəbistan dənizindəki limana çatdırılması.

Bildirilirdi ki, qiymətləndirmə işləri yekunlaşandan sonra hesabat hazırlanaraq Azərbaycan hökumətinə və ABƏŞ səhmdarlarına təqdim olunacaq.

Maraqlıdır ki, bu görüşdə Azərbaycanın dövlət başçısına əsas ixrac kəmərlərinin mümkün variantları arasında İran üzərindən keçməsi mümkün olan heç bir məlumat verilməmişdi. Cənub istiqamətində İrandan yan keçməklə böyük məsafələr qət edilәsi və Pakistan sahillərində dünya okeanına çıxa biləcək bir marşturdan söhbət açılırdı. Baxmayaraq ki, ABƏŞ-in müşaviri, professor Söhrab Sübhani (ABŞ-nin "Amoco" şirkətinin nümayəndəsi) hələ 1996-cı ilin yanvarında BBC radiostansiyasına müsahibəsində bildirmişdi ki, əsas ixrac boru kəməri bir neçə marşrutu da əhatə edə bilər, amma bunlardan biri hökmən Türkiyədən keçməlidir. ABƏŞ müşaviri İran üzərindən Fars körfəzinə Azərbaycan neftinin çıxarılması variantının mümkünlüyünü isə "İranın siyasi həyatında baş verə biləcək mümkün pozitiv dəyişikliklərdən, o cümlədən rəsmi Tehranın baxışlarının Vaşinqtonla yaxınlaşmasından sonra" istisna etmədiyini vurğulayırdı.

İşçi qrupun əsas ixrac boru kəmərinin mümkün marşrutları haqda hazırladığı hesabat 1997-ci ilin iyununda ABƏŞ Rəhbər Komitənin

VI iclasında müzakirə edildi. Hesabatda 42 düymlük diametrdə olmaqla müxtəlif marşrutlar üzrə çəkilə biləcək magistral neft kəmərinin texniki-iqtisadi göstəriciləri və maliyyə-kommersiya baxımından qiymətləndirilməsi öz əksini tapmışdı. ABƏŞ hesabatı Azərbaycan Dövlət Neft Şirkətinə təqdim etmişdi.

ARDNŞ prezidenti Natiq Əliyev bir qədər sonra jurnalistlərə açıqlamasında marşrutlara münasibətini bildirərkən vurğulayırdı ki, təklif edilən boru kəmərlərindən ən ucuzu Bakı-Supsa istiqamətindədir. Amma onun çatışmayan ən böyük cəhəti tankerlərin Türkiyə boğazlarında gəmi naviqasiyası üçün gərginlik yaratması və mümkün ekoloji risk təhlükəsini artırmasıdır. Bu baxımdan Azərbaycan tərəfi boğazlardan yan keçən və birbaşa Aralıq dənizinə çıxan Bakı-Ceyhan marşrutunu dəstəkləyir.

Artıq ortada xarici şirkətlərin boru kəmərləri ilə bağlı hazırladığı bir hesabat vardı. Azərbaycan tərəfi faktiki olaraq öz seçimini etmişdi. Özü də əsas ixrac kəmərinin Türkiyə istiqamətində olması və Aralıq dənizində hələ XX əsrin 70-ci illərindən fəaliyyət göstərən Ceyhan terminalına (o zaman İraq neftinin dünya bazarlarına çıxarılması üçün inşa edilmişdi) qədər uzanacağı rəsmi Bakının əvvəldən önəm verdiyi bir layihə idi.

Azərbaycan Prezidenti Heydər Əliyev 2002-ci il iyunun 25-də İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfransda[12] çıxış edərkən bu məsələnin nə zamandan gündəmdə olduğunu xatırlayaraq bildirmişdi: "Biz Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında hələ 1994-cü ildən düşünürdük. Amma o vaxtlar buna inananlar çox az idi. Mane olanlar da çox idi və bu günə qədər də bəziləri hesab edirlər ki, bu, xəyaldır".

Xəyallarda olanların gerçəkləşdirilməsi üçün isə təkcə Azərbaycanın istəyi yetərli deyildi, bu layihədə iştirak edəcək şirkətləri də buna inandırmaq lazım idi. Bunun real yolu isə vaxt itirmədən müxtəlif ölkələrin hökumətləri və şirkətlər arasında əlaqələri yaratmaq, qarşıya çıxan problemləri operativ şəkildə həll etmək və gələcəkdə imzalanacaq sənədlərin hazırlanması işlərini tamamlamaq lazım idi. Bu baxımdan Azərbaycan Prezidentinin imzaladığı 5 sentyabr 1997-ci il tarixli Sərəncam əsas ixrac kəmərinin marşrutunun seçilməsi yolunda atılan faktiki olaraq ilk böyük addım idi.

### Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Əsas ixrac neft kəməri marşrutunun seçilməsi, onun idarə edilməsi üzrə müvafiq şirkətin yaradılması barədə təkliflər hazırlamaq və sərmayəçilərin, digər əlaqədar təşkilatların iştirakı ilə neft kəmərinin çəkilişi zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

| | |
|---|---|
| **Abid Şərifov** | Azərbaycan Respublikası Baş nazirinin müavini (qrupun sədri) |
| **Natiq Əliyev** | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti |
| **İlham Əliyev** | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti |
| **Valeh Ələsgərov** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xarici Sərmayələr İdarəsinin rəisi |
| **Endi Hopvud** | "BiPi AMOKO Eksploreyşn Azərbaycan (Şah Dəniz) Ltd." şirkətinin prezidenti |
| **Torivar Pedersen** | "Statoyl Azərbaycan" şirkətinin prezidenti |
| **Terri Adams** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti |
| **Qreq Piç** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin vitse-prezidenti |
| **Çey Pirson** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ixrac üzrə baş meneceri. |

2. Bu sərəncamın birinci bəndi ilə yaradılmış işçi qrupunun sədrinə Azərbaycan Respublikası adından danışıqların aparılması, neft kəməri keçən ölkələrin dövlət strukturları və müvəkkil orqanları ilə müqavilələrin hazırlanması səlahiyyəti verilsin.
3. İşçi qrupuna tapşırılsın ki, əsas ixrac neft kəmərinin çəkilişi ilə əlaqədar sazişlər hazırlandıqdan sonra onları baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 5 sentyabr 1997-ci il

## Heydər Əliyev: "Bu qərarı şəxsən özüm qəbul etmişəm"

Azərbaycan Prezidentinin göstərişi ilə yaradılan işçi qrup fəaliyyətini daha çox əməli işlər üzərində qurur, həyata keçirilən işçi səfərlər, onların nəticələri barədə mətbuata hansısa açıqlamalardan uzaq durmağa çalışırdı. Çünki istər ölkə daxilində, istərsə də xaricdə diqqət Azərbaycan hakimiyyətinin verəcəyi qərara yönəlmişdi. Bu məsələdə maraqlı olan tərəflər veriləcək qərara müxtəlif addımlarla təsir etmək niyyətində idilər. Ona görə də rəsmi Bakının əsas ixrac boru kəməri ilə bağlı hansı məsələləri müzakirə etməsi, hansı nəticəyə gəlməsi, şirkətlərin buna münasibəti ictimaiyyət üçün uzun müddət sirr olaraq qaldı.

Amma bu sükutu elə Heydər Əliyev özü pozdu. Yəni hesab etdi ki, artıq məsələnin çözülmə anı yetişib və onu çox uzatmağın elə bir mənası yoxdur.

Prezident Heydər Əliyev 1998-ci il aprelin 23-də - Türkiyəyə işgüzar səfərindən üç gün öncə Türkiyənin "Nərgiz TV" (NTV) telekanalına müsahibəsində Bakı-Ceyhan marşrutunun seçilməsi ilə bağlı bir sıra maraqlı məqamları ictimailəşdirdi:

**Sual:** Türkiyənin enerji və təbii qaynaqlar naziri Cümhur Ərsümər bir neçə gün bundan (20-21 aprel 1998-ci il) əvvəl Bakıda idi. Burada Bakı-Ceyhan neft kəməri ilə bağlı danışıqlar aparıldı. Biz də iki gündür Bakıdayıq. Azərbaycandakı bəzi qəzetlərin yazdığına görə, cənab Ərsümərlə görüşdə Siz Türkiyə ilə bağlı müəyyən tənqidi fikirlərinizi (Türkiyə hökumətinin lazımi aktivlik nümayiş etdirməməsi) də çatdırmaq fürsətindən istifadə etmisiniz. Bakı-Ceyhan neft boru kəməri layihəsi barədə fikirlərinizi NTV vasitəsilə bir daha bildirərsinizmi?

**Cavab:** Mən hörmətli enerji naziri ilə danışanda da dedim, 5-6 ildir ki, Bakı-Ceyhan neft boru kəməri bütün Türkiyə xalqının dilindən düşmür. Yəni bu, daim sizin xalqın dilindədir, lap uşaq da Bakı-Ceyhan sözü danışır. Ancaq mən bunu söylədim, sizin televiziya vasitəsilə bir də bildirmək istəyirəm, indi o danışıqdan işə keçmək lazımdır. O vaxtlar keçdi. Yəni biz bu məsələni artıq həll etmişik, Azərbaycan neftinin Qərbə, Batıya getməsi üçün böyük neft borusunun Bakı-Ceyhan yolu ilə getməsi qərarını şəxsən mən qəbul etmişəm. İndi bu işi gerçəkləşdirmək, həyata keçirmək lazımdır. Biz bu sahədə öz işimizi görmüşük.

Burada bizim də üzərimizə çox vəzifə düşür. Gürcüstanın da, Türkiyənin də üzərinə vəzifə düşür. Çünki Türkiyənin Ceyhan limanına gedəcək bu boru xətti üç ölkənin torpağından keçəcəkdir. Biz bu işlərin başındayıq, bu işləri biz həll edirik. Biz nə etmək lazımdırsa, onu etmişik. İndi lazımdır ki, Türkiyədə də bu işlərlə əməli, praktik surətdə məşğul olsunlar. Mən hörmətli nazirə bunu dedim. Sizə də deyirəm ki, seyrçiləriniz bilsinlər. Ayın 26-da biz Trabzonda görüşəndə mən bunu dostum Süleyman Dəmirələ, dostum Məsud Yılmaza da deyəcəyəm.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə işgüzar səfərə yola düşməzdən əvvəl – 1998-ci il aprelin 26-da Binə hava limanında jurnalistlərin suallarını cavablandırarkən bu məsələyə bir daha aydınlıq gətirdi:

**Sual:** Cənab Prezident, siz NTV kanalına son müsahibənizdə dediniz ki, Bakı-Ceyhan xəttinə qərar verdiniz. Bu barədə, əslində, konsorsiumun da fikri ola bilər. Amma son sözü Azərbaycan deyəcəkdir.

**Cavab:** Xeyr, "qərar verdim" deyəndə mən öz fikrimi deyirəm. Ancaq biz konsorsiumla daim əlaqədəyik. Konsorsium da belə fikirdədir, artıq bu fikrə gəlibdir. Ona görə də mən "qərar verdim" deyəndə tək öz adımdan demirəm, ümumi fikri deyirəm. Sağ olun.

Əslində, Heydər Əliyevin açıqlamasından aydın olur ki, Bakıda təkcə siyasi hakimiyyət, hökumət deyil, həmçinin “Azəri-Çıraq-Günəşli” yataqlarının istismarı ilə məşğul olan beynəlxalq konsorsium da yekdil fikrə gəlib: Azərbaycanın əsas ixrac neft kəməri Bakı-Tbilisi-Ceyhan marşrutu olacaq.

ABƏŞ Azərbaycan dövlət başçısının bu mövqeyini dəstəkləyən və daha da möhkəmləndirən bir addım atdı. Rəhbər Komitənin aprelin 30-da keçirilən növbəti iclasında əsas ixrac boru kəməri üzrə Azərbaycan tərəfi ilə birgə Texniki Komitənin yaradıldığı elan edildi.

Qeyd etmək lazımdır ki, rəsmi Bakının bu addımı Rusiya Federasiyasında kifayət qədər soyuq qarşılandı. Rusiya hökuməti Bakı-Novorossiysk kəmərinin buraxıcılıq gücünün ildə 30 milyon tona qədər artırılacağına dair bəyanatlar verdi. Rusiya mətbuatında Azərbaycanın böyük neftinin xarici bazarlara çıxarılmasının ən sərfəli marşrutunun Qara dənizdəki Novorossiysk limanı yaxınlığında inşa ediləcək terminal olduğuna dair materiallar dərc edilməyə başlanıldı.

Rusiya tərəfini qəzəbləndirən bir hal da ondan qaynaqlanırdı ki, Azərbaycanın əsas ixrac boru kəmərinin illik buraxıcılıq gücü 50 milyon ton xammalın daşınmasına hesablanmışdı. Ona görə də “Azərbaycanda bu qədər neftin olmaması” fikri Rusiya KİV-nin xüsusi canfəşanlıqla işıqlandırdığı mövzuya çevrilmişdi.

Amma sonradan məlum oldu ki, Rusiyanın Bakı-Novorossiysk kəmərinin illik buraxıcılıq qabiliyyətini 30 milyon tona qədər artırmaq bəyanatı, sadəcə, quru istəkdən başqa bir şey deyilmiş, çünki reallıqda bunun köhnə magistral kəmərlə daşınması qeyri-mümkün idi və bu ideyanı gerçəkləşdirmək üçün Rusiya yeni boru kəməri çəkməli idi, bu zaman isə onun dəyəri xeyli yüksələcək və Şimal marşrutu arzuolunan iqtisadi cəlbediciliyi əsla təmin edə bilməyəcəkdi.

1998-ci il oktyabrın 29-da Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-nin energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsini müdafiə edən Ankara Bəyannaməsinin imzalanması ilə bu layihənin ilkin razılaşması əldə olundu. Lakin “Əsrin müqaviləsi” imzalanandan sonra zəruri kəmərlərin hansı ölkələrdən keçəcəyi məsələsi uzun müddət müzakirə olunan aktual məsələlərdən biri kimi qalmaqda idi.

BTC marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan

# ANKARA BƏYANNAMƏSİ[13]

29 oktyabr 1998-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı və istehsalı, bir neçə boru kəməri vasitəsilə bu ehtiyatların dünya bazarlarına təhlükəsiz nəql edilməsi imkanlarını qiymətləndirərək, habelə bu məsələlər barədə təxirə salmadan qərar qəbul edilməsi zəruriliyini nəzərə alaraq, bu bəyannaməni imzaladılar.

1. Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər. Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq, maneəsiz daşınmasını tələb edən Avropa Energetika Xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.
2. Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Trans-Xəzər və Trans-Qafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi

regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3. Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ceyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4. Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5. Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq, Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər.

6. Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını

nəzərə alaraq, neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır.

Azərbaycan Respublikası adından **Heydər Əliyev**

Gürcüstan adından **Eduard Şevardnadze**

Qazaxıstan Respublikası adından **Nursultan Nazarbayev**

Türkiyə Respublikası adından **Süleyman Dəmirəl, Məsud Yılmaz**

Özbəkistan Respublikası adından **İslam Kərimov**

Şahid sifətində **Bill Riçardson**, ABŞ-nin energetika üzrə katibi

## Ankara Bəyannaməsinin imzalanması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

Türkiyə Böyük Millət Məclisinin binası, 29 oktyabr 1998-ci il

– Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli cənab Süleyman Dəmirəl!

Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli cənab Hikmət Çətin!

Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli cənab Məsud Yılmaz!

Gürcüstan Prezidenti cənab Eduard Şevardnadze!

Qazaxıstan Prezidenti cənab Nursultan Nazarbayev!

Özbəkistan Prezidenti cənab İslam Kərimov!

Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson!

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzaladığımız bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında işbirliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Məlumdur ki, Azərbaycan Respublikası Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması üçün bir neçə il bundan əvvəl əməli işlərə başlamışdır. 1994-cü il sen-tyabrın 20-də dünyanın nüfuzlu 11 neft şirkəti ilə, konsorsium yaratmış şirkətlərlə böyük bir müqavilə – Xəzər dənizindəki "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasil edilməsi haqqında müqavilə imzalanıbdır. Bu müqavilə "Əsrin müqaviləsi" adı alıbdır.

Biz keçən il noyabrın 12-də "Çıraq" neft yatağından ilkin neftin alınmasını qeyd etdik. Hazırda həmin yataqdan gündə 10 min ton neft hasil olunur və dünya bazarlarına çıxarılır. Aparılan işlər nəticəsində yaxın vaxtlarda hasilat üç dəfə artacaqdır.[14]

Biz 1994-cü ildə bu müqaviləni imzalayarkən Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün bir neçə boru kəməri yaradılmasını nəzərdə tutmuşduq. Onlardan birincisi Bakı-Novorossiysk marşrutu, ikincisi ilkin neftin ixracı üçün Bakı-Supsa, Gürcüstan marşrutu və ən əsas, böyük neft kəməri isə, – dörd il bundan əvvəl də fikrimiz belə idi, – Bakı-Ceyhan marşrutu olmalıdır.

Xəzərin Azərbaycan sektorunda ötən dörd il müddətində bir çox yataqlar barədə 10-dan artıq beynəlxalq konsorsiumla müqavilələr imzalanmış və həmin neft-qaz yataqlarından gələcəkdə böyük neft alınması gözlənilir.

Məlumdur ki, Xəzərin digər ölkələrə: Qazaxıstana, Türkmənistana, Rusiyaya, İrana məxsus sektorlarında da neft yataqları vardır. Məmnuniyyətlə qeyd edirəm ki, bu sektorlarda da, xüsusən Qazaxıstana məxsus sektorda artıq əməli işlər aparılır.

Mərkəzi Asiyanın, Xəzəryanı ölkələrin: Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın ərazilərində də böyük neft və qaz yataqları vardır. Həmin yataqların gələcəkdə işlənilməsi, neftin və qazın dünya bazarlarına çıxarılması üçün yollar araşdırılır.

Bunlar hamısı 1994-cü ildə bizim nəzərdə tutduğumuz Bakı-Ceyhan böyük, əsas neft kəmərinin çəkilməsini bu gün daha da reallaşdırır. Məlumdur ki, Qazaxıstanın "Tengiz" yatağında zəngin neft-qaz ehtiyatları vardır. Oradan hasil edilən neftin bir hissəsi artıq Qazaxıstan, Azərbaycan, Gürcüstan respublikalarının ərazilərindən, Xəzər dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Məlumat verirəm ki, bu yolla artıq 2 milyon 500 min ton Qazaxıstan nefti daşınıbdır.

"Tengiz"dəki zəngin neft yataqlarının gələcəkdə işlənilməsi Qazaxıstanın Aktay limanı ilə bizim Bakı limanı arasında bir neft borusu tikilməsi zərurətini də meydana çıxarmışdır. Bütün bunlar hamısı Bakı-Ceyhan əsas neft boru kəmərinin bu gün çox real olduğunu əyani surətdə sübut edir. Ona görə də bu gün burada, Türkiyədə, Ankarada hamımızın birlikdə imzaladığımız bu bəyannamə bizim dörd il müddətində apardığımız işin böyük bir nəticəsidir.

Doğrudur, Bakı-Ceyhan marşrutuna, Bakı-Tbilisi-Ceyhan marşrutuna etiraz edənlər və onun həyata keçirilməsinə mane olmaq istəyənlər də vardır. Bəzi şirkətlər kommersiya nöqteyi-nəzərindən bu marşrutun səmərəli olmadığını iddia edir. Şübhəsiz ki, bu şirkətlərin kommersiya maraqları da nəzərə alınmalıdır. Biz həmin şirkətlərlə bundan sonra da iş aparacağıq. Ancaq hesab edirəm ki, mərasimdə iştirak edən ölkələrin dövlət başçılarının bu gün ifadə etdikləri siyasi iradə bu proqramın, layihənin həyata keçirilməsinin təməlini qoyur.

Bilirsiniz ki, bu işlərin təməlini, əsasını müstəqil Azərbaycan Respublikası Xəzər dənizindəki enerji ehtiyatlarının birgə işlənilməsi barədə qəbul etdiyi dörd qərarla qoymuşdur. Mən çox məmnunam ki, dörd il bundan əvvəl təməlini qoyduğumuz iş bu gün böyük vüsət almışdır və bu gün burada iştirak edən dövlət başçılarının hamısının birgə iradəsi ilə böyük bir bəyannamənin qəbul olunmasına gətirib çıxarmışdır.

Mən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda bunların hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq.

Mən bu gün bəyannamənin imzalanması münasibətilə dost ölkələrin dövlət başçılarını – Türkiyəni, Qazaxıstanı, Gürcüstanı, Özbəkistanı, Amerika Birləşmiş Ştatlarını və Xəzəryanı ölkələrin hamısını təbrik edirəm. Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XXI əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun!

III FƏSİL

# BAKI-TBİLİSİ-CEYHAN ÜZRƏ SAZİŞİN İMZALANMASI

## Hazırlığın son mərhələsi

Azərbaycan Dövlət Neft Şirkətinin I vitse-prezidenti İlham Əliyev 1999-cu ilin iyulunda jurnalistlərlə söhbətində bildirirdi ki, əsas ixrac boru kəməri üzrə yaradılmış işçi qrup Ankarada Türkiyə tərəfi ilə sənədlərin imzalanmasının hazırlıqlarına başlayıb. Onun sözlərinə görə, işçi qrup Türkiyə hökumətinin neftin nəqli ilə bağlı öz ərazisində Azərbaycan tərəfinə verməli olduğu zəmanətin şərtləri ilə tanış olmalıdır.

Rəsmi Bakı Türkiyə tərəfi ilə sənədləşmə işlərinin tezliklə yekunlaşmasına ümid etsə də, dünya bazarlarında neftin qiymətinin qeyri-sabit olması və şirkətlərin layihənin kommersiya tərəfinə daha çox diqqət yetirməsi səbəbindən yekun sənədin imzalanmasına hazırlıq işləri payızın son ayına qədər çəkdi.

Qeyd etmək lazımdır ki, sonrakı dövrdə Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, milli təəssübkeşlik iradəsi, o zaman ARDNŞ-nin birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin isə danışıqlar prosesində nümayiş etdirdiyi diplomatik məharət, tərəfdaşı inandırmaq bacarığı sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə optimal qərarlar qəbul edildi.

Bütün bunların nəticəsi olaraq, nəhayət, 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in Zirvə toplantısının gedişində İstanbulun "Çırağan" sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri üzrə sazişlər paketi ərazisindən neft kəmərinin çəkiləcəyi ölkələrin hər birinin

hüquqlarını, maraqlarını və öhdəliklərini müəyyən edir və tənzimləyirdi. Bu sənəd həmçinin boru kəmərinin layihələndirilməsi, tikintisi və istismarı dövründə layihənin səhmdarları ilə Azərbaycan, Gürcüstan hökumətləri arasında onların hüquq, maraq və öhdəlikləri nəzərə alınmaqla münasibətləri tənzimləyirdi. İmzalanan bu sənədlər beynəlxalq hüquq normalarına uyğun idi və həm Azərbaycanın, həm də gələcək boru kəmərinin istifadəçiləri olan şirkətlərin və ölkələrin siyasi, iqtisadi və kommersiya maraqlarını qoruyurdu.

İmzalanma mərasimində verilən məlumata görə, uzunluğu 1768 km olan boru kəməri 2004-cü ildə istifadəyə verilməli idi. 2008-ci ildə bu kəmər vasitəsilə ildə 50 milyon ton neftin nəqli planlaşdırılırdı. Əsas ixrac neft kəməri ilə daşınacaq Azərbaycan nefti ilə yüklənmiş ilk tankerin 2005-ci ilin əvvəlində Ceyhan limanından yola salınması gözlənilirdi.

Sənədləri Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan prezidentləri imzalamışdılar.

İstanbulda Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə sazişin imzalanma mərasimi, 18 noyabr 1999-cu il



## Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə sazişin imzalanması

### "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Saziş"in imzalanması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

18 noyabr 1999-cu il, İstanbul, "Çırağan" sarayı

– Hörmətli prezidentlər!

Hörmətli dostlar! Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki beş il bundan öncə, 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildir və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı.

Məlumdur ki, bu, asan iş deyildi. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı-Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq.

Bu barədə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını və Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəli ürəkdən təbrik edirəm.

Biz bu boru xəttini Gürcüstandan keçiririk. Şübhəsiz ki, əgər bu xəttin Gürcüstan ərazisindən keçməsi mümkün olmasaydı, bu baş tutmazdı. Ona görə də Gürcüstan Prezidenti cənab

Şevardnadzenin də bu məsələnin həll edilməsi üçün çox böyük səyləri olmuşdur. Mən gürcü xalqını, Gürcüstanı və əziz dostum, qardaşım Eduard Şevardnadzeni ürəkdən təbrik edirəm.

Ancaq onu da bəyan edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı, biz bunların heç birisini edə bilməzdik.

"Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər göstərildi. Bizim qarşımızı almaq istəyirdilər.[15] Məhz Amerika Birləşmiş Ştatlarının, onun Prezidenti, hörmətli dostum cənab Bill Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdi. Ancaq hörmətli cənab Prezident Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"-nin imzalanmasına nail olduq.

Ona görə də mən, biz hamımız birlikdə ABŞ-yə, onun Prezidenti, əziz dostumuz cənab Bill Klintona təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Hörmətli cənab Prezident Bill Klinton, mən sizi də bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu boru xəttinin, yəni neft kəmərinin istifadə edilməsi layihəsinə indi Qazaxıstan da qoşulubdur. Qazaxıstan da öz neftinin böyük bir hissəsini bu kəmər vasitəsilə keçirəcəkdir.

Biz Azərbaycan olaraq, – Gürcüstan da bunu qəbul edibdir, – bunu qəbul etmişik və üzərimizə düşən bütün öhdəlikləri həyata keçirəcəyik. Hesab edirəm ki, Qazaxıstan bu yolla, bu boru xətti ilə neftin ixracında böyük uğurlar əldə edəcəkdir. Ona görə də mən qazax xalqını və Qazaxıstan Prezidenti, əziz dostum Nursultan Nazarbayevi ürəkdən təbrik edirəm.

Mən Türkiyə xalqına, Türkiyənin vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm və onları təbrik edirəm. Beş ildir ki, Türkiyəyə hər dəfə gələndə mənə sual verirdilər: Bakı-Ceyhan boru xətti nə vaxt olacaqdır? Mən də hər dəfə deyirdim ki, olacaqdır, olacaqdır, olacaqdır! Artıq bu gün bu oldu və saziş imzalandı. Hamınızı ürəkdən təbrik edirəm!

Mərasimdə BTC əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-nin şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul Bəyannaməsi, Trans-Xəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında "Hökumətlərarası bəyannamə", Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası arasında "Qarşılıqlı Anlaşma Memorandumu" imzalandı.

Mərasimdə Türkiyə Prezidenti Süleyman Dəmirəl, ABŞ Prezidenti Bill Klinton, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Türkmənistan Prezidenti Saparmurad Niyazov nitq söylədilər.

## BTC: siyasi, yoxsa iqtisadi müqavilə?

Azərbaycanın əsas ixrac boru kəməri ilə bağlı maraqlı məqamlar Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri ilə bağlı sazişlər imzalanandan sonra mətbuatda onun əleyhinə dərc edilən materiallarla bağlı idi. Düzdür, bu materialların əksəriyyəti Rusiya mətbuatında dərc olunmuşdu, amma Qərbdə də neqativ fikirlərin olduğu hiss edilirdi. Özü də bu proses boru kəmərinin tikintisi başa çatıb istismar dövrünə qədəm qoyduğu zamanlara qədər ara-sıra müşahidə edilən hal olmuşdu.

Məsələnin qoyuluşu birbaşa onunla bağlı olurdu ki, BTC boru kəməri siyasi yanaşmadan doğan müqavilədir, yəni onun seçimi iqtisadi əsaslara deyil, siyasi baxışlara söykənir.

Təbii ki, istər layihə dövründə, istərsə də tikinti zamanı bu fikrin daşıyıcılarına birmənalı olaraq sübut da etmək olmur ki, yox, belə deyil, biz məhz iqtisadi-kommersiya amillərindən çıxış edərək bu qərara gəlmişik. Çünki onun kommersiyası, məhz iqtisadi cəlbediciliyi istismar dövründə başlayır və bazardakı vəziyyətdən asılı olaraq dəyişə də bilir.

Ona görə də meqalayihələri reallaşdıran zaman dəmir iradəyə və dəmir əsəblərə malik olmalısan ki, onu sonda tikib başa çatdıra biləsən. Daha sonra isə müəyyən zaman keçməlidir ki, kommersiya baxımından rentabelliyini ortaya qoyub doğru yolda olduğunu ətrafındakılara sübut edəsən. Bunun üçün heç də boru kəməri ilə bir barel və ya ton neftin daşınma xərclərini mətbuatda dərc etmək

lazım deyil. Yetər ki, o boru kəməri ilə neft və ya qaz daşımaq istəyən şirkətlərin olub-olmadığını göstərəsən.

Azərbaycan Prezidenti İlham Əliyev belə bir məlumatı ilk dəfə ictimailəşdirəndə Azərbaycanın vaxtilə seçim etdiyi və əsas ixrac boru kəməri marşrutu kimi üzərində israrla dayandığı Bakı-Tbilisi-Ceyhan istiqamətinin nə qədər cəlbedici olması, yəqin, tam çılpaqlığı ilə üzə çıxdı. Bu məqam 2019-cu il noyabrın 30-da Türkiyənin İpsala yaşayış məntəqəsində TANAP qaz kəmərinin tam istifadəyə verilməsi mərasimində Prezident İlham Əliyev tərəfindən açıqlandı: "Əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft boru xəttini istismara verdik. Bu günə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini – 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistan, 12 milyon tonunu Qazaxıstan, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni, bir sözlə, Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir".

Görürsünüzmü, illər keçəcək, sonra məlum olacaqdı ki, Bakı-Tbilisi-Ceyhan əleyhinə ən çox təbliğat aparan, Xəzərdən çıxan resursun onun ərazisindən daşınmamasını özünün maraqlarına vurulan zərbə kimi qəbul edən Rusiya sonda bu kəmərin xidmətlərindən yararlanmaq üçün Azərbaycana üz tutacaq, kəməri istismar edən şirkətlərlə kommersiya anlaşmasına gedəcək və illər uzunu ondan faydalanacaqdı. Ta öz əməllərinin nəticəsi olaraq onun neftinin bu kəmərlə daşınmasına etiraz edilənə qədər... Belə ki, 2022-ci il dekabr ayının 1-dən etibarən Qərbin Rusiya neftinə qarşı tətbiq etdiyi sanksiyalarla bağlı Azərbaycanın əsas ixrac boru kəməri ilə Rusiya neftinin tranziti dayandırıldı.

Bundan öncə Rusiyanın özəl neft şirkəti olan "LUKoil" 2016-cı ildən başlayaraq mütəmadi şəkildə Xəzərin Rusiya sektorundan hasil etdiyi neftin bir hissəsini Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə dünya bazarlarına ixrac edirdi. Rusiya şirkəti öz neftini tam şəkildə

Xəzər Boru Kəməri Konsorsiumu (CPC, Tengiz-Novorossiysk neft kəməri) sisteminə yönəltməyi qərara alıb.

2022-ci il dekabrın 5-dən etibarən Avropa İttifaqının yeni sanksiyaları avropalı alıcılara Rusiya neftini almağı, həmçinin nəql etməyi qadağan edir. Qazaxıstan neftinin əsas marşrutu olan CPC-dən neftin ixracı isə qadağalara tabe deyil.

"Reuters" agentliyinin bazar iştirakçılarına istinadən əldə etdiyi məlumata əsasən, Rusiya neftinin tranzit daşımalarından çıxarılması qərarı "BTC Co." boru kəməri şirkətinin Qərb səhmdarları tərəfindən qəbul edilib.

Qeyd edək ki, "LUKoil" şirkəti neftini ilk dəfə 2015-ci ilin mayında Azərbaycanın əsas ixrac boru kəməri ilə göndərib. Bunlar sınaq üçün kiçik partiyalar olub, lakin 2016-cı ildən "LUKoil" kommersiya tədarükünə keçib.

"Argus" agentliyinin məlumatına görə, "LUKoil" Xəzərdəki yataqlarından BTC vasitəsilə ayda 60-120 min ton xammal tədarük edib.

## Natiq Əliyev: "BTC iqtisadi cəhətdən səmərəli kəmərdir"

"Biz İstanbulda Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə bağlı sazişlərin imzalanmasını Azərbaycan, Gürcüstan və Türkiyə üçün ən böyük tarixi hadisə kimi qiymətləndiririk". SOCAR prezidenti Natiq Əliyev bunu İstanbuldan qayıdarkən Bakı hava limanında jurnalistlərə bildirmişdi.

Onun sözlərinə görə, ilk dəfədir ki, növbəti əsrdə bu ölkələrin iqtisadiyyatlarının inkişafını müəyyən edəcək belə bir sənəd imzalanıb.

"Demək olar ki, bu gün bizim artıq boru kəməri layihəsinin həyata keçirilməsi üçün hüquqi bazamız var: əsas ixrac boru kəmərinin tikintisinə dair hökumətlərarası saziş, Türkiyə zəmanətləri haqqında sazişlər, Türkiyənin BOTAŞ dövlət şirkəti ilə Türkiyə ərazisində boru kəmərinin tikintisinə dair açar təslimi", - deyə Əliyev bildirmişdi.

ARDNŞ prezidenti əlavə etmişdi ki, bu möhtəşəm layihə bəzilərinin düşündüyü kimi, ümumiyyətlə, kağız üzərində qalmayacaq: "Bəzi rəqiblərimiz hesab edirlər ki, Bakı-Tbilisi-Ceyhan layihəsi səmərəsizdir, lakin mən bəyan edirəm ki, bu, iqtisadi cəhətdən sərfəli və ən əsası, lazımi neft ehtiyatları ilə təmin olunmuş bir

boru kəməridir. Öz növbəsində Qazaxıstan da bu layihəni dəstəkləyərək İstanbulda bəyan edib ki, Azərbaycanın əsas ixrac boru kəməri üçün müəyyən həcmdə neft ayrılacaq".

Həqiqətən də, illər keçəcək, BTC istismara veriləcək və nəticədə Azərbaycanın iqtisadi siyasətinin ən böyük uğurlarından sayılacaq layihəyə çevriləcək. BTC ölkəmizin Avrasiya regionunda mövqeyini xeyli gücləndirəcək, dövlətimizi Cənubi Qafqazın liderinə çevirəcək.

Bu gün Ulu Öndər Heydər Əliyevin adını daşıyan BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihə olduğunu ortaya qoyub. BTC mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edir. Belə ki, bu kəmər dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verib, ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə zəmin yaradıb.

## Kremldən İstanbul sazişlərinə soyuq baxış

Moskva hesab edirdi ki, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsinin tikintisi region ölkələrinə ABŞ administrasiyası tərəfindən siyasi məqsədlə irəli sürülüb.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini İvan İvanov 1999-cu il noyabrın 18-də İstanbulda BTC üzrə sazişlər paketinin imzalanmasını şərh edərkən bildirmişdi ki, "ekspertlərin hesablamalarına görə, bu neft kəmərinin tikintisi praktikada daha baha başa gələ bilər və elan edildiyindən qiymətdən daha çox sərmayə tələb edə bilər, ola bilsin ki, fəaliyyəti ziyanla başa gəlsin".

Hər halda, onun sözlərinə görə, "belə şübhələr Dünya Bankının mütəxəssislərinin qiymətləndirmələrində mövcuddur".

Rusiya Xarici İşlər Nazirliyinin iqtisadi istiqamətinə nəzarət edən İ.İvanov vurğulayırdı ki, "Xəzər neftinin ixracı üçün çoxlu alternativ olmasına baxmayaraq, bu layihə ABŞ administrasiyası tərəfindən iştirakçı şirkətlərə siyasi sifariş olaraq yüklənib".

O, Bakı-Ceyhan layihəsinin həyata keçirilməsinin "Rusiyanın Xəzərdəki maraqlarına təsir edəcəyini" də etiraf etmişdi. "Biz Xəzər neftinin Rusiya ərazisindən tranzitini həyata keçirməyə

üstünlük veririk. Burada artıq müvafiq infrastruktur mövcuddur və bu, təxminən bir yarım dəfə ucuzdur", – deyə nazir müavini bildirmişdi. Onun fikrincə, "çıxış yolu yerli ixracatçılara bu alternativləri təklif etmək, praktiki olaraq onlardan istifadə etməkdir – ilk növbədə Çeçenistan ətrafından yan keçməklə həyata keçən neft kəməri və Qazaxıstan nefti üçün Xəzər dənizinin şimalından Samaraya ikinci xətt çəkilməlidir".

İstanbulda Türkmənistan və Türkiyə prezidentləri arasında Trans-Xəzər Qaz Boru Kəməri vasitəsilə Türkiyəyə qaz çatdırılmasını nəzərdə tutan sənədin də imzalanmasına toxunan Rusiya Federasiyası xarici işlər nazirinin müavini jurnalistlərə bəyan etmişdi ki, bu layihə "bizim üçün rəqib deyil", çünki Rusiya ilə Türkiyə arasında birbaşa qaz əməkdaşlığı "Mavi axın" qaz kəməri vasitəsilə reallaşacaq. Eyni zamanda nazir müavini vurğulamışdı ki, "məsələ heç də Türkiyə bazarında deyil, Xəzərin hüquqi statusu həll olunmayana qədər, sadəcə, dənizin dibi ilə boruların çəkilməsi qeyri-mümkündür".

## Azərbaycan BTC ilə bağlı yeni sazişlər imzalayır

### "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə Saziş"in və "Bakı-Tbilisi-Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq Sazişi"nin imzalanması mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

17 oktyabr 2000-ci il, Bakı, Prezident sarayı

– Hörmətli xanımlar və cənablar!

Sabah, oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul olunmasının 9-cu ildönümüdür. 9 il bundan öncə Konstitusiya aktı qəbul olunandan sonra Azərbaycan öz müstəqilliyini əldə edib və 9 ildir ki, müstəqil dövlət kimi yaşayır. Mən bu bayram, Azərbaycanın

İstiqlaliyyət Günü münasibətilə sizi, bütün xalqımızı, vətəndaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah, dövlətimizin müstəqilliyinin əbədi olmasını arzulayıram.

Biz bu gün buraya tarixi bir hadisə münasibətilə toplaşmışıq. Məlumdur ki, 1994-cü ilin sentyabr ayında[16] Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək işlənilməsi üçün dünyanın bir çox böyük neft şirkətləri ilə ilk müqavilə imzalanmışdır. Biz o vaxtdan bu müqavilənin həyata keçirilməsi ilə məşğuluq. Beləliklə, Azərbaycanın yeni neft strategiyası başlamışdır. 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi"nin imzalanması məhz Azərbaycan xalqının azadlığının, dövlət müstəqilliyinin bəhrəsidir.

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, imzalanmış bu neft müqaviləsi ardıcıl surətdə həyata keçirilir, öz nəticələrini verir.

Birinci müqavilə Xəzər dənizinin böyük neft və qaz imkanlarını dünyaya açıbdır. İndi Azərbaycanda 20 böyük neft müqaviləsi imzalanıbdır.

"Əsrin müqaviləsi"ndə – Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi barədə müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin 11 xarici ölkə neft şirkəti ilə birgə əməkdaşlıq etməsi nəzərdə tutulurdu. Bu əməkdaşlıq uğurla həyata keçirilir, "Çıraq" yatağından 1997-ci ildə neft hasil olunubdur. Həmin yataqdan alınan neft dünya bazarlarına ixrac edilir. Beləliklə, biz imzaladığımız müqavilənin əməli nəticəsini görürük.

Təbiidir ki, belə bir müqavilənin həyata keçirilməsi zamanı böyük miqdarda neft hasil olunması nəzərdə tutulduğuna görə bu neftin dünya bazarlarına ixracı da müqavilədə nəzərə alınmalı idi. Ona görə də ilk müqavilədən hasil edilən neftin dünya bazarlarına ixrac olunması üçün müxtəlif neft borularının, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsi nəzərdə tutulmuşdu.

Biz xarici neft şirkətləri ilə birlikdə elə o vaxtdan, 1994-cü ildən başlayaraq əsas ixrac neft kəmərinin, – Bakı-Ceyhan kəmərinin, sonra biz onu Bakı-Tbilisi-Ceyhan adlandırdıq, – yaradılması üçün çox işlər gördük.

Məlumdur ki, bu istiqamətdə apardığımız işlər çox böyük müqavimətlərlə, çətinliklərlə rastlaşmışdı. Çoxları belə bir ixrac kəmərinin tikilməsinin real olmadığını bəyan edirdilər. Hər halda, Bakı-Tbilisi-Ceyhan neft kəməri ötən illər bütün dünya ictimaiyyətinin nəzər-diqqəti altında olubdur. Lakin biz, Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri, konsorsiumda iştirak edən neft şirkətləri, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi işi ilə ardıcıl məşğul olmuşuq, mübarizə aparmışıq və buna da nail olmuşuq.

Gördüyümüz bütün bu işlərin zirvəsini də 1999-cu ilin noyabrında İstanbulda ATƏT-in Zirvə görüşü zamanı imzalanmış saziş təşkil edir. Həmin sazişi Azərbaycan Respublikasının Prezidenti, Türkiyə Cümhuriyyətinin Prezidenti, Gürcüstan Prezidenti, Qazaxıstan Prezidenti imzalamışlar və o sazişə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton da öz imzasını qoymuşdur.

Beləliklə, bizim çoxillik işlərimiz belə bir siyasi sənədin qəbul olunması ilə başa çatmışdır. Ancaq ondan sonrakı dövrdən bu günədək o qədər də asan olmamışdır. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi, onun qiyməti, başqa kommersiya-texniki məsələləri ilə əlaqədar müxtəlif fikirlər olmuşdur. Bu müxtəlif fikirlər hətta konsorsiuma daxil olan şirkətlər arasında da mövcud idi. Ona görə də bu sahədə də çox işlər görmək lazım idi.

Bu işlər Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri və onların müvafiq orqanları tərəfindən aparılmışdır. Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti də bu prosesə daim dəstək vermişdir. Bütün texniki, kommersiya məsələləri barəsində razılıqlar əldə edilmişdir. Bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlər birlikdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında kommersiya-texniki sazişlər hazırlamışdır. Bu gün biz bu sazişlərin imzalanması üçün buraya toplaşmışıq.

Nəzərdə tutulur ki, həmin sazişlər bu gün Azərbaycanda, onun paytaxtı Bakıda, sabah Gürcüstanda, Tbilisidə, o biri gün isə Türkiyədə imzalanacaqdır. Təbiidir ki, sazişlərin imzalanması bu sahədə yeni bir mərhələ açacaqdır, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin əməli surətdə tikilməsinə başlanacaqdır.

## YEKUN NİTQ

– Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün hamımız, həqiqətən, eyni fikirdəyik ki, tarixi bir gün yaşayırıq, tarixi dəqiqələr keçiririk.

1994-cü ilin sentyabrında Azərbaycanda ilk neft müqaviləsi imzalananda biz böyük qürur, xoşbəxtlik hissi keçirirdik, bu istiqamətdə Azərbaycanın gözəl gələcəyini görürdük.

Məlumdur ki, buna şübhə ilə yanaşanlar da, inanmayanlar da, mane olanlar da var idi. Azərbaycanın həm daxilində, həm də xaricində bu müqavilə bir tərəfdən qısqanclıq, o biri tərəfdən narazılıq doğurmuşdu. Ancaq Azərbaycan xalqı, hər halda, onun tam əksəriyyəti, bu hadisəni tarixi hadisə və müstəqil ölkəmizin gələcəyi üçün ən önəmli, ən mühüm iş kimi qiymətləndirir.

Ondan sonrakı dövr bizim üçün asan olmadı. Biz xaricdən çox təzyiqlərə məruz qaldıq. Bir sıra ölkələrin mətbuatında, qəzetlərində bu barədə müxtəlif fikirlər – əksəriyyəti isə əks fikirlər dərc olunurdu. Beləliklə, bizim gördüyümüz bu işlərə həm beynəlxalq ictimaiyyətdə, həm də Azərbaycanda şübhə yaratmaq istəyirdilər.

Ölkəmizin həm xaricdə, həm də daxildə olan düşmənləri yaxşı dərk edirdilər ki, bu müqavilə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi üçün ən mühüm hadisələrdən biridir. Təsadüfi deyil ki, bu müqavilə imzalanandan bir gün sonra Azərbaycana qarşı böyük bir təxribat baş verdi. Respublikamızın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında cəza çəkən çox təhlükəli cinayətkar məhbuslar müxtəlif qüvvələrin köməyi ilə oradan çıxarıldı, qaçırıldı və Azərbaycanın daxilində sabitliyin pozulması üçün müəyyən imkanlar yarandı. Bundan bir həftə sonra Azərbaycanda iki dövlət xadiminə, siyasi xadimə qarşı terror baş verdi, onlar qətlə yetirildi.

Bunların məntiqi davamı olaraq 1994-cü il oktyabrın 3-4-də Azərbaycanda silahlı dövlət çevrilişinə cəhd göstərildi. Biz bu cəhdin qarşısını xalqımızın, millətimizin birliyi, gücü ilə aldıq. Ancaq Azərbaycanın daxili və xarici düşmənləri ölkəmizin bu qədər müstəqil siyasət aparmasına, müstəqil inkişaf etməsinə maneçilik törətməkdən əl çəkmirdilər.

Həmin hadisədən altı ay sonra Azərbaycanda yenidən silahlı dövlət çevrilişinə cəhd göstərildi. Bu həm xaricdən idarə olunurdu, həm də daxildəki cinayətkar qüvvələr tərəfindən təşkil edilmişdi. Çox təəssüflər olsun ki, bu gün müxalifətdə olan bəzi siyasi partiyalar da həmin dövlət çevrilişinə cəhddə fəal iştirak edirdi. Biz bu dövlət çevrilişinə cəhdin də qarşısını aldıq. Qan töküldü, şəhidlər verdik, ancaq Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əleyhinə çıxan qüvvələri darmadağın etdik.

Sonrakı illərdə də Azərbaycanın qarşısına bir çox çətinliklər çıxmışdı. Bunlar hamısı sizə məlumdur. Bunların hamısının bir səbəbi vardır. Həm xaricdə, həm də daxildə olan düşmənlər görürdülər ki, Azərbaycan müstəqil bir dövlət kimi yaşayır, ölkəmizin müstəqilliyi gündən-günə möhkəmlənir, respublikamızın yeni dövlət neft strategiyası böyük gələcəkdən xəbər verir. Məhz həmin adamlar bunların qarşısını almaq, Azərbaycanı zəiflətmək və ayrı-ayrı cinayətkar qruplar tərəfindən ölkəmizi ələ keçirmək üçün bu cür dəhşətli yollara düşdülər.

Biz ötən illər çox ağır, çətin yollar keçdik, Azərbaycan xalqını bir çox təhlükələrdən xilas etdik və ölkəmizin müstəqilliyini, dövlətçiliyini qoruduq. Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün dövlət neft strategiyasını ardıcıl surətdə həyata keçirdik.

Burada deyildi ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması da dövlət neft strategiyamızın əsas hissəsini təşkil edir. Bütün təxribatlar, xaricdən bizə qarşı olan təzyiqlər heç bir nəticə vermədi. Son illər isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsinə qarşı müxtəlif təbliğatlar aparıldı, təxribat hərəkətləri edildi. Amma bizim iradəmiz, müstəqil, demokratik Azərbaycanın iqtisadi, xarici siyasəti və dünyanın böyük dövlətləri, onların neft şirkətləri ilə əməkdaşlığı – bütün bunlar bizi bugünkü günə gətirib çıxardı.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ağır bir yol keçibdir. Amma bu gün artıq hamı görür ki, biz bu yolu uğurla keçmişik. Biz Türkiyə Cümhuriyyəti, Gürcüstan, Azərbaycan Amerika Birləşmiş Ştatlarının daimi dəstəyi nəticəsində bu ağır, çətin yolu birlikdə uğurla keçdik və bu gün artıq son sazişlər imzalandı.

İndi yeni mərhələ açılır. Bu gün burada verilən bəyanatlar və xüsusən Devid Vudvordun verdiyi bəyanatlar onu göstərir ki, biz əməli işə başlayırıq, bu əməli iş də uğurla həyata keçiriləcək və 2004-cü ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə Xəzər dənizinin nefti Aralıq dənizinə axacaqdır. Biz buna inanırıq. Biz hamımız birlikdə – Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, onların təmsil etdikləri dövlətlər Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə bu proqramı da gələcəkdə uğurla həyata keçirəcəyik.

Bizim bu işlərimizə maneçilik törədənlərə, – həm daxildə, həm xaricdə, – mən bildirmək istəyirəm ki, qoy onlar müstəqil Azərbaycan dövlətinin son illər, son 7 ildə keçirdiyi ağır, çətin, amma çox uğurlu yolu düzgün qiymətləndirə bilsinlər və özlərinə nəticə çıxarsınlar.

Biz bütün bu işləri Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün edirik. Biz bütün bu işləri Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq üçün edirik. Biz bütün bu işləri Azərbaycana parlaq gələcək yaratmaq üçün edirik. Biz bütün bu işləri müxtəlif dövlətlərlə uzunmüddətli əməkdaşlıq üçün edirik. Ona görə də mən inanıram ki, bizim bütün bu işlərimiz uğurla həyata keçiriləcəkdir.

Mən bu sənədlərin imzalanması münasibətilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini, Azərbaycan Dövlət Neft Şirkətini, Azərbaycan dövlətini, hökumətini, bütün Azərbaycan xalqını təbrik edirəm. Biz estafeti Gürcüstana, sonra isə Türkiyəyə veririk.

Mən cənab Vudvorddan xahiş edirəm ki, bizim salamlarımızı, mənim xüsusi salamımı, hörmət və ehtiramımı Gürcüstanın Prezidenti, mənim dostum Eduard Şevardnadzeyə və bütün gürcü xalqına çatdırasınız.

Bizim salamlarımızı və xoş arzularımızı Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərə, Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Bülənd Ecevitə, qardaş türk xalqına çatdırasınız.

Mən hamınızı bir daha təbrik edirəm və bu yolda hamıya uğurlar arzulayıram.

## "Üç dənizin əfsanəsi" konfransının açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

25 iyun 2002-ci il, İstanbul

– Hörmətli cənab sədr!

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayıram, konfransın işinə uğurlar arzulayıram.

Bu gün müzakirə olunan məsələ böyük tarixə malikdir. "Üç dənizin əfsanəsi", – Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi, – konfransı beş ildir keçirilir. Nəyə görə bu daha öncə keçirilməmişdir? Çünki, birincisi, bizim bu işlərimizin gələcəkdə bir-biri ilə bu qədər sıx əlaqədə olması barədə az məlumat var idi, həm də buna inananların da sayı az idi. Ancaq, – bunu Azərbaycanı tərifləmək üçün demək istəmirəm, – hər dəfə Azərbaycanda Xəzər dənizinin çox zəngin qaz və neft ehtiyatlarının olması və onlardan istifadə edilməsi haqqında məsələlər qalxandan sonra, 1994-cü ildə "Əsrin müqaviləsi" adlanan müqavilə imzalanandan sonra bütün dünyada Xəzər dənizi haqqında böyük müzakirələr keçdi. Çünki Xəzər dənizinin bu qədər zəngin neft-qaz yataqlarına malik olması dünyada çoxlarına məlum deyildi.

Ancaq Azərbaycanda biz bunu bilirdik. Çünki Azərbaycan alimləri, Azərbaycan geoloqları hələ 50-60 il bundan öncə Xəzərin dərin sularında neft və qaz hasil etməyə başlamışdılar. Ümumiyyətlə, dünyada ilk dəfə, 150 il bundan öncə məhz Azərbaycanda sənaye üsulu ilə neft hasil olunubdur. Dünyada ilk dəfə məhz Azərbaycanda 50 il bundan öncə suyun dərinliklərindən neft hasil edilibdir. Biz bunları Azərbaycanda bilirdik və bununla məşğul olurduq.

Ancaq Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, özü öz sərvətlərinin sahibi olandan sonra bu sərvətlərdən geniş və səmərəli istifadə edilməsi üçün böyük addımlar atılmağa başladı. Bu addımlardan birincisi, bunun əsasını qoyan 1994-cü ilin sentyabr ayında Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli"

yataqlarının istifadə edilməsi barədə “Əsrin müqaviləsi” adlanan müqavilənin bağlanması oldu.

Yenə də deyirəm, biz o vaxt bu müqaviləni imzalayanda Xəzər dənizi haqqında dünyada kifayət qədər məlumat yox idi. Bu gün isə artıq aydındır ki, Xəzər dənizi öz karbohidrogen sərvətlərinin həcminə görə ən azı Şimal dənizi ilə müqayisə edilə bilər.

Əgər Şimal dənizinin hasil edilə bilən qalıq ehtiyatları 2,2 milyard tona bərabərdirsə, Xəzər dənizinin yalnız “Azəri-Çıraq-Günəşli” yataqlarının təsdiq olunmuş, hasil edilə bilən neft ehtiyatları təqribən 730 milyon tondur. Bu ancaq həmin yataqlardadır. Azərbaycanda isə dünyanın müxtəlif şirkətləri ilə 20-dək müqavilə imzalanıbdır. Təbiidir, onların hamısı eyni-miqyaslı deyildir, müxtəlifdir. Amma əgər bunları cəmləsəniz, görəcəksiniz ki, Xəzər dənizinin təkcə Azərbaycan sektorunda nə qədər böyük imkanlar var.

Ancaq indi məlumdur ki, Xəzər dənizinin Qazaxıstan sektorunda da çox böyük neft və qaz yataqları var. Rusiya sektorunda böyük neft-qaz yataqları var, digər sektorlarda da var. Beləliklə, biz 1994-cü ildən başlayaraq Xəzər dənizini dünyada təbliğ etdik, Xəzər dənizini tanıtdıq. Əgər yerin altından neft, qaz çıxarmaq və özü də böyük həcmdə çıxarmaq mümkündürsə, demək, onu ixrac etmək, onu satmaq lazımdır. Bunun üçün də yollar araşdırılır. O zaman ilk dəfə Xəzər dənizindən müxtəlif neft kəmərlərinin çəkilməsi haqqında məsələlər meydana çıxdı.

Bu gün artıq məlumdur ki, biz 1997-ci ildə Xəzər dənizindən Qara dənizə Bakı-Novorossiysk neft kəməri çəkdik. Demək, Xəzər dənizini Qara dənizlə birləşdirdik.

Ondan iki il sonra, 1999-cu ildə Xəzər dənizinin “Çıraq” yatağından çıxan neftin ixracını Novorossiysk kəməri ilə apara bilməzdik. Ona görə də biz daha bir kəmər, bu gün çox səmərəli işləyən neft kəməri, Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına kəmər çəkdik. Deyə bilərəm ki, 1999-cu ildən indiyə qədər bu neft kəməri ilə 20 milyon tondan artıq neft ixrac olunubdur və bu kəmər hələ gələcəkdə də böyük əhəmiyyətə malik olacaqdır.

Ancaq bunlar da bizi qane etmirdi. Biz Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında hələ 1994-cü ildən düşünürdük. Amma o vaxtlar buna inanan çox az idi. Mane olanlar da çox idi və bu günə qədər də bəziləri hesab edirlər ki, bu, xəyaldır. Yaxud da deyək ki, Bakı-Tbilisi-Ceyhan boru xətti, neft kəməri ilə ixrac edildiyi üçün Xəzər dənizində yetərli qədər neft yoxdur. Onlara cavab verərək mən bu gün demək istəyirəm ki, 2010-cu ildə "Azəri-Çıraq-Günəşli" yataqlarından 50 milyon ton neft hasil olunacaq və bu da Bakı-Tbilisi-Ceyhan boru kəmərinin işləməsi üçün tamamilə bəsdir. Amma bu, bir deyil, başqa yataqlar da var.

Burada məndən öncə çıxış edən dostlarım, cümhurbaşqanları söylədilər. Qazaxıstan, digər Xəzəryanı ölkələr də Bakı-Tbilisi-Ceyhan xəttindən istifadə edəcək. Artıq biz Bakı-Tbilisi-Ceyhan boru xəttinin inşasına başlamışıq. Güman edirəm ki, bu, çox uğurla gedəcəkdir. Mən bilirəm ki, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan böyük ixrac neft kəmərinin inşası başa çatacaq və biz hamımız: bu gün buradakı konfransda iştirak edənlər, mənim dostlarım, cümhurbaşqanları birlikdə Türkiyənin Aralıq dənizində olan Ceyhan limanına gedib orada Xəzər dənizindən gələn neftin tankerlərə yüklənməsini görəcəyik.

Bütün bu işlər bu üç dənizin əfsanəsini yaratdı. Ona görə mən demək istəyirəm ki, beşinci dəfə keçirilən bu konfransın – üç dənizin əfsanəsinin bir anası var. Onun anası Xəzər dənizidir. Onun anasının da yanında duran Azərbaycandır.

Mən baxıram, vaxtilə təsəvvür etmək mümkün olmazdı ki, Xəzər dənizindən Qara dənizə gələcəyik və oradan da Aralıq dənizinə qədər gedəcəyik. İki min kilometr uzunluğunda böyük bir neft kəməri çəkilir. Bu, həqiqətən, əfsanədir.

Mən bu konfransın iştirakçılarına və onun təşkilatçılarına bildirmək istəyirəm ki, bu əfsanə hələ davam edəcək, inkişaf edəcəkdir. Hesab edirəm ki, Xəzər dənizinin yataqlarından hasil ediləcək neft və qaz, – ya Azərbaycan sektoru olsun, ya Qazaxıstan sektoru olsun, yaxud başqa sektor olsun, – hamısı ixrac olunacaq. Yeni boru kəmərləri tikiləcəkdir.

Məsələn, indi Azərbaycanın "Şahdəniz" yatağı ilə bağlı, – hörmətli cümhurbaşqanı, əziz dostum Əhməd Necdət Sezər bu barədə çox gözəl dedi, – biz artıq hər şeyi imzalamışıq, hazırlamışıq. Boru kəməri tikilir, oradan çıxan qaz birbaşa Türkiyəyə, Ərzuruma gələcəkdir. Amma bu, birinci nöqtədir. Biz belə hesab edirik ki, Xəzər dənizindən çıxan qaz bundan sonra daha da uzağa, daha da irəliyə – Avropaya gedə bilər və gedə biləcəkdir. Çünki bizim imkanlarımız çoxdur.

Beləliklə, üç dənizin əfsanəsi, həqiqətən, böyük bir əfsanədir. Biz bu əfsanənin yaradılmasının iştirakçılarıyıq və bu əfsanəni reallığa çevirmişik. Artıq bu, əfsanə deyil, reallıqdır. Reallıq odur ki, Xəzər dənizindən neft və qaz hasil olur. Reallıq odur ki, Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri işləyir. Reallıq odur ki, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin inşası başlayıbdır. Bunlar gerçəklikdir. Bunlar reallıqdır.

Mən indi istəyirəm hörmətli dostlarıma təklif edəm ki, onlar yeni bir əfsanə üzərində düşünsünlər. Çünki artıq bunlar əfsanə deyil, bu günün reallıqlarıdır. Mən bu gün konfransda iştirak etməyimdən çox məmnunam. Hörmətli sədrlər, məni buraya dəvət etdiyinizə görə sizə təşəkkür edirəm. Burada mənim dostlarım: Türkiyə Cümhuriyyətinin başqanı hörmətli Əhməd Necdət Sezərə, Gürcüstanın başqanı hörmətli Eduard Şevardnadzeyə, Rumıniyanın cümhurbaşqanı hörmətli İon İliyeskuya, Ukraynanın başqanı hörmətli, çox gözəl bir insan Leonid Kuçmaya öz ehtiramımı bildirirəm. Çox məmnunam ki, biz bu gün səhərdən indiyə qədər heyətlərimizlə bərabər çox səmərəli işlər görmüşük.

Sağ olun, təşəkkür edirəm.

# Dövlət Neft Şirkətinin BTC-dəki payının maliyyələşdirilməsi

“Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında”

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması ilə təməli qoyulmuş Azərbaycan Respublikasının neft strategiyası müvəffəqiyyətlə inkişaf etdirilərək hazırda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən “Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənilməsinə başlanması barədə qərarın qəbul edilməsi, bu məqsədlə 10 milyard ABŞ dollarından artıq sərmayə qoyuluşunun nəzərdə tutulması cari onilliyin sonuna qədər qeyd edilən yataqların istismarından ildə 50 milyon tondan artıq neftin hasil olunmasına imkan verəcəkdir.

İrimiqyaslı xarici sərmayə qoyuluşunu və artan neft hasilatını şərtləndirən əsas amil neftin beynəlxalq bazarlara ixracını təmin edən nəql infrastrukturunun yaradılmasıdır.

Azərbaycan dövlətinin iradəsi və ardıcıl səyləri nəticəsində 1999-cu ilin noyabrında İstanbulda “Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Saziş” imzalanmışdır.

Eyni vaxtda Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Amerika Birləşmiş Ştatlarının dövlət başçıları bu layihəni dəstəkləyən və onun uğurla həyata keçirilməsi üçün möhkəm zəmin yaradan İstanbul Bəyannaməsini imzaladılar.

Əsas neft ixrac boru kəmərinin inşası irimiqyaslı infrastruktur layihəsi olmaqla yanaşı, həm də yüksək səmərəliliyə malik olan əlverişli kommersiya layihəsidir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin Azərbaycan Respublikasının neft strategiyasının və xarici neft şirkətləri ilə işgüzar əməkdaşlığın davam etdirilməsi, sərmayəçilərlə bağlanmış sazişlər çərçivəsində hasil edilən neftin dünya bazarlarına çıxarılması və xalqımızın sosial-iqtisadi rifahının yüksəldilməsi üçün mühüm siyasi və iqtisadi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikasının bu layihədə mənafelərini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin maliyyələşdirilməsinə dair aşağıdakı təklifləri məqbul hesab edilsin:
    - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində 25% həcmində iştirak payının 70%-ə yaxın hissəsinin layihənin digər iştirakçıları ilə birgə xarici maliyyə-bank qurumlarından kreditin cəlb edilməsi yolu ilə, qalan hissəsinin isə dövlətin daxili imkanları hesabına maliyyələşdirilməsi barədə;
    - Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin digər iştirakçıları ilə yanaşı, layihədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirakını təmin etmək məqsədilə onun törəmə şirkətinin təsis edilməsi və bu şirkət vasitəsilə layihə üzrə bütün mülkiyyət hüquqlarına və idarəetmə səlahiyyətlərinə malik olacaq layihə üzrə konsorsiumda 25% həcmində müvafiq payın əldə edilməsi barədə;
    - xarici maliyyə-bank qurumları tərəfindən veriləcək kredit vəsaitlərinin müqabilində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istismara verilməsinədək dövrü əhatə edən və bu qurumların məqbul saydığı tamamlama zəmanətlərinin layihə iştirakçıları tərəfindən təqdim edilməsi şərtini nəzərə alaraq, Britiş Petroleum, Statoyl və Yunokal şirkətləri tərəfindən bu şirkətlərlə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış şərtlərə uyğun olaraq, Dövlət

Neft Şirkətinin əvəzinə onun iştirak payına mütənasib cəlb edilən kredit vəsaiti üzrə əks-zəmanətin verilməsi və bunun müqabilində boru kəmərinin istismara verilməsindən sonra 2 mln. barel həcmində xam mənfəət neftinin Britiş Petroleum, Statoyl və Yunokal şirkətlərinə təqdim edilməsi barədə.

2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirakının dövlətin daxili imkanları hesabına maliyyələşdirilməsini təmin etmək məqsədilə:
   - Azərbaycan Respublikası Mərkəzi Bankı Bankın xarici valyuta ehtiyatlarının formalaşma mənbələrindən birini 2000-ci ilədək neft sazişləri çərçivəsində xarici sərmayəçilər tərəfindən Azərbaycan Respublikasına ödənilmiş bonusların təşkil etdiyini nəzərə alaraq, bu valyuta ehtiyatlarından 118 milyon ABŞ dolları məbləğində vəsaiti Azərbaycan Respublikasının Dövlət Neft Fonduna köçürsün;
   - Azərbaycan Respublikasının Dövlət Neft Fonduna tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirak payının maliyyələşdirilməsi üçün hal-hazıradək edilmiş ödənişlər nəzərə alınmaqla iştirak payının qalan 30%-ə yaxın hissəsi üzrə tələb olunan vəsaitin bu Fərmanın 1-ci bəndində göstərilmiş Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin törəmə şirkətində müvafiq pay əldə edilməsi məqsədilə həmin törəmə şirkətə uzunmüddətli investisiya edilməsini təmin etsin.
3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin törəmə şirkətinə investisiyasının məcmu məbləği Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsindəki 25%-lik iştirak payının 30%-ə yaxın hissəsinin maliyyələşdirilməsi üçün kifayət edəcək həcmdə olmalı, lakin bu Fərmanın 1-ci bəndinə müvafiq olaraq, cəlb ediləcək kredit vəsaitləri üzrə öhdəlikləri əhatə etməməlidir.

4. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istismara verilməsi üçün onun Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və layihənin digər iştirakçıları tərəfindən iştirak paylarına mütənasib həcmlərdə xam neftlə ilkin doldurulması zərurətini nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə hasilatın pay bölgüsü barədə sazişlər çərçivəsində Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin müvafiq həcmindən bu məqsədlə istifadə etməyə icazə verilsin.
5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Dövlət Neft Fonduna tapşırılsın ki, xarici sərmayəçilərlə bağlanan neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində Azərbaycan Respublikasının və ya onu təmsil edən hüquqi şəxslərin (şəxslərin) strateji əhəmiyyətli neft-qaz kəmərlərinin inşasına və Azərbaycan Respublikası Dövlət Neft Fonduna yönəldilən gəlirlərinin vergilərdən azad edilməsi ilə bağlı Azərbaycan Respublikasının vergi qanunvericiliyinə dəyişikliklərin edilməsi barədə təkliflərini 15 (on beş) gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.
6. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Fərmanın icrası ilə bağlı olan müvafiq xüsusi icazələrin 15 gün müddətində verilməsini təmin etsin.
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu Fərmanın icrası ilə bağlı mütəmadi olaraq Azərbaycan Respublikası Prezidentinə məlumat versin və Fərmandan irəli gələn digər məsələləri həll etsin.
8. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 iyul 2002-ci il

## Dövlət Neft Fondu BTC layihəsinin maliyyələşdirilməsinə başlayır

Azərbaycan Respublikası Prezidentinin 30.07.2002-ci il tarixli 798 saylı Fərmanına uyğun olaraq, 300 milyard (denominasiya edilməmiş) manat vəsait Azərbaycan Respublikasının öhdəliklərinin yerinə yetirilməsi məqsədilə Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsinə yönəldiləcək. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti BTC layihəsində iştirak etmək məqsədilə "AzBTC Co." törəmə şirkətini yaradıb. Bu şirkət 3 milyard ABŞ dolları məbləğində qiymətləndirilən ixrac boru kəməri layihəsində iştirak edən neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış "BTC Company" şirkətində 25%-lik paya malikdir.

"AzBTC Co." şirkəti daxil olmaqla layihə iştirakçıları layihənin dəyərinin 30%-lik hissəsini öz vəsaiti hesabına maliyyələşdirəcəklər, qalan 70%-lik hissənin maliyyələşdirilməsi isə beynəlxalq maliyyə institutlarından, ixrac kredit agentliklərindən və kommersiya banklarından vəsaitlərin cəlb edilməsi yolu ilə həyata keçiriləcək.

Azərbaycan dövlətinin Azərbaycan "BTC Co." şirkətindəki 80%-lik payının təmsilçisi kimi Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (İİN) çıxış edəcək, Dövlət Neft Fondu isə İİN-in Azərbaycan "BTC Co." və BTC layihəsi üzrə maliyyə öhdəliklərinin maliyyələşdirilməsini həyata keçirəcək. İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan "BTC Co." şirkətindəki payına düşən dividendlər Dövlət Neft Fonduna daxil olacaq.

## "BTC Co." şirkətinin təsis edilməsi

Azərbaycanın əsas ixrac boru kəməri olan Bakı-Tbilisi-Ceyhan boru xəttinin çəkilişini həyata keçirmək və tikintinin maliyyə məsələlərini həll etmək üçün idarəedici şirkətə ehtiyac vardı. Bu şirkət 2002-ci il avqustun 1-də "BTC Co."[17] adı ilə Kayman adalarında təsis edildi. Niyə Azərbaycanda və yaxud Türkiyədə deyil, məhz ofşor zonada?!

Bunun səbəbi onunla bağlıdır ki, "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənilməsi üçün təsis edilən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) ("Azerbaijan International Operating Company" – AIOC) də Kayman adalarında qeydə alınıb. Bakı-Tbilisi-Ceyhan

boru kəmərinin tikintisi üçün isə bir neçə milyard dollar dəyərində vəsaitlərin müntəzəm köçürülməsinə ehtiyac yaranacaqdı və əməliyyatların vaxtında, gecikmədən və bir hesabdan digər hesablara daha az bank faizləri tutulmaqla köçürülməsi üçün eyni məkanda qeydiyyatı olan şirkətlərin üstünlükləri daha çoxdur.

"BTC Co." şirkəti təsis edilərkən onun səhmləri şirkətlər arasında bu şəkildə bölünmüşdü:

| Şirkət | Ölkə | Payı, %-lə |
|---|---|---|
| BP | Böyük Britaniya | 30,1 |
| SOCAR | Azərbaycan | 25 |
| Unocal | ABŞ | 8,9 |
| Statoil | Norveç | 8,71 |
| TPAO | Türkiyə | 6,53 |
| ENI/Agip | İtaliya | 5 |
| TotalFinalElf | Fransa | 5 |
| ITOCU | Yaponiya | 3,4 |
| Inpex | Yaponiya | 2,5 |
| ConocoPhillips | ABŞ | 2,5 |
| Amerada HESS | ABŞ | 2,36 |

IV FƏSİL

# BTC-nin TİKİNTİ MƏRHƏLƏSİ

## Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi

2002-ci il sentyabrın 18-də Azərbaycan paytaxtı yaxınlığındakı Səngəçal sahil terminalında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın Prezidenti Eduard Şevardnadze mərasimdə iştirak ediblər.[18]

Amerika Birləşmiş Ştatlarının energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqlar da mərasimdə iştirak edirdilər. Prezidentlər və ABŞ-nin energetika naziri mərasimdən əvvəl avtobusa əyləşərək, Səngəçal terminalının indiki və gələcək ərazisi ilə tanış olublar.

Ali qonaqlara məlumat verilib ki, tikintisinə 1996-cı ildə başlanmış bu terminalın indiki ərazisi 255 hektardır. "Çıraq-1" platformasından sualtı boru kəməri ilə vurulan neft bu terminala qəbul olunur və texniki emaldan keçirilir. Terminalda ümumi tutumu 32 min kubmetr olan 4 çən quraşdırılmışdır. Dəniz yatağından qəbul edilən neft texniki emaldan sonra digər çənlərə, sonra isə nasoslar vasitəsilə ixrac sisteminə vurulur.

Hazırda terminalda iki Qərb və Şimal ixrac sistemləri var. İndi, əsasən, Qərb ixrac sistemindən istifadə olunur. Terminalda quraşdırılmış iki qaz-turbin generatoru onu elektrik enerjisi ilə təmin edir.

Prezidentlərə terminalın gələcək perspektivləri barədə də məlumat verilib. Bildirilib ki, terminalın gücünü artırmaq məqsədilə

burada tikinti işləri aparılır. Hazırda terminal gündə 140 min barel xam neft qəbul edə bilir. 2003-cü ildən etibarən bu, 180 min barelə çatdırılacaq. İndi terminalda aparılan tikinti işlərinə min nəfərə yaxın yerli vətəndaş cəlb olunub.

Ali qonaqlara mərkəzi idarəetmə məntəqəsi də göstərilib, onun funksiyası və texniki göstəriciləri barədə məlumat verilərək bildirilib ki, terminalda bütün proseslər buradan idarə olunacaq. Belə bir fakt da vurğulanıb ki, bütün tikinti işləri qurtardıqdan sonra terminalın ərazisi 800 hektara çatacaq, gündəlik gücü isə 1 milyon bareldən çox olacaq. Beləliklə, o, dünyada ən böyük terminallardan birinə çevriləcək.

Səngəçal terminalında BTC-nin təməlqoyma mərasimi



## Natiq Əliyev, ARDNŞ-nin prezidenti:

– Zati-aliləri, Azərbaycan Respublikasının hörmətli Prezidenti Heydər Əliyev! İcazənizlə bugünkü mərasimi açıq elan edirəm və bildirmək istəyirəm ki, bu tədbirə müxtəlif ölkələrdən çoxsaylı qonaqlar gəlmişdir. Onlar bizimlə tərəfdaş ölkələrin təmsilçiləridir. Ancaq ən böyük qürur hissini ona görə keçiririk ki, bu gün bizimlə bir yerdə sevincimizi bölüşməyə Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər gəlibdir. Gəlin onu salamlayaq.

Azərbaycan Respublikasının həmişəki kimi ən əziz qonağı Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze gəlibdir, onu salamlayaq.

Bizim layihələrə həmişə dəstək verən, siyasi cəhətdən bunu dəstəkləyən Amerika Birləşmiş Ştatları olubdur. Bu gün mərasimə Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Spenser Abraham da buyurubdur. Gəlin onu da salamlayaq. İndi isə bu böyük layihənin əsl memarı, hamımızın sevimlisi olan Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyevdən xahiş edək ki, öz sözünü desin.

## Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi:

– Türkiyə Cümhuriyyətinin Prezidenti zati-aliləri hörmətli Əhməd Necdət Sezər!

Gürcüstanın Prezidenti zati-aliləri hörmətli Eduard Şevardnadze!

Amerika Birləşmiş Ştatlarının energetika naziri hörmətli Spenser Abraham!

Hörmətli xanımlar və cənablar, qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimi-qəlbdən salamlayıram və bu böyük əhəmiyyət kəsb edən layihənin həyata keçirilməsi münasibətilə bura toplaşanlara təşəkkür edirəm.

Bizim hamımızı, o cümlədən uzaq ölkələrdən Azərbaycana gəlib bu gün bizimlə birlikdə bu şənliyi bölüşənləri buraya toplayan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanması üçün təməl daşının atılması mərasimidir. Bu böyük layihə artıq bütün dünyada məşhurdur və dünya ictimaiyyəti bir çox illərdir ki, bu layihəni müzakirə edir. Bu layihənin əsası 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin başlanğıcında, 1994-cü il sentyabr ayının 20-də Azərbaycanda, Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının müştərək işlənilməsi üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında müqavilə imzalanarkən qoyulmuşdur.

Bu müqavilə dünyaya səs saldı və təsadüfi deyildir ki, ona "Əsrin müqaviləsi" adı verildi. Biz bu müqaviləni imzalayarkən, təbiidir ki, "Azəri-Çıraq-Günəşli" yataqlarından gələcəkdə ildə 50 milyon tondan artıq neft hasil edilməsini nəzərdə tutmuşduq. Ancaq hasil olan neft dünya bazarlarına çıxarılmalıdır.

Bunun üçün müxtəlif yollar var idi, müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla: Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və təbiidir ki, bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq nefti Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldıq.

Bu qərarın özü də çox mübahisələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz Bakı-Tbilisi-Ceyhan marşrutu ilə getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yəni birinci növbədə Azərbaycana mane olurdular. Çünki neftin sahibi bizik və nefti də haradan ixrac etmək birinci növbədə bizim hüququmuz idi.

Bizə çox təzyiqlər etdilər. O vaxt Azərbaycanda ictimai-siyasi vəziyyət o qədər də sabit deyildi. 1993-cü ildə burada vətəndaş müharibəsi baş vermişdi. Biz onların qarşısını aldıq və müqaviləni imzaladıq. Ancaq müqaviləni imzalayanda hətta bizim daxilimizdə belə yüksəkvəzifəli şəxslər var idi ki, onlar müxtəlif xarici xidmət orqanlarına qulluq edirdilər, bu müqavilənin pozulması haqqında öz fikirlərini söyləmişdilər. Bunu

demək sizin üçün maraqlıdır. Çünki 1994-cü il sentyabrın 20-də biz müqaviləni imzaladıq. Ondan bir gün sonra Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından böyük cinayət etmiş 4 nəfəri qaçırdılar. Ondan bir həftə keçdi, Azərbaycan parlamenti sədrinin müavininə terror etdilər, onu öldürdülər. Azərbaycanın əks-kəşfiyyat idarəsinin rəisini, polkovniki öldürdülər. Bu terrorlarla bizi qorxutmaq istədilər. Ancaq biz qorxmadıq. Onlar isə bu işlərini davam etdirirdilər. O vaxt məcburiyyət qarşısında mənimlə burada baş nazir vəzifəsində çalışan Surət Hüseynov kimi bir şəxs oktyabr ayının 4-də Azərbaycanda silahlı dövlət çevrilişi etməyə başladı. Biz bunun qarşısını aldıq. Birinci növbədə xalqın bizə dəstəyi ilə, xalqın köməyi ilə. 1995-ci ilin mart ayında yenidən silahlı dövlət çevrilişi etmək istədilər, qarşısını aldıq. Ondan sonra bəzi yerlərdə terror aktları törətmək, körpünü partlatmaq, təxribat etmək istədilər. Zərər çəkdik, amma qarşısını aldıq.

Bilirəm ki, məhz o zaman, Bakı-Tbilisi-Ceyhan layihəsi irəliyə sürüləndə mənim dostum Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə terror etdilər və o, möcüzə sayəsində sağ-salamat qurtardı. Bütün bunların hamısı və bizə göstərilən başqa siyasi təzyiqlər, müxtəlif təsirlər ona yönəldilmişdi ki, birincisi, bizim neft müqaviləsini, – bu işə Xəzər dənizində ilk dəfə başladıq, – qəbul etmək istəmirdilər. İkincisi isə, Bakı-Tbilisi-Ceyhan boru xəttinin çəkilməsinin əleyhinə çıxırdılar. Belə bir şəraitdə biz bunu başladıq, öz iradəmizi ortaya qoyduq və əvvəldən tutduğumuz yol ilə getdik.

1997-ci ildə "Çıraq" yatağından ilk neft aldıq. Biz onu əvvəl Bakı-Novorossiysk kəməri ilə, Rusiyanın Qara dənizdəki Novorossiysk limanı vasitəsilə nəql edirdik. Ancaq bununla bərabər, biz Qərb marşrutu ilə Bakı-Supsa neft kəmərini tikirdik və onu tezliklə istifadəyə verdik. İndi o vaxtdan indiyə qədər hasil edilən neft məhz bu kəmərlə – Qərb xətti ilə nəql olunur. Ancaq bunların hamısı ilkin neftdən ötrü idi.

Bizim nəzərdə tutduğumuz böyük neft üçün isə, yenə də deyirəm, Bakı-Tbilisi-Ceyhan lazım idi. Biz ardıcıl surətdə bu layihənin üzərində işləyirdik, çalışırdıq, bütün imkanlarımızdan istifadə edirdik. Türkiyə, Gürcüstan, Azərbaycan burada bərabər

idi, birlikdə hərəkət edirdi, bu işlə birlikdə məşğul idi. Ancaq əgər Amerika Birləşmiş Ştatları hökumətinin bizə, Azərbaycana bu barədə köməyi, daimi dəstəyi, məsləhətləri olmasaydı, təbiidir ki, biz buna nail ola bilməzdik.

Təsadüfi deyil ki, 1999-cu ilin noyabr ayında İstanbulda, ATƏT-in Zirvə görüşündə biz, Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstan, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlamaq üçün anlaşma imzaladıq. Bundan əlavə, bəyanat imzaladıq və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton öz dövləti adından bu bəyanata qoşuldu, öz imzasını qoydu. Bu da Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikilməsinin reallığına gətirib çıxardı.

Mən bu qısa tarixi sizə deməliyəm. Çünki bilməlisiniz ki, burada 8 il müddətində biz nə işlər görmüşük və hansı çətinliklərdən çıxmışıq, hansı müqavimətlərin, maneələrin qarşısını almışıq. Nəhayət, son dövrdə Bakı-Tbilisi-Ceyhan boru xəttinin inşa edilməsi haqqında bir neçə aydır proseslər gedir. Onun maliyyələşdirilməsi məsələsində də problemlər var idi. Ancaq onlar da həll olundu. İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, BP bu işlərə başçılıq edir. Onlar artıq bütün planları hazırlayıblar. Ona görə də bizi buraya təməl daşının qoyulmasına dəvət ediblər.

Mən sizə bildirmək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil, Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük.

Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz: Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq. Buraya nə qədər vəsait qoyulacaq, nə işlər

görüləcək – bu barədə sizə məlumatlar veriləcəkdir. Mən bunu demək istəmirəm. Ancaq onu demək istəyirəm ki, bütün bu layihələr Azərbaycanın iqtisadiyyatının inkişafına yönəldilibdir.

Bu gün burada "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənilməsinin ikinci fazası haqqında da sənəd imzalanacaqdır. Bu o deməkdir ki, artıq buraya çox böyük investisiya gələcək, işlər sürətlə gedəcəkdir. Çünki biz hesab edirik ki, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tamamilə hazır olacaq və biz hamımız birlikdə buradan Türkiyənin Ceyhan limanına gedəcək və orada Azərbaycan neftinin, Xəzər neftinin Ceyhan limanından yola salınmasının şahidi olacağıq.

Dediyim kimi, Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsində bəzi problemlər var idi. Azərbaycan bu işə öz payını verdi, biz onun maliyyələşdirilməsinin 25 faizini öz üzərimizə götürdük. Qalan hissəsi ayrı-ayrı şirkətlər arasında bölünübdür. Ancaq maraqlısı budur ki, bu layihəyə 2,5 faizlə "Eni" şirkəti qoşulubdur. Sonra "Total" şirkəti qoşulubdur. Mənə bu gün dedilər ki, 2,5 faizlə Yaponiyanın "İtoçu" şirkəti qoşulubdur və bir də Yaponiyanın "İmpeks" şirkəti məhz dünən 2,5 faizlə buna qoşulubdur.

Bu nə deməkdir? O deməkdir ki, bu boru xəttindən təkcə Azərbaycan yox, hamı istifadə etmək istəyir. Biz vaxtilə İstanbulda anlaşmanı imzalayanda ona Qazaxıstan Prezidenti Nursultan Nazarbayev də imzasını qoyub və bildiribdir ki, Qazaxıstan da bu boru xəttindən istifadə edəcəkdir. İndi mən bilirəm ki, xarici şirkətlər Qazaxıstanda çox işləyir. Onların bizim Bakı-Tbilisi-Ceyhan layihəsinə qoşulması və sərmayə qoyması onu göstərir ki, doğrudan da, Xəzərin başqa sektorlarından neft Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac olunacaqdır. Ancaq mən sizə deyirəm ki, təxminən 2007-2008-ci illərdə "Azəri-Çıraq-Günəşli" yataqlarından 50 milyon ton neft hasil olunacaqdır.

Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər. Biz onlarla birlikdə çalışırıq. Ona görə gələcəkdə hətta Bakı-Tbilisi-Ceyhanın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır.

Mənim dediyim bu sözlər gələcək üçündür və bu işlər bizim xalqlarımızın gələcəyi üçündür. Bizim bu işlərimiz yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən sonra mümkün olubdur.

Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. 150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt neft Azərbaycan xalqına məxsus olmayıbdır. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz bunun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik. İstədiyimiz ölkələr ilə əlaqələr qururuq və belə işlər görürük.

Amma ikinci boru da növbədədir. 1 trilyon kubmetr ehtiyatı olan "Şahdəniz" yatağından Bakı-Tbilisi-Ərzurum qaz kəməri də çəkiləcəkdir. Beləliklə, boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı-Tbilisi-Ceyhan siyasi xarakter daşıyır.

Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir. Biz dost ölkələrik. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Gürcüstan bizim üçün dost, qardaş ölkədir. Eləcə də biz onlar üçün dost, qardaş ölkəyik. Biz çox əlaqələr saxlayırıq. Ancaq bu əlaqələrimizi, necə deyərlər, daha möhkəm tellərlə bağlayırıq. Bu tellərdən biri də Bakı-Tbilisi-Ceyhan kəməri olacaqdır.

Mən şübhə etmirəm ki, Amerika Birləşmiş Ştatları bu məsələlərdə bizi bundan sonra da dəstəkləyəcəkdir. Ona görə mən bu mərasimdə Türkiyə Cümhuriyyətinə, onun Prezidenti hörmətli Əhməd Necdət Sezərə təşəkkür edirəm. Gürcüstana, onun Prezidenti hörmətli Eduard Şevardnadzeyə təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti cənab Corc Buşa təşəkkür edirəm. Mən bu yaxınlarda cənab Corc Buşdan antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən çox xoş bir məktub aldım. Biz ötən il sentyabrın 11-də ABŞ-də baş vermiş dəhşətli terror

hadisəsindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşuq, bu koalisiyada öz vəzifəmizi yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Beləliklə, biz bu sahədə də Amerika-Azərbaycan əlaqələrini inkişaf etdiririk, daha da yüksəklərə qaldırırıq.

Dünən hörmətli nazir ilə söhbət edəndə o, Prezident Buşdan mənə səmimi salamlar, çox xoş sözlər çatdırdı. Bütün bunlara görə, ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan boru xəttinin reallaşmasına dəstəyinə görə Amerika Birləşmiş Ştatlarına, onun xalqına və Prezident cənab Buşa təşəkkürümü bildirirəm.

Əziz dostlar! Əziz qonaqlar! Mən sizi bir daha ürəkdən salamlayıram, hamınıza cansağlığı arzu edirəm. Bakı-Tbilisi-Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir!

## Türkiyə Prezidenti Əhməd Necdət Sezərin nitqi:

– Hörmətli cümhurbaşqanları! Hörmətli nazirlər, dəyərli qonaqlar!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak etməkdən böyük qürur duyuram. Bu tarixi gündə qardaş Azərbaycanı ikiillik fasilədən sonra yenidən ziyarət etməkdən də böyük məmnunluq duyduğumu bildirmək istəyirəm.

Şərq-Qərb enerji dəhlizi çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri və digər layihələr həyata keçirilməkdədir. Şərq-Qərb enerji dəhlizi Xəzəryanı ölkələrin neft və qaz ehtiyatlarının dünya bazarlarına sabit şəkildə, təhlükəsiz çatdırılmasını təmin edəcəkdir. Bu layihələrin həyata keçirilməsinə başlanıldığı vaxtlarda hamımız bunu xəyal kimi qəbul edirdik. Ancaq Türkiyə, Azərbaycan və Gürcüstan müttəfiqlərinin dəstəyi ilə Xəzər dənizinin enerji sərvətlərini Qərbə daşıyacaq Şərq-Qərb enerji dəhlizini təmin etmək üçün hər cür işləri görmüşlər, fəaliyyətlərini inancla, qətiyyətlə göstərmişlər. Bizim bu qərarımız və qətiyyətimiz artıq bu gün bəhrəsini vermişdir.

Dostum hörmətli Heydər Əliyevin "Üç dənizin əfsanəsi" konfransında önəmli çıxışı zamanı bildirdiyi kimi, Bakı-Tbilisi-Ceyhan artıq əfsanəliyindən çıxmış, gerçəkliyə çevrilmişdir. Bəli, indi Şərq-Qərb enerji dəhlizi layihəsi geridönülməz nöqtəyə çatmışdır. Bundan sonra bölgəmizin inkişafına və xalqlarımızın gücünə söykənən yeni əfsanələr tapmalı, bunları reallığa çevirmək üçün birlikdə çalışmalıyıq. Qafqazda və Xəzər dənizində yeni işbirliyinə başladığımız bu tarixi gündə dostlarım hörmətli Heydər Əliyev və hörmətli Eduard Şevardnadze başda olmaqla üç ölkənin hökumətlərinin dəyərli rəhbərlərinə, Amerika Birləşmiş Ştatlarının hökumətinə, Azərbaycanın Dövlət Neft Şirkətinə, Gürcüstanın Beynəlxalq Neft Şirkətinə, Türkiyənin BOTAŞ şirkətinə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərini həyata keçirən digər şirkətlərə, xüsusilə bu layihəyə əvvəldən inancla dəstək verən ARDNŞ, "Türkiyə Petrolları Anonim Şirkəti"nə, BP, "Statoyl", "Yunokal", "İtoçu" şirkətlərinə, Şərq-Qərb enerji dəhlizinin həyata keçirilməsində əməyi olan bütün insanlara ürəkdən təşəkkürümü bildirirəm. "Eni" və "Total" şirkətlərinin bu layihəyə qoşulmalarının da böyük məmnunluq doğurduğunu vurğulamaq istəyirəm.

Türkiyə lap əvvəldən Xəzər neftinin və təbii qazının Türkiyə üzərindən Qərb bazarlarına daşınmasının iqtisadi, siyasi və strateji cəhətdən bölgə ölkələri və özü üçün ən doğru seçim olduğunu bildirmiş və bu sahədə böyük fəaliyyət göstərmişdir. Bu layihələrin həyata keçirilməsi bir tərəfdən Qafqaz və Orta Asiya ölkələri ilə dünya bazarları arasında Türkiyə üzərindən keçən təhlükəsiz enerji körpüsü yaradacaq, digər tərəfdən isə Türkiyə ilə Qərbin enerji təhlükəsizliyini artıracaqdır. Bölgəmiz üçün başqa bir önəmli cəhət Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ən təhlükəsiz yolla Türkiyə üzərindən keçməsidir. Tarixi İpək yolunun yenidən bərpa edilməsi layihəsinin də Xəzər hövzəsində yerləşən ölkələr üçün əhəmiyyəti çox böyükdür.

Xəzəryanı ölkələrlə Qərb arasında ticarət körpüsü və siyasi körpü rolunu oynayan bu layihələr bölgə ölkələrinin Qərbə qovuşması üçün önəmli əhəmiyyət daşıyacaqdır. Bu gün təməlini qoyacağımız Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə qoşulması üçün Qazaxıstan hökumətinin fəaliyyətinin uğurla nəticələnəcəyinə

inanıram. Qazaxıstan və Türkmənistan Şərq-Qərb enerji dəhlizi layihəsində yer almaqla Xəzəryanı ölkələrin Qərb iqtisadiyyatına qovuşmasına yardımçı olacaqdır. Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan layihəsinə, daha sonra isə Türkmənistanın və Özbəkistanın Bakı-Tbilisi-Ərzurum layihələrinə qoşulmaları bölgədə işbirliyinin inkişafı baxımından böyük önəm daşımaqdadır.

Hörmətli cümhurbaşqanları! Hörmətli nazirlər! Dəyərli qonaqlar! Türkiyə enerji strategiyasını, təhlükəsizliyini diqqətlə həyata keçirməkdədir. Azərbaycanın qazı istər təbii qaz ehtiyatlarımızın artırılması, istərsə də enerji təhlükəsizliyimizin təminatı baxımından strateji önəm daşıyacaqdır. Bu məqsədlə Bakı-Tbilisi-Ərzurum boru xəttinin tamamlanmasına, Azərbaycan qazının Türkiyəyə çatdırılmasına xüsusi əhəmiyyət veririk. Bu fürsətdən istifadə edərək Türkiyənin bütün qonşu ölkələrdən gələcək qaz kəmərləri üçün keçid yolu olduğunu diqqətə çəkmək istəyirəm.

Türkiyə qısa müddət içində Cənubi Avropaya qaz verilməsində tranzit ölkə rolunu oynayacaqdır. Bununla əlaqədar 2002-ci il martın 28-də Türkiyənin BOTAŞ və Yunanıstanın "Depo quruluşu" şirkətləri arasında bir anlaşma imzalanmışdır. Bu layihə ilə bağlı hüquqi sənədlər 2002-ci ilin üçüncü rübündə tamamlanacaqdır. Avropa Birliyi Komissiyasının da dəstəklədiyi bu layihə ilə Türkiyə yaxın gələcəkdə Avropanın təbii qazla təminatı üçün Rusiya, Əlcəzair və Norveçdən sonra mühüm rolunu oynayacaqdır.

Bir sözlə, boru xətti layihələrinin həyata keçirilməsi regional işbirliyinin qurulmasına, Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi inkişafının güclənməsinə, siyasi sabitliyin və demokratiyanın qorunmasına xidmət edəcək və beləliklə, bölgədə və dünyada sülh işinə də kömək edəcəkdir. Bu layihələrin həyata keçirilməsi ilə Azərbaycan, Gürcüstan və Türkiyə arasında yüksək səviyyəyə qalxan çox mühüm, möhkəm, dayanıqlı əlaqələr zəncirinə yeni güclü halqalar əlavə ediləcəkdir. Bu duyğu və düşüncələrlə başda hörmətli Əliyev və hörmətli Şevardnadze olmaqla Şərq-Qərb enerji dəhlizinin gerçəkliyə çevrilməsində əməyi olan hər kəsi bir daha salamlayır, fəaliyyətləri sayəsində siyasi qətiyyətlərini, yolgöstərici xidmətlərini ortaya qoyan

Türkiyə Cümhuriyyətinin məndən öncəki cümhurbaşqanları mərhum Turqut Özalı və hörmətli Süleyman Dəmirəli hörmət və ehtiram duyğuları ilə anıram. Bu böyük layihələrin Azərbaycan, Gürcüstan və Türkiyə xalqları arasındakı dostluq və qardaşlığın daha da möhkəmləndirilməsini, bölgəmizə sülh və əmin-amanlıq gətirməsini diləyirəm.

## Gürcüstan Prezidenti Eduard Şevardnadzenin nitqi:

– Cənab Prezident Heydər Əliyev!

Cənab Prezident Əhməd Sezər!

Amerikanın cənab energetika naziri! Xanımlar və cənablar, qonaqlar, övladlarımız!

İndi burada baş verənləri bizim gələcək nəsillərimiz görür və minnətdarlıq hissi ilə xatırlacayaqlar. XXI əsr Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə başlandı. Bu, Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin çoxəsrlik tarixində son dərəcə əhəmiyyətli hadisələrdəndir.

Müstəqillik əldə etdikdən ötən 10 ildə Gürcüstan üçün bu ən böyük nailiyyətlərdəndir. Mənə icazə verin bu təntənənin səbəbkarına, ümumiyyətlə, bu mühüm layihənin əsas yaradıcısına, Azərbaycan xalqının tanınmış liderinə, xalqımın əsl dostuna, qardaşım Heydər Əliyevə bu sevincli gündə gürcü xalqı adından dərin minnətdarlığımı bildirim. Dəfələrlə demişəm, yaddaşlardan silinməsin deyə bir daha təkrar edirəm: Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi. Bizim bədxahlarımız da məhz bunu istəyirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Ancaq onlar öz məqsədlərinə onda nail ola bilmədilər və gələcəkdə də nail ola bilməyəcəklər.

İcazə verin Prezident Sezərə atəşin salamlarımı yetirim. Şərq-Qərb enerji dəhlizinin tikintisində Türkiyənin rolu mühümdür. O, bölgənin lider dövləti kimi tarixi vəzifə daşıyır. Onun bu

vəzifəsi Azərbaycan və gürcü xalqlarının Avroatlantik məkanına, Dünya Birliyinə inteqrasiyasında öz təzahürünü tapır. Yeni "Böyük İpək yolu" ideyası yarandığı gündən bölgədə həmin ideyanın həyata keçirilməsini təmin edəcək əsas qüvvə məhz Türkiyə oldu. Şərq-Qərb enerji dəhlizini mən yeni Böyük İpək yolunun onurğası adlandırardım. Qafqaz və Mərkəzi Asiya dövlətlərinin möhkəmlənməsi, azad seçimə əsaslanan inkişaf yolu ilə getmək imkanı məhz bundan asılıdır.

Müasir dünyada bunu Amerika Birləşmiş Ştatları kimi dərindən dərk edənlər azdır. Bu layihəni və bir çox başqa layihələri açıq və gizli maneələrdən keçirən həlledici amil məhz dünyanın lideri olan həmin dövlətin dəstəyidir. Həmin layihələrə qarşı əvvəldən olan şübhələrə baxmayaraq, o öz beynəlxalq sanbalı və nüfuzu ilə bu layihələrin uğurunu təmin etmişdir. Zərrə qədər şübhə etmirəm ki, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri Prezident Buşun dəstəyi sayəsində yaxın vaxtlarda istismara veriləcək, Qara dəniz və Xəzər dənizi hövzəsində həyata keçirilən ən uğurlu layihələr olacaqdır. Avropa Birliyinin rolunu xüsusi qeyd etməyə bilmərəm. Həmin birlik "Böyük İpək yolu" layihəsinə həyat və dəstək verənlərdəndir. Əgər 1990-cı illərdə həmin layihəyə qarşı hökm sürən bədbinlikdən söz açırıqsa, onda onu da deməliyik ki, həmin şübhələrin aradan qaldırılmasında Avropa Birliyinin, onun rəhbərlərinin, onun üzvü olan ölkələrin, ələlxüsus da Almaniya, Böyük Britaniya və Fransanın rolu əvəzsizdir.

Əsas ixrac boru kəmərində iştirak edən şirkətləri salamlayıram. Bugünkü tarixi hadisə onların yorulmadan çalışmalarının və fasiləsiz zəhmətlərinin bəhrəsidir. Yüksək peşəkarlıq nümunəsi göstərən, əsas ixrac boru kəmərinin tikintisinin uğurla başa çatmasının və uğurlu istismarının zəminini təşkil edən şirkətlərin rəhbərlərinə, onların bütün əməkdaşlarına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Şərq-Qərb enerji dəhlizinə Qazaxıstanın qoşulmasına regional əməkdaşlıq prinsipləri baxımından böyük əhəmiyyət verirəm. Bu barədə həm Heydər Əliyev, həm də Əhməd Sezər qeyd etmişlər. Həmin proses artıq praktiki olaraq başlanmışdır. Onun daha da inkişaf etməsinə Gürcüstan da təkan verəcəkdir. Biz hər cür imkan yaradacağıq ki, qardaş Ukrayna, Rumıniya, Bolqarıstan və Avropanın başqa

ölkələri həmin dəhlizin sonrakı inkişafının gözəl bəhrəsini görsün. Bu gün mən təkcə vətənimin və ona dost olan ölkələrin böyük qələbəsinin iştirakçısı olduğuma görə deyil, həm də ona görə xoşbəxtəm ki, hələ 12 il bundan öncə Vladivostokdan Vankuverədək vahid Avroatlantik məkanı barədə irəli sürdüyüm ideya, Böyük İpək yolunun Avroatlantik məkanına inteqrasiyasına dair tarixi Bakı sammitinin qərarları göz önündə gerçəkləşərək həyata keçir.

Bu yolda biz hamımız ilk qələbəyə indiyədək maneəsiz işləyən Bakı-Supsa boru kəməri işə salınanda nail olduq. Cəsarətlə deyə bilərəm ki, Bakı-Supsa layihəsi Qərb istiqamətinin, xüsusən də Gürcüstandan keçən marşrutun etibarlılığını, sərfəliliyini təsdiq edən Bakı-Tbilisi-Ceyhan layihəsinə yol açmışdır.

Xanımlar və cənablar! Gerçəkləşməsi bu gün başlanan əsrin layihəsi bir irs olaraq bizim nəvə-nəticələrimizə qalacaqdır. Mən fəxr edirəm ki, bizim nəslimiz onlara layiqli miras qoyur. Biz birgə qüvvəmizlə, razılaşdırılmış ahəngdar fəaliyyətimizlə azacıq da olsa, möcüzə yaratmağa qadir olduğumuzu dünyaya göstərdik. Arzu edirəm ki, bizim birgə əməkdaşlığımız bir çox belə möcüzələr yarada bilsin. Diqqətinizə görə təşəkkür edirəm. Sizə xoşbəxtlik arzu edirəm! Qardaş Azərbaycana tərəqqi arzu edirəm!

## ABŞ-nin energetika naziri Spenser Abrahamın çıxışı:

– Möhtərəm prezidentlər!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin ilk mərhələsinin başlanmasını bayram etmək üçün burada olmaq mənim üçün çox xoşdur. Bu, vacib tədbirdir. Bu, Bakı-Tbilisi-Ceyhan kəmərinin başlanğıcından xəbər verən bir tədbirdir. Prezident Əliyev, Prezident Sezər və Prezident Şevardnadze ilə bir yerdə olmaq çox xoşdur. Bu, gözəl kommersiya, ticarət və mühəndis layihəsi, Xəzər dənizindən nefti Gürcüstan vasitəsilə Türkiyənin Aralıq dənizi sahilinə, Ceyhana, oradan da dünyaya daşıyacaq 1760 kilometrlik boru kəməridir.

Prezident Heydər Əliyevin Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdığı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bugünkü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində Prezident Heydər Əliyev neft və qaz ixrac dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir.

Mən həmçinin layihənin operatoru kimi BP şirkətinin xidmətlərini qiymətləndirmək istəyirəm. O, Bakı-Tbilisi-Ceyhan layihəsinə həyat vermək üçün özəl şirkətlərdən ibarət beynəlxalq qrupun yaradılmasında çox böyük iş görmüşdür. Mən çox məmnunam ki, Amerika Birləşmiş Ştatlarından burada "Yunokal" və "Delta Hess" şirkətləri də iştirak edir. Mən dünən Prezident Heydər Əliyevlə görüşəndə demişəm və indi də bildirmək istəyirəm ki, ABŞ Prezidenti cənab Buş da bu layihənin əhəmiyyətindən çox yaxşı xəbərdardır. O, Prezident Əliyevə və bugünkü tədbirin iştirakçılarına bir məktub göndəribdir. Mən indi bu məktubu oxuyuram:

"Mən Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına və Prezident Əliyevə, Prezident Sezərə və Prezident Şevardnadzeyə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin açılışı münasibətilə salamlarımı, təbriklərimi göndərirəm. Mən çox məmnunam ki, bu mühüm layihə indi həyata keçirilir və Amerika Birləşmiş Ştatlarından iki şirkət burada iştirak edir. Regionda yerləşən ölkələrin hökumətləri və BP-nin rəhbərlik etdiyi investorlar qrupu ilə ictimai, özəl səviyyədə sıx əməkdaşlıq qurulmuşdur və onun irəliləməsinə daha fəal töhfə verilmişdir. Bakı-Tbilisi-Ceyhan boru kəməri Şərq-Qərb enerji dəhlizində mərkəzi komponentdir. Buraya regiona yeni sərmayənin cəlb olunması, dünyanın enerji təhlükəsizliyinin gücləndirilməsi, Xəzər hövzəsi ölkələrinin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsi, bu ölkələrin iqtisadi əməkdaşlığına və dünya iqtisadiyyatına inteqrasiyasına təkan verilməsi daxildir. Bu boru kəməri region ölkələrinə, habelə dünyanın digər yerlərindəki ölkələrə xeyirlər gətirəcəkdir. Mən bugünkü mərasimdə iştirak edən dövlət, hökumət və şirkət rəhbərlərinə onların strateji uzaqgörənliyi və qətiyyətinə görə ən xoş sözlərimi çatdırıram. Amerika Birləşmiş

Ştatları Xəzərin enerji ehtiyatlarının üzümüzə gələn uzun illər boyunca təhlükəsizliyinin gücləndirilməsinin təmin olunmasında sizinlə davamlı tərəfdaşlıq etmək əzmindədir.

Baxmayaraq ki, bu boru kəməri ilə ilk neftin keçəcəyi vaxta hələ xeyli qalır, ancaq bu layihə regionun gələcəyinə əhəmiyyətli töhfələr vermişdir. Bu layihəni ərsəyə gətirərkən birgə işlədikləri zaman Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin öz aralarında yaratdıqları əməkdaşlıq və etibarlılıq gələcək birgə işlərdə inkişaf üçün, yeni tərəfdaşlar üçün, regionun digər ölkələri üçün bir model ola bilər. Biz həmçinin özəl sektor sərmayəsinin gücünü də qiymətləndirməliyik. İnanırıq ki, hökumətlərin və özəl şirkətlərdə çalışanların birliyi qarşıdakı illərdə dünyanın hər yerində enerji ehtiyatlarının uğurlu işlənilməsi üçün mühüm amil olacaqdır. Bu cür tərəfdaşlığa dəstək vermək və onu ruhlandırmaq ABŞ-nin enerji siyasətində əsas yer tutur.

Enerji sahəsində tərəfdaşlığı genişləndirmək imkanları da çox yaxşı haldır. Siz birlikdə işləməklə Xəzərin zəngin enerji ehtiyatlarına daha geniş qapılar açırsınız. Bu boru kəməri hər üç ölkənin xalqına, xüsusilə Azərbaycan xalqına mənfəətlər gətirməlidir. Bu kəmər Azərbaycanda enerji ehtiyatlarının istismar sürətini artıracaq və Prezident Heydər Əliyevin yaratdığı Neft Fondu kimi tərifəlayiq qurumlara kömək edəcək ki, neftlə bağlı qoyulan xarici sərmayələrdən gələcək gəlirlər yoxsulluğun azaldılmasına, təhsilə və Azərbaycanın kənd yerlərindəki əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə yönəldilsin.

Amerika Birləşmiş Ştatları Xəzər regionunun hökumətləri ilə birgə işləməyə davam etmək əzmindədir. Dünyanın enerji bazarlarının daha fəal iştirakçısına çevrilməyiniz prosesində, hasilatdan və nəqldən gələcək gəlirlərin artımı üçün çoxşaxəliliyin sürətləndirilməsi prosesində biz sizinlə birlikdə işləməyə davam edəcəyik. İnanırıq ki, bu kimi birgə layihələr yerli, regional və qlobal sülhə, firavanlıq və əmin-amanlığa doğru daha yaxın bir yoldur. Biz hamımız bu qələbəni qeyd etmək üçün buraya yığışmışıq. Bilirik ki, bu layihədən əldə edilən gəlirlərin hamısı bütün digər layihələrin irəliyə aparılmasına çox yaxşı zəmin yaradır. Bu, qısa müddətdə əldə olunmuş çox böyük irəliləyişdir. Elə bir irəliləyişdir ki, cəmi on il əvvəl buna ancaq xəyal demək olardı.

Bizim ümumi təhlükəsizlik, kommersiya maraqlarımız, sülh və firavanlığa olan maraqlarımız bu kəmərin uzunluğu ilə daha da güclənəcəkdir. Bu tədbirdə hamınızın olması bizi dövlətlərimiz arasında münasibətlərdə yeni, daha böyük ümidlər verən tarixin iştirakçısına çevirir. Tarixin bu bölməsini yazarkən gəlin söz verək ki, biz bu gün burada, bu tədbirdə nailiyyətlərini qiymətləndirdiyimiz adamların belə alicənablıqla irəliyə, bu səviyyəyə gətirib çatdırdıqları işi davam etdirəcəyik. Bu layihənin uğurla həyata keçirilməsi uğrunda işimizi birlikdə davam etdirəcəyik ki, ondan hamımız üçün gəlirlər gəlsin".

Cənab Prezident Heydər Əliyev, qonaqpərvərliyiniz üçün Sizə ürəkdən təşəkkür edirəm. Müdrik rəhbərliyinizə görə çox sağ olun.

## Natiq Əliyev:

– Zati-aliləri möhtərəm prezidentlər! Hörmətli qonaqlar, xanımlar və cənablar! Azərbaycanın paytaxtında, Bakı şəhərində keçirilən bugünkü mərasim dünyanın çox ölkələrinin diqqət mərkəzindədir. Bu ölkələr Azərbaycanda həyata keçirilən layihələri daim dəstəkləyib və bu gün də bu mərasimə çoxsaylı teleqram və məktublar göndəriblər. Zati-aliləri, icazənizlə biz onun bir neçəsini burada oxuyaq.

Fransa Respublikasının Prezidentı **Jak Şirakın** təbrik məktubunu oxumaq üçün bu ölkənin Azərbaycandakı səfiri xanım **Şantal Puareyə** söz verilir:

"Hörmətli Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri! Mən bu məktubumda sizlərə, Azərbaycana, Türkiyəyə və Gürcüstana uğurlar arzulayıram, bu layihənin uğurlu və xeyirli olmasını diləyirəm. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinə Fransanın şirkətləri də qoşulubdur. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan konsorsiumuna Fransa şirkətlərinin daxil olmasını məmnuniyyət hissi ilə qeyd edirəm. Cənubi Afrikada

"Davamlı inkişaf üzrə" beynəlxalq sammitdə mən ətraf mühitin qorunmasında hamımızın kollektiv məsuliyyətimizi təkidlə vurğuladım. Azərbaycan, Gürcüstan və Türkiyə, eləcə də BP şirkəti bu işləri ekoloji cəhətdən məsuliyyətlə həyata keçirəcəkləri barədə öz iradələrini aydın şəkildə ifadə etmişdir. Biz sizinlə bu yolu seçmişik və bu sahədə Fransanın təcrübəsinə etibar edə bilərsiniz.

Nəhayət, icazə verin neftdən və qazdan əldə edilən gəlirlərin ehtiyatla idarə olunması üçün yaradılan Neft Fondunun təsis olunmasını alqışlayım. Bu, Azərbaycan xalqına yalnız xeyir gətirə biləcək uğurlu bir təşəbbüsdür. Azərbaycan Respublikasının hörmətli Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti hörmətli Eduard Şevardnadze, Türkiyə Respublikasının Prezidenti hörmətli Əhməd Necdət Sezər, qoy bu gün açılışında iştirak etdiyiniz layihələr ölkələrinizin inkişafına və hər üç ölkə ilə Fransa arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə xidmət etsin. Jak Şirak, Fransanın Prezidenti".

İngiltərə nümayəndə heyətinin rəhbəri cənab **Piter Tibber** Böyük Britaniyanın Baş naziri **Toni Bleyerin** təbrik məktubunu oxudu:

"Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevə!

Hörmətli cənab Prezident! Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin tikintisinin təməlinin qoyulması və bu layihə ilə əlaqədar olaraq, "Azəri-Çıraq-Günəşli" neft yataqlarının tammiqyaslı işlənilməsi münasibətilə Sizi təbrik edirəm.

Mən BP-nin, Böyük Britaniyanın digər şirkətlərinin Azərbaycanın neft sənayesində əhəmiyyətli rol oynamasından çox məmnunam. Bu möhtəşəm layihənin müvəffəqiyyətlə həyata keçirilməsi hər iki ölkəyə böyük fayda verəcəkdir. Bu, Britaniya şirkətinin Azərbaycana ən azı daha 20 il cəlb olunması deməkdir. Ölkələrimiz arasında siyasi əlaqələr, eləcə də güclü ticarət-iqtisadi əlaqələr getdikcə artır. Avropa Şurasına qəbul olunmaq və eləcə də Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi vasitəsilə nazirlərimiz də bütün səviyyələrdə əlaqələr yaradıblar.

Mən eləcə də Azərbaycanın gələcəkdə Ümumdünya Ticarət Təşkilatının üzvü olmasını arzu edirəm. Bu gün Azərbaycan xalqı üçün tarixi bir gündür. Bu hadisə Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlığı gücləndirir. Xəzərin yeraltı sərvətlərindən istifadə edilməsinin gerçəkləşdirilməsi artıq uzaq xülya deyildir. Bu, sərvətin müdrikliklə idarə edilməsi, insanların həyat şəraitini yaxşılaşdırmaq üçün saysız imkanlar yaradır. Azərbaycan xoş həyəcan dolu bir gələcəyin astanasındadır. Mən və eləcə də Böyük Britaniya sizə bu yolda müvəffəqiyyət arzulayırıq. Çox sağ olun. Hörmətlə, Toni Bleyer, Böyük Britaniyanın Baş naziri".

## Sonra Norveçin Bakıdakı səfiri Steynar Gilə söz verildi:

– Azərbaycan, Gürcüstan və Türkiyənin hörmətli prezidentləri! Möhtərəm Baş nazir və nazirlər! Xanımlar və cənablar! Bu gün burada Norveçdən təbrik məktubunu oxumaq bizim üçün fövqəladə dərəcədə əhəmiyyətlidir. İcazənizlə möhtərəm Heydər Əliyevə Norveçin Baş naziri cənab Bundevikin təbrik məktubunu oxuyum:

"Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevə! Möhtərəm Prezident Heydər Əliyev! Mən Bakı-Tbilisi-Ceyhan boru xəttinin təməlinin qoyulduğu bu gündə Sizə ən səmimi arzularımı çatdırmaq istəyirəm. Bu boru xətti "Azəri-Çıraq-Günəşli" neft yataqlarının istismarı üçün çox önəmli əhəmiyyət kəsb edəcəkdir. Beləliklə, bölgədə neft və qaz hasilatı əhəmiyyətli dərəcədə artacaq, Azərbaycan, Gürcüstan və Türkiyə daha sıx əməkdaşlıq imkanı əldə edəcək. Bundan əlavə, biz fəxr edirik ki, Norveçin "Statoyl" şirkəti də belə bir mühüm işdə iştirak edir, onun bir parçasıdır.

Beləliklə, Norveç və Azərbaycan, eləcə də Norveç və bölgə ölkələri arasında əməkdaşlıq qüvvətlənəcək və bu, ölkəmizi bölgəyə daha da yaxınlaşdıracaqdır. Bu mərasimlə bağlı, boru xəttinin uğurlu olması üçün ən səmimi təbriklərimizi Sizə çatdırıram. Xyel Maqne Bundevik, Norveçin Baş naziri".

## Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Prezidenti Devid Vudvordun çıxışı:

– Zati-aliləri cənab prezidentlər! Cənab energetika naziri! Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Əvvələn, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşlarımız: ARDNŞ, "Yunokal", "LUKoyl", "Statoyl", "Eksson-Mobil", TPAO, "Devon", "İtoçu" və "Delta Hess" şirkətləri adından, ikincisi, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkətindəki tərəfdaşlarımız: ARDNŞ, "Yunokal", "Statoyl", TDAO, "Eni", "İtoçu", "Delta Hess", TFE, "İmpeks" şirkətlərinin adından bu gün burada çıxış etmək imkanından çox məmnunam.

Bu gün, həqiqətən, tarixi bir gündür. Biz bu gün buraya iki böyük layihənin tikinti mərhələsinin başlanmasını bayram etmək üçün toplaşmışıq. Bunlar "Azəri-Çıraq-Günəşli" yataqlarının (AÇG) işlənilməsi üzrə "Faza-2" və Bakı-Tbilisi-Ceyhan boru kəməri layihələridir. Əminik ki, onların hər ikisinin Azərbaycan, Gürcüstan və Türkiyə üçün əhəmiyyətli dərəcədə müsbət təsiri olacaqdır.

Beləliklə, biz hamımız bu gün Azərbaycan, Gürcüstan və Türkiyədə enerji iqtisadiyyatının yeni bir dövrünün yaranması ərəfəsindəyik. Bu, qanunauyğun haldır, dünyanın hələ də öz enerji ehtiyatları üçün arxalanmaqda davam etdiyi bir sənayenin yaranmasına 100 ildən də çox töhfə vermiş bir ölkə olan Azərbaycan bu nəhəng enerji layihələri üçün karbohidrogen ehtiyatlarını təmin edəcəkdir. 1997-ci il noyabrın 7-dən – "Çıraq" yatağından ilkin neftin hasilinə başlanandan bəri bütün maraqlı tərəflərlə əməkdaşlıq şəraitində əldə etdiyimiz mühüm irəliləyişlər barədə əvvəllər də danışmışam. İlkin neft layihəsi çərçivəsində artıq 165 milyon bareldən çox neft hasil edilmiş və Azərbaycan dövlətinə təxminən 500 milyon dollarlıq mənfəət nefti təhvil verilmişdir. "Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsi üzrə "Faza-1" layihəsinin tikinti işləri də yaxşı gedir. Bu layihəyə sanksiya verilməsindən bir il ötür, irəliləyiş əladır və layihə cədvələ tam uyğun həyata keçirilir. "Faza-1" üzrə hasilatın 2005-ci ilin əvvəllərində başlayacağı və nəticədə orta hesabla gündə 375 min barel neft çıxarılacağı gözlənilir. Bu işin icrası bizdə belə böyük inam

yaratmışdır ki, Azərbaycan və Gürcüstan uğurlu biznes qurmaq üçün möhkəm özül yaradılmasını təmin edə bilər və edir. Lakin bu günədək əldə etdiklərimiz nə qədər əhəmiyyətli olsa da, hazırda həyata keçirdiklərimizlə müqayisədə xeyli azdır.

Biz layihələrimizin həcmini və miqyasını genişləndirərək, Türkiyəni də bu işə qoşmaq ərəfəsindəyik. Biz burada uzun müddət fəaliyyət göstərəcəyik və ABƏŞ, BTC və "Şahdəniz"dəki tərəfdaşlarımızla birlikdə Xəzər regionundakı neft və qaz layihələrinə bundan sonra əlavə 18 milyard dollar sərmayə qoymağı planlaşdırırıq, bunun da əksər hissəsi Azərbaycana qoyulacaqdır.

"Faza-2" layihəsinin dəniz obyektləri iki əsas hasilat platformasından ibarət olacaqdır. Onlar "Azəri" yatağının qərb və şərq hissələrində yerləşəcək və hər ikisi "Faza-1"in hasilat platforması ilə oxşar olacaqdır. Yeni hasilat platformasından çıxarılacaq neft uzunluğu 190 kilometr olan 30 düymlük yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına nəql ediləcəkdir. Səngəçal terminalında "Faza-2" layihəsinin əsas hissəsi olaraq böyük genişləndirmə işləri aparılacaqdır. Bunun nəticəsində terminalın gücü sutkada 800 000 bareldən artıq olacaq, onun ümumi sahəsi 540 hektaradək artacaq və terminal dünyanın bu növ ən böyük obyektlərindən birinə çevriləcəkdir. AÇG-nin işlənilməsinin üçüncü, yekun fazası 2007-ci ildə tamamlanacaq və bu mərhələ yataqlardan ümumi hasilatı gündə 1 milyon bareldən yuxarı səviyyəyə çatdıracaqdır. Səngəçal terminalında texniki emaldan keçirilmiş neft Ceyhana ixrac olunmaq üçün Bakı-Tbilisi-Ceyhan boru kəmərinə vurulacaqdır.

BTC layihəsinin mahiyyəti nədir? Statistik məlumatlara görə, bu, uzunluğu 1760 kilometr olan, əsasən, 42 düymlük boru kəmərinə, 8 nasos stansiyasına və 98 siyirtməli stansiyaya malik, 2,95 milyard dollar sərmayə tələb edən layihədir. Xəzər dənizindən Aralıq dənizinədək olan yol boyunca boru kəməri bəzi yerlərdə 2700 metrdən də artıq yüksəklikdən və 1500-dən çox çaydan keçəcəkdir. Lakin BTC təkcə bu demək deyildir.

Bu layihə yeni Şərq-Qərb enerji dəhlizini açacaq və bizi yalnız yerli ixrac çözümü olan ortamiqyaslı neft hasilatı əməliyyatlarından beynəlxalq ixrac çözümünə malik nəhəng neft istismarı əməliyyatlarına aparacaqdır. Bu elə bir beynəlxalq ixrac çözümüdür ki, onun beynəlxalq standartlara uyğun fəaliyyət

göstərən beynəlxalq tərəfdaşları var. Bununla belə, o, yerli tərəfdaşlardan, yerli məhsullardan və xidmətlərdən istifadə etməklə və əhəmiyyətli sayda yerli işçi qüvvəsi cəlb etməklə yerli ehtiyaclara çox həssas yanaşır.

Gəlin həm də unutmayaq ki, BTC böyük həcmdə xam neftin çox tünlük olan Türkiyə boğazlarından yan keçməklə birbaşa dünya bazarlarına nəqlinə imkan yaradacaq və ətraf mühitin qorunması ilə bağlı Türkiyənin bütün narahatlıqlarını aradan qaldıracaqdır. Beləliklə, biz bu gün hansı mərhələdəyik?

Bu gün biz artıq gələcək uğurlarımız üçün möhkəm təməl qoymuşuq. Bununla yanaşı, biz yalnız bütün maraqlı tərəflərin fəal dəstəyi, iştirakı və əməkdaşlığı ilə irəli gedə bilərik. Mən burada bizi bu tarixi günə gətirib çıxaran rəhbərliyinə görə Prezident Heydər Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Sizin Prezident Şevardnadze və Prezident Sezərlə birlikdə regionda yaratmış olduğunuz sülh və sabitlik, imzaladığınız müqavilələrin bütövlüyü bu çoxmilyardlı dollarlıq sərmayələr tələb edən layihələri irəli apara bilməyimiz üçün həlledici əhəmiyyətə malikdir. BP və tərəfdaşları layihələrimizə gətirmiş olduğunuz gələcəyə tuşlanmış baxışları və uzaqgörənliyi, sizin nazirlərinizin və şəxslərinizin dəstəyini olduqca yüksək qiymətləndirirlər. Əminəm ki, biz bu layihələri irəli apardıqca və bugünkü tarixi günlə son məqsədə çatacağımız dövr arasında üzləşəcəyimiz labüd çətinliklərin aradan qaldırılmasında Sizin daimi dəstəyinizə arxalana bilərik.

Mən həmçinin digər maraqlı tərəflərin, yəni Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarının, ABŞ və Avropa hökumətlərinin, maliyyə qurumlarının, dövləti təmsil edən tərəfdaşlarımızın: ARDNŞ və Gürcüstan Beynəlxalq Neft Korporasiyasının, çoxsaylı podratçılarımızın və əlbəttə, layihədəki tərəfdaşlarımızın əhəmiyyətli töhfələrini yüksək qiymətləndirmək istərdim. Onların dünyanın bir çox ölkələrindən: Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya, Rusiya, Səudiyyə Ərəbistanı və İtaliyadan olmaları layihələrin əsl beynəlmiləl təbiətini və bunun nəticəsi kimi bu layihələrə göstərilən çox geniş dəstəyi əks etdirir. Biz bu dəstəyə nail olmaq üçün çox ciddi çalışmışıq, bütün aidiyyəti tərəflərlə geniş məsləhətləşmələr aparmışıq. Biz BTC marşrutunun seçilməsinə böyük qayğı ilə yanaşmışıq, məsələn, elə bir əminlik yaratmağa çalışmışıq ki, bircə nəfər də olsa, öz evinin köçürülməməsi barədə xahiş etməsin. Biz

mənfi təsirin azaldılması üzrə geniş məsləhətləşmələr aparmışıq ki, nəticədə bu ərazidə tikinti işlərimiz başa çatdıqdan sonra ətraf mühiti işə başladığımız vaxt necə idisə, o cür, yaxud daha yaxşı vəziyyətdə təhvil verə biləк. Hər bir işi BP-nin siyasətinə və tranzit ölkə hökuməti ilə sazişlərdəki öhdəliklərə uyğun olaraq, ən yüksək beynəlxalq standartlarla görməyə söz veririk. Bu öhdəliklərlə bərabər, hər bir hökumətin özünün həyata keçirəcəyi hüquq və tələblər də var və biz hökumətlərarası sazişlərin və tranzit ölkə hökuməti ilə sazişlərin yaratmış olduğu hüquqi əsaslar çərçivəsində bundan sonra da əməkdaşlıq etmək ümidindəyik ki, bu layihələrin təhlükəsiz, sərfəli və səmərəli yerinə yetirilməsi təmin olunsun.

İnanırıq ki, əldə olunacaq böyük gəlirlərdən yaxşı istifadə təmin edilərsə, bu, regionun əhalisinə əsaslı fayda verə bilər. Neft gəlirlərinin daxil olmasında və onlardan istifadə edilməsində şəffaflığı təmin etmək üçün Azərbaycanda Neft Fondunun yaradılmasından xüsusilə ruhlanmışıq.

Cənab prezidentlər, cənab energetika naziri, hörmətli qonaqlar, xanımlar və cənablar! Zənnimcə, biz bu gün bir arzunu bölüşürük – Gürcüstan və Türkiyə ilə əməkdaşlıqda Azərbaycanda dünya səviyyəli neft və qaz layihələri gerçəkləşəcək və bu, ölkələrə, onların vətəndaşlarına sanballı fayda və mənfəət gətirəcəkdir. Elə buna görə də bu gün "Faza-2" və BTC layihələrinə sanksiya verilməsinə həsr edilmiş bu mərasimdə olmaqdan məmnunluq duyuram. BP və onun tərəfdaşları bu arzunun reallığa çevrilməsi üçün sizinlə birlikdə işləmək əzmindədirlər. Sağ olun.

## ARDNŞ-nin prezidenti Natiq Əliyevin çıxışı:

– Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyev!

Türkiyə Cümhuriyyətinin Prezidenti zati-aliləri cənab Əhməd Necdət Sezər!

Gürcüstanın Prezidenti zati-aliləri cənab Eduard Şevardnadze!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İki gündən sonra müstəqil Azərbaycanın yeni neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanmasının 8 ili tamam olacaqdır. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər

Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda onun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi.

Bu gün tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin neft konsepsiyası nəinki Azərbaycanın XXI əsrdəki inkişafının əsasını qoydu, həm də Xəzər regionundakı zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə yol açdı və bütövlükdə regionun dünyanın ən böyük enerji mərkəzlərindən birinə çevrilməsində həlledici qüvvə rolunu oynadı. Mən öz adımdan, çoxsaylı tərəfdaşlarım və xarici qonaqlar adından bu gün Bakı şəhərində baş verən tarixi əhəmiyyətli hadisələr münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və onun yaxın həmkarları Türkiyə və Gürcüstan prezidentlərini təbrik edirəm. Yeni neft strategiyasının həyata keçirilməsinin indiki mərhələsinin əhəmiyyətini mərasim iştirakçılarına inandırmağa ehtiyac yoxdur, bununla belə, mən bu haqda bəzi rəqəm və faktları sizin nəzərinizə çatdırmaq istərdim.

"Əsrin müqaviləsi"nin imzalanmasından bu günə qədər xarici şirkətlərlə 21 neft müqaviləsi imzalanmışdır və bu layihələrin inkişafına ümumilikdə 6 milyard dollara qədər sərmayə qoyulmuşdur, bunun da təxminən 4 milyardı "Azəri-Çıraq-Günəşli" yataqlarının payına düşür. 1996-cı ilin fevral ayında "Çıraq" yatağından ilkin neftin hasilatı haqqında qərar qəbul olundu və uğurla həyata keçirildi. İlkin neft obyektlərinə "Çıraq" yatağında 105 metr dərinlikdə qurulmuş bir dəniz qazma və hasilat platforması, Səngəçaladək 24 düymlük bir sualtı neft kəməri, Neft Daşlarınadək 16 düymlük bir sualtı qaz kəməri, Səngəçalda neft terminalı, şimal və qərb istiqamətində iki ixrac boru kəməri və Supsada bir ixrac terminalı daxil oldu. Hazırda "Çıraq-1" özülündə 16 quyu qazılmışdır və onların 12-dən nəzərdə tutulduğundan xeyli artıq, gündə orta hesabla 140 min barel (19 min ton) neft hasil edilir.

Bu günədək 22,6 milyon tondan artıq neft çıxarılıb ki, bunun da 3,8 milyon tonu Bakı-Novorossiysk, 18,6 milyon tonu isə Bakı-Supsa boru kəmərləri vasitəsilə dünya bazarlarına çatdırılmışdır. Lakin neftin hasilatını və ixracını artırmaq üçün Azərbaycanın və

xüsusilə "Azəri-Çıraq-Günəşli" yataqlarının imkanları bugünkündən qat-qat çoxdur. Axır zamanlarda aparılan kəşfiyyat işləri göstərmişdir ki, yalnız bu yataqlardan sübut olunmuş və çıxarıla bilən neft ehtiyatları 4,2 milyard bareldən 5,4 milyard barelə və ya 511 milyon tondan 730 milyon tona qədər artmışdır.

Bu imkanlardan səmərəli istifadə etmək məqsədilə yataqların tammiqyaslı işlənilməsi proqramı hazırlandı və 2001-ci il avqustun 30-da onun ilk mərhələsi "Faza-1" layihəsinin başlanması qərara alındı. Bu layihə "Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsinə yönəldilmişdir. Layihədə 128 metr dərinlikdə 48 quyu ağzına malik olan, sutkada 400 min barel (ildə təxminən 20 milyon ton) neft hasil etmək gücündə hasilat, qazma və yaşayış platformasının tikilməsi nəzərdə tutulur. Bu platformadan neft uzunluğu 187 kilometr olan yeni sualtı boru kəməri vasitəsilə Səngəçal terminalına, səmt qazı isə 28 düymlük kəmər vasitəsilə sahilə çatdırılacaqdır. Bu həcmdə nefti və qazı qəbul etmək üçün Səngəçal terminalının genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Bunun nəticəsində "Faza-1" layihəsi çərçivəsində terminal gündə 360 min barelə (48,6 min tona) yaxın nefti qəbul və emal etmək qabiliyyətinə malik olacaqdır. Neft tutumlarının ümumi saxlanılma gücü 1,6 milyon barelə və ya 220 min tona çatacaqdır. Bundan başqa, neft laylarının səmərəli işlənilməsini təmin etmək məqsədilə hasilat platformasının körpü ilə birləşdirilməsi, bir yeni qaz kompressorunun və suvurma platformasının inşası nəzərdə tutulmuşdur.

"Faza-1" layihəsinin həyata keçirilməsi nəticəsində 2005-ci ilin birinci rübündə ilkin neftin hasil olunması gözlənilir və ümumilikdə "Çıraq-1" və "Mərkəzi Azəri" platformasından neft hasilatı gündə 250 min barelə, 2008-ci ildə isə yalnız bu iki platformadan 500 min barelə (ildə 25 milyon ton) çatacaqdır.

Möhtərəm cənab Prezident! Sizə məruzə etmək istəyirəm ki, "Faza-1" layihəsi cari ildə çox dinamik inkişaf edir, artıq əsas tikinti-quraşdırma işlərinə Azərbaycanda, Dubayda, Fransada, İtaliyada və İsveçdə başlanılmışdır və bu işlərin vaxtında yerinə yetirilməsi üçün ABŞ-nin "MakDermott", Fransanın "Buyiq", "Eyfel" və "Enterpoz", İtaliyanın "Saypem", İsveçin "Emtunqa", Türkiyənin "Tekfen" şirkətləri böyük səylər göstərir. Hazırda bu şirkətlərdə "Faza-1" layihəsi çərçivəsində 2300-dən artıq Azərbaycan

mütəxəssisi və vətəndaşı işə götürülüb və uğurla çalışır. "Faza-1" üzrə qazma proqramı "Dədə Qorqud" qazma qurğusu vasitəsilə "Azəri" yatağında platformanın tikilməsini gözləmədən, 2002-ci ilin mart ayında başlamışdır. Hal-hazırda bir quyu tam qazılıb qurtarıb, ikinci quyu qazılmaqdadır və ümumilikdə dəniz dibində quraşdırılmış qazma dayaq tavasından istifadə edilməklə doqquz quyu qazılacaqdır. Qalan 39 quyu isə platforma istismara verildikdən sonra, 2005-2011-ci illər arasında platformadan qazılacaqdır.

"Faza-2" layihəsi "Azəri" yatağının şərq və qərb hissələrinin işlənilməsinə yönəldilmişdir və bu, "Faza-1" ilə birlikdə "Azəri" yatağının işlənilməsini tam başa çatdıracaqdır. "Faza-2" dəniz obyektləri suyun dərinliyi müvafiq olaraq 120 və 150 metr olan sahələrdə yerləşməklə "Azəri" yatağının qərb və şərq hissəsində iki ədəd 48 quyu ağzına malik platformanı əhatə edəcəkdir. Platformaların texnoloji emal gücü "Azəri" yatağının qərb hissəsində gündə 340 min barel (ildə 17 milyon ton), şərq hissəsində isə 260 min barel (ildə 13 milyon ton) olacaqdır. Bunun nəticəsində "Azəri" yatağında neft hasilatı artırılacaq və gündə azı 800 min barelə (ildə 40 milyon ton) çatdırılacaqdır.

Bu zaman neft Səngəçala iki ədəd 30 düymlük boru kəməri, səmt qazı isə 28 düymlük boru kəməri vasitəsilə nəql ediləcəkdir. Səngəçal terminalı alınacaq əlavə hasilatın texnoloji işlənilməsini təmin etmək üçün genişləndiriləcək və 2007-ci ilə qədər texnoloji emal obyektlərinin gücü gündə 1,2 milyon barelə (ildə 60 milyon tona) çatdırılacaqdır. Bu da Səngəçal terminalını dünyanın ən böyük terminallarından birinə çevirəcəkdir.

"Faza-1"in qaz kompressor və suvurma platforması gücləndiriləcək və onun üzərində yerləşdirilmiş dörd qaz və suvurma qurğusuna "Faza-2"nin iş həcmi ilə əlaqədar olaraq, daha iki qazvurma və üç suvurma qurğusu da əlavə ediləcəkdir. "Faza-2" çərçivəsində ilkin qazma işləri 2003-cü ilin 4-cü rübündə "Azəri" yatağının mərkəzi hissəsində ilkin qazma işləri başa çatdırılan kimi onun qərb hissəsində "Dədə Qorqud" qazma qurğusu işə başlayacaq və platforma quraşdırılmazdan əvvəl 9 hasilat quyusu qazılacaqdır. Bundan sonra şərq hissəsində 2006-cı ilin 2-ci rübünədək daha 4 hasilat quyusu təhvil veriləcəkdir.

Bundan əlavə, platformalardan ümumilikdə 70 hasilat və 16 suvurma quyusunun qazılması nəzərdə tutulur. Beləliklə, "Faza-2"

layihəsinin iş cədvəlinə və proqramına uyğun "Azəri" yatağının qərb və şərq hissələrindən ilk hasilat 2006-cı və 2007-ci illərdə başlanacaq və həmin ildə yalnız "Azəri" yatağından ümumi gündəlik hasilat 615 min barelə (ildə 30 milyon ton) çatacaqdır. Bu baxımdan bu gün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ilk borusunun qoyulması, üç ölkənin prezidentlərinin bu təntənəli mərasimdə iştirak etməsi və bu işə xeyir-dua verməsi xüsusi əhəmiyyət kəsb edir, hamımızda bayram əhvali-ruhiyyəsi yaradır.

"BTC Co." şirkəti artıq yaradılmış və fəaliyyətə başlamışdır. Hazırda boru kəməri sisteminin tikintisini və istismarını təmin etmək məqsədilə layihəni maliyyələşdirmək üçün Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, ixrac kredit agentlikləri, sığorta və kommersiya bankları daxil olmaqla geniş beynəlxalq kreditorlar qrupundan vəsait almaqdan ötrü danışıqlar aparılır. Boru kəmərinin Türkiyədən keçən hissəsi Türkiyə hökuməti ilə "BTC Co." səhmdarları arasında bağlanmış "Birdəfəyə ödənilən məbləğ əsasında açarlı təhvil sazişi"nə uyğun olaraq tikiləcəkdir. "BTC Co." Türkiyə ərazisi daxilindəki 1070 kilometrlik hissənin tikintisinə məsul olan BOTAŞ şirkətinə işə başlamaq barədə bildiriş təqdim etmişdir və müqavilə sentyabrın 10-dan qüvvəyə minmişdir.

Azərbaycanda və Gürcüstanda tikinti işlərini aparmaq üçün hazırlıq tədbirləri görülür, BTC dəhlizinin torpaq sahibləri müəyyənləşdirilib, lazımi sənədlər təsdiq olunub, müvafiq icazələr və lisenziyalar alınıbdır. Biz qəti fikirdəyik və əminik ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə bu iki nəhəng layihə qısa bir zamanda uğurla həyatda gerçəkləşəcək və bununla dövlət müstəqilliyimizin möhkəmlənməsinə, doğma Vətənimizin çiçəklənməsinə, xalqımızın rifah halının yüksək səviyyəyə çatdırılmasına misilsiz xidmətlər göstərəcəklər.

Çıxışımın sonunda mən fürsətdən istifadə edərək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi adından bu layihələrdə iştirak edən çoxsaylı tərəfdaşlarımıza, Bakıya gələn bütün qonaqlarımıza öz dərin təşəkkürümü və minnətdarlığımı bildirmək, iki gündən sonra qarşılayacağımız və Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab Heydər Əliyev tərəfindən bizə bəxş edilən "Neftçilər Günü" peşə bayramı münasibətilə Azərbaycan neftçilərini təbrik etmək istəyirəm. Diqqətinizə görə sağ olun!

## Prezident Heydər Əliyev:

– Hörmətli xanımlar və cənablar! Burada edilən bütün nitqlərdə bildirildi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin gücünün təmin edilməsi üçün biz "Azəri-Çıraq-Günəşli" yataqlarında işləri genişləndirməliyik. Biz "Faza-1"in sanksiyasını bir il öncə vermişik, indi isə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə "Faza-2"nin başlanması haqqında qərar qəbul etməliyik. Hesab edirəm ki, bu qərarı biz qəbul edirik və hörmətli Prezident Sezər də, hörmətli Prezident Şevardnadze də və hörmətli nazir də buna etiraz etmirlər. İzin verin cənab Vudvord və Natiq Əliyev sənədləri imzalasınlar.

ABƏŞ-in prezidenti Devid Vudvord və ARDNŞ-nin prezidenti Natiq Əliyev "Azəri", "Çıraq", "Günəşli" yataqlarının tammiqyaslı işlənilməsinin "Faza-2" mərhələsinə sanksiya verilməsinə dair sənədləri imzaladılar.

## Prezident Heydər Əliyev:

– Hörmətli xanımlar və cənablar! Dostlar! Bizim bugünkü təntənəli mərasimimiz başa çatır. Mən bir daha hamınıza təşəkkür edirəm ki, Azərbaycan, Türkiyə, Gürcüstan üçün və Qərb ölkələrindəki, digər ölkələrdəki həmkarlarımız üçün vacib olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanmasının təməlinin qoyulmasında iştirak edirsiniz. Çox sağ olun! Biz belə qərara almışıq ki, bunun təməlini qoyanda, ilk borunu xəndəyə endirəndə eyni zamanda gələcək nəsillərə müraciətimizi də oraya qoyaq. Ona görə təklif var ki, o müraciət üç ölkənin prezidenti adından burada imzalansın.

Mərasimdə dövlət başçılarının gələcək nəsillərə müraciətinin mətni oxundu:

## GƏLƏCƏK NƏSİLLƏRƏ

**Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri, 18 sentyabr 2002-ci il.**

Bu gün biz, üç suveren dövlətin rəhbərləri: Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev, Gürcüstan Prezidenti Eduard Amvrosiyeviç Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin təməl daşını qoyaraq, sizə, xalqlarımızın gələcək nəsillərinə müraciət edirik.

Ölkələrimizin milli mənafelərindən çıxış edərək, böyük qürur duyğusu ilə bütün dünyaya bəyan edirik ki, XXI əsrin ilk illərində regionda ən nəhəng layihə olan, Xəzər və Aralıq dənizlərini birləşdirən neft boru kəmərinin çəkilməsi dövlətlərimizin, hökumətlərimizin birgə uğurlu səyləri nəticəsində artıq reallığa çevrilir. Layihənin həyata keçirilməsi və istismar zamanı hazırda bəşəriyyətin bu sahədə əldə etdiyi müasir elmi-texnoloji nailiyyətlərin tətbiq ediləcəyi mütərəqqi mühəndislik üsullarından istifadə olunması nəticəsində Şərq-Qərb enerji dəhlizi keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaqdır.

Bu proseslərdə Azərbaycan, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Norveç, Türkiyə, Yaponiya, İtaliya, Fransa və Səudiyyə Ərəbistanının neft şirkətləri xüsusi rola malikdir. Buna görə bu tarixi əhəmiyyətli hadisənin ən aparıcı amili ondan ibarətdir ki, müxtəlif dilə, dinə, adət-ənənələrə mənsub olan insanlar dostluq, qardaşlıq və həmrəylik şəraitində qlobal səviyyədə sivil əməkdaşlıq edirlər. Əminik ki, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir. Sizə sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq.

Azərbaycan Respublikasının Prezidenti
**Heydər Əliyev**

Gürcüstan Respublikasının Prezidenti
**Eduard Şevardnadze**

Türkiyə Cümhuriyyətinin Prezidenti
**Əhməd Necdət Sezər"**

## Heydər Əliyev:

– Müraciət imzalandı. İndi cənab Vudvord bir dəqiqəlik söz istəyir. Buyurun.

## Devid Vudvord:

– Cənab Prezident, dediyimiz kimi, bugünkü layihələrin həm Azərbaycan, həm də Gürcüstan və Türkiyə Cümhuriyyəti üçün çox böyük tarixi əhəmiyyəti var. Bu layihənin reallaşdırılması ilə Azərbaycanın Xəzər nefti dünyanın bütün yerlərinə çatdırılacaqdır. Bu hadisəni qeyd etmək üçün indi mən bizim tərəfdaşlarımız adından Sizə bir hədiyyə təqdim etmək istəyirəm.

Cənab Devid Vudvord Azərbaycan Prezidenti Heydər Əliyevə xatirə hədiyyəsi təqdim edib.

## Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi:

– Hörmətli xanımlar və cənablar! Dostlar!

Biz bu gün tarixi bir gün yaşayırıq. Tarixi bir hadisənin şahidiyik. Bu tarixi biz yazırıq. Bugünkü nəsillər, Azərbaycan, Türkiyə, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Fransa, İtaliya və digər dövlətlər – hamımız bir yerdə böyük bir tarix yazırıq.[19] Bunların hamısı gələcək nəsillər üçündür.

Şübhə yoxdur ki, gələcək nəsillər bizim gördüyümüz bu işlərdən bəhrələnərək, daha da firavan yaşayaraq, ölkələrimizdə, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu şəraitində, vətəndaş cəmiyyəti şəraitində yaşayaraq bunların bəhrələrini görəcək.

Bu gün burada Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Buşun təbrik məktubunu dinlədik. Mən Prezident Buşa bizim bugünkü mərasimimizə göstərdiyi diqqətə görə çox təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Prezident Buş daim bizimlə, Bakı-Tbilisi-Ceyhanla olacaqdır.

Fransa Prezidenti hörmətli Jak Şirak bizə təbrik məktubu göndərmişdir. Biz onu burada çox diqqətlə dinlədik. Çox mehriban, dostluq ruhunda yazılmış, yəni məzmunca bizə inamla dolu bir təbrik məktubudur. Mən Prezident cənab Jak Şiraka təşəkkürümü bildirirəm və onu əmin etmək istəyirəm ki, biz bu işdə dayanmayacağıq, irəliyə gedəcəyik və Fransanın dəstəyini daim hiss edəcəyik.

Biz Böyük Britaniyanın Baş naziri Toni Bleyerin təbrik məktubunu dinlədik. Mən təşəkkür edirəm. Burada, təbiidir ki, bir çox şirkətlər iş görür. Ancaq bu şirkətlərin içərisində BP, bildiyiniz kimi, özünəməxsus yer tutubdur və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, eyni zamanda Bakı-Tbilisi-Ceyhan layihəsi ilə əlaqədar yaradılmış şirkətə rəhbərlik edir. Ona görə də burada Böyük Britaniyanın mühüm iqtisadi maraqları var. Əmin ola bilərsiniz ki, o maraqlar yerinə yetiriləcəkdir. Mən Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyerə təşəkkür edirəm. Onu əmin edirəm ki, Azərbaycan-Böyük Britaniya əməkdaşlığı bundan sonra da davam edəcəkdir.

Biz Norveç Krallığının Baş naziri cənab Xyel Maqne Bundevikin təbrik məktubunu dinlədik. Biz Azərbaycanın neft strategiyasını həyata keçirməyə başlayandan, 1994-cü ildən bəri Norveç və onun "Statoyl" şirkəti bizimlə bərabərdir və çox səmərəli əməkdaşlıq edir. Ona görə bizə göndərdiyi təbrik üçün hörmətli baş nazirə təşəkkür edirəm və ümidvaram ki, bizim bu əməkdaşlığımız gələcəkdə də davam edəcəkdir.

Nəhayət, sizin hamınıza: Bakı-Tbilisi-Ceyhan boru xəttində çalışacaq insanlara, azərbaycanlılara, xarici ölkələrin Azərbaycanda işləyən vətəndaşlarına cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzu edirəm. Sağ olun. İndi isə təməl daşının qoyulmasında iştirak edəcəyik.

Daha sonra Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri, ABŞ-nin energetika naziri, mərasimin digər iştirakçıları Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulacağı yerə gəliblər. Burada ilk boru təntənəli şəkildə xəndəyə endirilib. Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Əhməd Necdət Sezər

borunun üstünə ilk torpağı atıblar. İçərisində "Gələcək nəsillərə" müraciətinin mətni olan dəmir kapsul Bakı-Tbilisi-Ceyhan boru kəmərinin başlanğıcından qazılmış quyuya basdırılıb. Sonra dövlət başçıları boru kəmərinin təməlinin qoyulması münasibətilə ucaldılmış xatirə lövhəsinə baxıblar.

Xatirə lövhəsində Azərbaycan, türk və gürcü dillərində bu sözlər yazılıb: "18 sentyabr 2002-ci il tarixdə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin inşasının təməl daşı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər tərəfindən qoyulmuşdur".

## Əsas ixrac boru kəmərinin tikintisi və maliyyələşdirilməsi

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi əvvəlcə Azərbaycan ərazisində rəsmi olaraq 2002-ci ilin sentyabrında başladı. Tikinti qrafikinə görə BTC-nin tikinti işlərinin tamamlanması 2005-ci ilin əvvəlinə gözlənilirdi. Reallıqda isə boru kəməri bütün sınaqlardan sonra istismara qrafikdən bir ildən çox geri qalaraq yalnız 2006-cı ilin mayında hazır oldu. Tikinti işlərinin gecikməsinin bir neçə səbəbi vardı.

Birinci səbəb Türkiyə ərazisində dalbadal iki sərt qış mövsümü ilə əlaqədar tikinti işlərinin dağlıq ərazilərdə həyata keçirilməsinin yubanması idi. Bundan əlavə, Gürcüstanda gözlənilmədən yerli ekoloqların boru kəmərinin Borjomi dərəsindən keçən hissəsinin marşrutunun dəyişdirilməsi ilə bağlı etirazları baş qaldırdı və bu məsələnin həlli üçün yerli hökumətlə danışıqlara xeyli vaxt sərf etmək lazım oldu.

Gecikməyə səbəb olan digər amil isə neftin boruya daxil edilməzdən əvvəl boru kəmərinin hər bir hissəsinin bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün öncədən nəzərdə tutulan, amma gözlənildiyindən daha uzun sürən ciddi sınaqların aparılması idi. Bu amili isə onunla izah edirdilər ki, boru kəmərinin 40 il ərzində modernizə edilmədən səmərəli və təhlükəsiz şəraitdə istismarına əminlik öz təsdiqini tapsın.

"BTC Co." şirkəti (operator BP) Azərbaycan və Gürcüstan ərazisində boru kəmərinin tikintisinin bütün aspektlərini, habelə boru kəmərinin və siyirtmələrin tikintisinə cavabdeh olan əsas podratçı qismində "Consolidated Contractors International Company" (CCIC)

şirkətini və yerüstü qurğuların tikintisinə cavabdeh olan "Spie-Capag Petrofac Joint Venture" birgə müəssisəsini birbaşa idarə edirdi. Türkiyədəki tikinti işlərini "açar təslimi" müqaviləsi əsasında Türkiyənin dövlət şirkəti olan BOTAŞ həyata keçirməli idi.

Tikinti işlərinə başlamazdan öncə borunun istismara verilənədək kapital xərcləri 3,6 milyard dollar məbləğində təxmin edilirdi. Bununla belə, tikinti zamanı xərclər artdı və yekun qiymətləndirmə 4 milyard dollardan bir qədər artıq oldu. Bu artım onunla əlaqədar idi ki, materialların qiyməti podratçılara tikinti dövründə gözləniləndən daha yüksək xərclər hesabına başa gəldi, eləcə də boru kəmərinin Türkiyə və Gürcüstan hissələrindəki gecikmələr xərcləri stimullaşdıran amil rolunda çıxış etdi. Qeyd etmək lazımdır ki, borunun real qiyməti, əslində, daha çoxdur, çünki bu qiymət yalnız tikinti işlərinin xərcidir, maliyyə xərcləri və bank faizlərinin ödənilməsi buraya daxil deyil. Boru kəmərinin neftlə doldurulması üçün lazım olan əlavə 600 milyon dollar da bu rəqəmlərə daxil deyil.

Bakı-Tbilisi-Ceyhan üç ölkəni əhatə edən, 1768 km uzunluqda olan mürəkkəb layihədir. Buna görə də onun maliyyələşdirilməsinin həlli yollarının tapılması 2001-ci ilin iyulundan başlayaraq 2004-cü ilin fevralına qədər davam edən bir dövrü əhatə etdi. 2001-ci ilin iyulunda BP şirkəti Böyük Britaniyanın investisiya bankı "Lazard Brothers"i maliyyə məsləhətçisi təyin etdi ki, boru kəmərinin maliyyələşdirilməsi üçün optimal maliyyə strukturu yarada bilsin. Bundan əlavə, ABŞ-nin "Sullivan & Cromwell" hüquq şirkəti bu layihəyə maliyyələşdirmə strukturunun hüquqi məsələləri üzrə məsləhətçi qismində cəlb olundu.

Layihənin maliyyələşdirilməsi müxtəlif maraqları olan bir çox iştirakçıların iştirak etdiyi mürəkkəb əməliyyatlardan ibarət idi. Layihənin maliyyəsi ilə əlaqəli risklərin bölüşdürülməsinin mürəkkəbliyi o demək idi ki, inkişaf etməkdə olan ölkələr risklərin bölüşdürülməsini qəbul etmək üçün nadir hallarda qeyri-məhdud maliyyə imkanlarına malik olur və buna görə də öz mövqelərini etibarlı aktivlər və ya gələcəkdə yaranacaq ödəniş imkanları ilə gücləndirməlidir. Buna görə də onların BTC kimi mürəkkəb və kapitalyönümlü layihələri "maliyyələşdirilə bilən" hala gətirmək üçün bəzi riskləri qəbul etməyə institusional baxımdan hazırlıqlı olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və ixrac kredit agentlikləri (ECA) kimi çoxtərəfli maliyyə institutlarını cəlb etməyə ehtiyacı yaranır.

"BTC Co." şirkəti 2002-ci ilin sonuna qədər layihənin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul etməyi planlaşdırsa da, BP

həmin ilin dekabrında danışıqların mürəkkəbliyi səbəbindən boru kəməri üçün maliyyə mənbələri tapılmasının altı ay gecikdiriləcəyini elan etdi və buna səbəb kimi beynəlxalq kreditorlarla aparılan danışıqların mürəkkəbliyini vurğuladı. Nəticədə uzunsürən danışıqlardan sonra IFC və Avropa Yenidənqurma və İnkişaf Bankı boru kəmərinin maliyyələşdirilməsi üçün vəsait ayrılmasını yalnız 2003-cü ilin noyabrında təsdiqlədi.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin maliyyələşdirilməsi üzrə yekun maliyyə paketini isə 2004-cü ilin fevralında imzalamaq mümkün oldu. Yekun maliyyə paketi özündə 78 müxtəlif maraqlı tərəfin 17 mindən çox imzası ilə 208 maliyyə sənədini əks etdirirdi.[20]

Bunun nəticəsində boru kəməri üçün maliyyələşdirmə tədbirlərinin həyata keçirilməsində əsas mexanizmi yaratmaq mümkün oldu. BTC xərclərinin 30 faizi şirkətlərin özlərinin ödəmələri (1,01 milyard dolları) hesabına maliyyələşdirilirdi. Qalan 70 faiz üçüncü tərəfin çoxşaxəli maliyyə ayırmaları hesabına təmin edilirdi:

- inkişaf bankları;
- ixrac kredit agentlikləri;
- yeddi müxtəlif ölkədən siyasi risk sığortaçıları;
- 15 kommersiya bankından ibarət sindikat.

Qeyd edək ki, BTC üzrə yekun maliyyə paketi imzalanmamışdan öncə Azərbaycanın dövlət başçısı sərəncam verərək hökumət adından maliyyə qurumları və şirkətlərlə sənədlərin imzalanması səlahiyyətini baş nazirin müavini Abid Şərifova həvalə etmişdi.

## Səngəçal neft terminalının genişləndirilməsi

Səngəçal terminalı Azərbaycanın neft-qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biridir. Terminal Xəzər hövzəsində BP tərəfindən işlədilən bütün mövcud dəniz yataqlarından hasil edilən xam nefti və qazı qəbul etmək, texnoloji emaldan keçirmək, saxlamaq, ixrac etmək üçün nəzərdə tutulub və onun genişləndirilmək imkanı var.

Terminala neft və qazı texnoloji emal edən qurğular, Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin birinci nasos stansiyası, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) kompressor stansiyası və digər qurğular daxildir.



Səngəçal terminalı genişləndiriləndən sonra Xəzər hövzəsinin ən böyük neft-qaz qovşağıdır

| | |
|---|---|
| **Sahəsi:** | 688 hektar |
| **Yerləşdiyi ərazi:** | Bakıdan 55 km cənubda, Qaradağ rayonu |
| **Texnoloji emal gücü:** | gün ərzində 1,2 milyon barel neft və 81 milyon kubmetr "Şahdəniz" qazı |
| **Maksimum tutumu:** | təxminən 4 milyon barel |
| **İşlək tutumu:** | təxminən 3,2 milyon barel |

Dənizdəki qurğulardan terminala səkkiz müxtəlif boru kəməri daxil olur və terminaldan da səkkiz boru kəməri çıxır. Onlar müxtəlif marşrutlara istiqamətlənməklə yüksək keyfiyyətli Azərbaycan xam neftini və qazını dünya bazarlarına nəql edir. Bundan əlavə, terminal Qazaxıstan və Türkmənistandan daxil olan üçüncü tərəfə aid nefti də qəbul edir.

Terminal iki əsas hissədən ibarətdir: "İlkin neft layihəsi" (İNL) və "Səngəçal terminalının genişləndirilməsi proqramı" (STGP).

Terminalın İNL hissəsi Xəzərdəki "Çıraq" dəniz yatağından hasil olunan nefti texnoloji emaldan keçirmək, anbarlarda toplamaq və ixrac etmək üçün 1996-1997-ci illərdə inşa edilib. İNL terminalında hər birinin tutumu 25 500 barel olan 4 ədəd xam neft saxlama çəni var və terminal ildə 6 milyon tondan artıq xam nefti texnoloji emaldan keçirə, anbarlarda saxlaya və ixrac edə bilir.

### Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar aşağıda göstərilən sənədlərin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin:

- Azərbaycan Respublikası Hökuməti, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti və Sitibank, N.A. arasında Azərbaycan Təminat Sazişi;
- Azərbaycan Respublikası Hökuməti, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Maliyyə B.V. və Sitibank, N.A. arasında Hüquq və Vəzifələrin Ötürülməsi haqqında Bildiriş; Hökumət Öhdəlikləri;
- Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Əks-Zaminlər qismində BP İnterneşnl Limited, Statoyl BTC Kaspian AS, Yunion Oyl Kompani of Kaliforniya arasında Əks-Zəmanətlərin Təqdim Edilməsi haqqında Saziş.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 yanvar 2004-cü il

"Səngəçal terminalının genişləndirilməsi proqramı" terminalın bir hissəsidir və o, "Azəri-Çıraq-Günəşli" blokunun "Azəri" və "Dərinsulu Günəşli" hissələrindən hasil olunan nefti və "Şahdəniz" yatağından hasil edilən qazı qəbul etmək, anbarlarda saxlamaq və texnoloji emaldan keçirmək üçün genişləndirilib.

"Azəri" və "Günəşli" yataqlarının istismara verilməsi ilə başlanması gözlənilən böyük neft hasilatı terminalın genişləndirilməsinə zərurət yaradırdı. Bu məqsədlə 2002-ci il fevralın 20-də "Səngəçal terminalının genişləndirilməsi proqramı"nın icrasına başlanıldı.

Təməlqoyma mərasimi zamanı torpağa basdırılan "Zaman kapsulu"nda bu sözlər yazılmışdı: "İndi başladığımız bu layihə Azərbaycanın Şərq-Qərb dəhlizində aparıcı rolunun təsdiqlənməsinə əsas verəcək, onun beynəlxalq nüfuzunu gücləndirəcəkdir... Biz ümidvarıq ki, üç ildən sonra Səngəçal neftin və qazın nəqli üzrə bir neçə nəhəng boru kəmərini birləşdirən, enerjidaşıyıcılarının nəqli sisteminin dünyamiqyaslı regional mərkəzi və Xəzərlə dünya bazarı arasında körpü olan bir obyektə çevriləcək".

Gələcək nəsillərə ünvanlanmış ümid dolu bu fikirlər cəmi bir neçə ilə reallığa çevrildi. 2002-ci ilin iyul ayında Səngəçal terminalının genişləndirilməsi layihəsinin bir hissəsi olan "İlkin mülki tikinti işləri" tamamlandı. Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi layihələrinə sanksiya veriləndən sonra obyektdə aparılan işlər "Səngəçal terminalının genişləndirilməsi proqramı" (STGP) adını almışdı. Terminalın genişləndirilməsi proqramının əsas podratçısı qismində Azərbaycan-Türkiyə alyansı olan "Azfen-Tekfen" çıxış edirdi. Səngəçalda yalnız BTC-nin baş nasos stansiyasını "Spi Kapaq-Petrofak" (Fransa-ABŞ) birgə müəssisəsi tikib. "Səngəçal terminalının genişləndirilməsi proqramı" 2007-ci ildə uğurla tamamlandı.

Terminalda hər birinin tutumu 880 min barel olan 3 xam neft çəni də daxil olmaqla bir sıra qurğular var. Səngəçal terminalında eləcə də BTC boru kəməri üçün çox mühüm iki qurğu var: əsas nasos stansiyası və dispetçer otağı. Dispetçer otağı bütün boru kəmərinə nəzarət edir, problemləri aşkara çıxara və hər üç ölkədə boru kəmərinin lazımi hissələrini təcrid edə bilir və ya fövqəladə halda qurğunun işini dayandırır.

Terminalın operatoru BP şirkətidir. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir. Terminal 2022-ci ildə 232 milyon bareldən çox neft və kondensat, o cümlədən 225 milyon

bareli Bakı-Tbilisi-Ceyhan kəməri, təxminən 7 milyon bareli isə Qərb İxrac Boru Kəməri marşrutu vasitəsilə ixrac edib.

Qaz terminaldan, əsasən, Cənubi Qafqaz Boru Kəməri (CQBK), Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG) sistemi və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur.

## Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tam istismara verilməsi

2006-cı il iyulun 13-də Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixracı boru kəmərinin Türkiyə hissəsinin, Ceyhandakı yeni dəniz ixrac terminalının və bütövlüklə BTC ixrac boru kəməri sisteminin rəsmi açılış mərasimi keçirildi.

Türkiyə hökuməti tərəfindən keçirilən bu tədbirdə zati-aliləri: Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstanın Prezidenti Mixail Saakaşvili və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, eləcə də buraya təşrif buyurmuş yüksəkvəzifəli hökumət və dövlət rəsmiləri, BTC-nin səhmdar şirkətlərinin baş icraçı direktorları və işgüzar dairələrin nümayəndələri iştirak edirdilər.

BTC-nin əməliyyatçısı olan BP qrupunun Prezidenti Lord Braun Ceyhandakı rəsmi açılış mərasimi iştirakçılarına müraciətlə dedi: "Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istismara verilməsi neft sənayesinin zəngin tarixində mühüm bir mərhələdir. Bu, Xəzərdəki iri neft həcmlərini bir əsr ərzində ilk dəfə yenidən bir araya gətirir və dünya bazarına çıxarır. Bu məqama yetməyə imkan yaradanların hamısına BP adından təşəkkürlərimizi bildirmək istərdim.

Layihədə bilavasitə iştirak edən üç ölkənin: Azərbaycanın, Gürcüstanın və Türkiyənin, eləcə də bir çox digər ölkələrin minlərlə misilsiz insanlarına, işçi qüvvəsi üzvlərinə, yerli icmaların sakinlərinə, şirkətlərə, hökumətlərə, beynəlxalq təşkilatlara, tərəfdaşlarımıza və əlbəttə, öz işçilərimizə əvəzedilməz dəstək və iştiraka görə minnətdarlıq etmək istərdim. BTC XXI əsrin ilk nəhəng mühəndis layihəsidir".

BP-nin Azərbaycandakı təmsilçi prezidenti Deyvid Vudvord çıxışında bildirdi: "Bütövlükdə bu onu əks etdirir ki, minlərlə insanın

12 ildən artıq bir müddətdə göstərdikləri səylər vasitəsilə çoxlarının "qeyri-mümkün" hesab etdikləri bir layihəni biz gerçəkliyə çevirə bilmişik. Lord Braunun layihədə iştirak edənlərin hamısına: tranzit ölkə hökumətlərinə, tərəfdaşlarımıza, kreditorlara, podratçılara, BP-nin işçi heyətinə və Azərbaycan, Gürcüstan, Türkiyə xalqlarına göstərdikləri ciddi səylərə, əməkdaşlığa və dəstəyə görə etdiyi təşəkkürə mən də qoşulmaq istərdim".

Mərasimdə bildirildi ki, BTC ixrac sisteminin 1076 kilometr uzunluğunda Türkiyə hissəsinə dörd nasos stansiyası, iki ölçmə stansiyası və Ceyhan dəniz neft ixracı terminalı daxildir. Bu terminalın özü də hər biri bir milyon barel xam neft tutan yeddi çəndən və eyni vaxtda 300 000 dedveyt tonluq iki tankeri neftlə doldurmaq imkanına malik iki kilometr yarım uzunluğunda yanalma körpüsündən ibarətdir.

Səngəçal terminalında BTC kəmərinin başlanğıc nöqtəsi



Boru kəmərinin doldurulması üçün ümumilikdə 10 milyon barel neft tələb olunurdu və bu neft Xəzər dənizinin Azərbaycan sektorundakı AÇG yataqlarından təmin olunub. Həmin neft boru kəmərinə 2005-cı ilin mayında Bakı yaxınlığındakı Səngəçal terminalından vurulmağa başlanıb və 2006-cı il mayın 28-də Ceyhan terminalına çatıb. BTC boru kəməri ilə Səngəçal terminalından Ceyhana qədər Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə 1768 kilometr məsafə qət etmiş bu neftlə yüklənmiş ilk tanker iyunun 4-də Aralıq dənizinin Türkiyə sahilindən yola salınıb. Mərasimdə qeyd edildi ki, o vaxtdan bəri Ceyhandan ümumilikdə 4,8 milyon barel həcmində yeddi tanker AÇG nefti yola salınıb. İlkin mərhələ ərzində boru kəmərinin ötürücülüyü dəyişkən olacaq, lakin indiyədək gündə 400 min bareldən artıq olub və bu rəqəm 2008-ci ilədək gündə bir milyon barelə qədər artacaq. İlk dövrdə bu kəmərlə neft AÇG yataqlarından gətiriləcək və gələcəkdə Xəzərin o tayından gələn neft daxil olmaqla digər həcmlərin də BTC vasitəsilə nəql olunacağı gözlənilir.

Ceyhan terminalından BTC kəməri ilə nəql edilən neftin tankerə vurulması



V FƏSİL

# BTC-nin İSTİSMAR DÖVRÜ

## Ceyhandan yola salınan ilk tanker

Azərbaycan nefti ilə dolu olan ilk tanker artıq bazar günü – 2006-cı il iyunun 4-də Ceyhan limanından yola düşüb. Bu barədə "BOTAŞ BTC" şirkətinin layihə direktorunun müavini Gökmen Çeloğlu xəbər verib.

Neftin "The British Hawtharne" şirkəti üçün yüklənməsi iyunun 2-dən başlayıb. Azərbaycan neftinin ilk partiyasını Ceyhan terminalından daşıyacaq tanker Böyük Britaniyanın "Catoni" gəmiçilik agentliyinin mülkiyyətindədir.

Bildirilib ki, neftin yüklənmə prosesi xüsusi olaraq quraşdırılmış boru kəmərləri vasitəsilə qapalı rejimdə həyata keçirilib, nəticədə 85 min ton və ya 600 min barel neftlə yüklənmiş "British Hawthorn" tanker İtaliyanın Savona limanına istiqamət götürüb. Həmçinin qeyd olunub ki, Heydər Əliyev adına terminaldakı 7 çənə 150 min ton neftin yüklənməsi planlaşdırılıb.

## BTC ilə 100 milyonuncu barel neftin ixracı

2007-ci il avqustun 5-də BTC ilə göndərilmiş 100 milyonuncu barel xam neft Türkiyədə Ceyhan terminalından gəmiyə yüklənib. BP-nin məlumatına görə, bu hadisə BTC-nin maksimum ötürücülük gücünə çatmasında mühüm addımdır.

Bu boru kəməri ilə neft ixracının hazırkı səviyyəsi gözlənildiyindən daha yüksəkdir və 2008-ci ilin sonlarınadək gündə bir milyon barel (ildə təqribən 50 milyon ton) neft ötürmək planına uyğundur.

100 milyonuncu barel neft "Siprins" adlanan tankerə yüklənib. "Siprins" gəmisi Ceyhandan yola salınan 130-cu gəmidir. O, İtaliyaya yola düşüb.

BTC-nin baş icraçı direktoru və BP-nin qurudakı istismar əməliyyatları üzrə vitse-prezidenti Rəşid Cavanşir bununla bağlı bildirirdi: "Bu, mühüm bir hadisədir və onu sübut edir ki, BTC qətiyyətlə öz qarşısına qoyduğu məqsədə – Xəzərdən dünya bazarlarına gündə bir milyon barel neft ixrac edən boru kəməri olmağa doğru irəliləyir. Artıq mart ayında nail olduğumuz gündəlik 750 min barel neft həcminin ötürülməsi ilə biz bu məqsədə doğru inamlı irəliləyiş edirik. Mən bu uğurların əldə olunmasında əməyi olanların hamısını bu münasibətlə təbrik edir və onların hər birinə təşəkkür edirəm".

## BTC ilə 500 milyonuncu ton neftin ixracı

2021-ci ilin sonlarında BTC neft ixrac boru kəməri ilə Səngəçal terminalından Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Ceyhan terminalına ümumilikdə 500 milyon ton neft nəql edilib.

BP şirkətinin açıqlamasına görə, BTC vasitəsilə nəql edilmiş Xəzər neftinin 500 milyonuncu tonu 2021-ci il dekabrın 12-də SOCAR-ın nefti yüklənmiş "Nordorse" adlı və sayca 4922-ci olan tankerə yüklənərək Triestə (İtaliya) yola salınıb.

BP şirkətinin bununla əlaqədar yaydığı press-relizdə qeyd olunurdu ki, BTC boru kəməri istismara veriləndən bəri müstəsna səmərəlilik nümayiş etdirib və texniki təhlükəsizlik və istismar baxımından yüksək göstəricilərə nail olub. Onun səmərəliliyi və istismar etibarlılığı ilk dövrlərdəki 75%-dən artaraq hazırkı 99,9% səviyyəsinə çatıb.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "500 milyon ton neft ixracı BTC boru kəmərinin 15 illik sabit və səmərəli fəaliyyətinin nəticəsidir. Uzun müddət keçməsinə baxmayaraq, BTC qapalı Xəzər hövzəsi ilə dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında birbaşa strateji əlaqə yaratmaqla regionun əsas enerji ixrac arteriyası olmaqda davam edir. BTC-nin inşası özlüyündə nəhəng mühəndislik nailiyyətidir. Bu boru kəməri öz sabit, təhlükəsiz, etibarlı və məsuliyyətli əməliyyatları ilə istismar səmərəliliyinin və dünya səviyyəli fəaliyyətin də gözəl nümunəsidir. Biz hamımız BTC-nin uğur hekayəsi ilə, o cümlədən üç ölkə boyunca insanların və icmaların həyatına gətirdiyi böyük müsbət dəyişikliklərlə qürur duymalıyıq. BTC, həqiqətən də, hər mənada möhtəşəm bir ixrac sistemidir və onun

əldə etdiyi nailiyyətlər bizdə qürur hissi oyadır. Bu dünya səviyyəli kəmərin üç ölkə boyunca gecə-gündüz təhlükəsiz və sakit fəaliyyət göstərməsi üçün çalışan bütün insanlara çox təşəkkür edirəm. Mən göstərdikləri dəstəyə və uğurlu əməkdaşlığa görə BTC-nin səhmdarlarına da öz minnətdarlığımı bildirirəm".

## BTC ilə Ceyhana çatdırılan neft ildə neçə tankerə yüklənir?

2022-ci il ərzində Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə ixrac olunmuş təqribən 30 milyon ton (təxminən 224 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 305 tankerə yüklənib və yola salınıb.[21]

2021-ci ildə Ceyhan terminalından dünya bazarlarına 280 tanker, 2020-ci ildə isə 278 tanker yüklənərək yola salınıb.

BTC hazırda gündəlik olaraq 1,2 milyon barel neft nəql etmək gücündədir



2010-cu il iyulun 21-də BTC ilə 1 milyon 57 000 barel xam neft nəql edilməklə özünün indiyədək ən yüksək gündəlik ötürmə gücünə nail olub. Hazırda BTC boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

2022-ci il martın 23-də BTC boru kəmərinin Səngəçal terminalından Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Ceyhan terminalına ixrac olunmuş neftin yüklənildiyi 5000-ci tanker yola salınıb.

2022-ci il ərzində BTC üzrə əməliyyat xərclərinə təxminən 100 milyon dollar, əsaslı xərclərə isə 27 milyon dollar vəsait xərclənib.

BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara veriləndən 2022-ci ilin sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 531 milyon tondan çox (3,99 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5244 tankerə yüklənərək dünya bazarlarına çıxarılıb. 2023-cü il yanvarın 18-də isə BTC ilə 4 milyard barel neftin ixracı qeydə alınıb.

VI FƏSİL

# BTC İLƏ DAŞINAN TRANZİT NEFTİ

## Xəzəryanı ölkələrin BTC ilə neft daşımaları

Azərbaycanın əsas ixrac neft kəməri hələ layihə şəklində olduğu zaman digər ölkələr onun imkanlarından gələcəkdə yararlanmağa meyil göstərirdi. Bu ölkələr Azərbaycanın Xəzərlə su qonşuları olan Qazaxıstan və Türkmənistan idi.

Onların bu istəkləri də anlaşılan idi. Çünki enerji resursları ilə zəngin olan respublikalar müstəqillik əldə edəndən sonra əsas diqqətlərini, əsasən, neft və qazın satışına yönəltmişdi ki, iqtisadi vəziyyətlərini tədricən yaxşılaşdıra bilsinlər. Xəzərin o tayındakı ölkələrin hamısının isə bir problemi var: dünya bazarına çıxışları məhduddur və daim bu imkanları əldə etmək yolları arayırlar. Çünki Xəzər hövzəsi qapalı məkandır və dünya okeanı ilə birbaşa əlaqəsi yoxdur.

Bu baxımdan da hələ XX əsrin 90-cı illərində Qazaxıstanla Türkmənistanın Azərbaycanın əsas ixrac boru kəməri layihəsinə dəstək verməsi heç də təəccüblü bir məsələ deyildi. 1999-cu il noyabrın 18-də İstanbulda "Çırağan" sarayında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Saziş"in imzalanması mərasimində Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Türkmənistan Prezidenti Saparmurad Niyazov da iştirak etmişdilər.

Azərbaycan Ceyhandan dünya bazarlarına özünün ilk tankerini 2006-cı il iyunun 4-də yola saldıqdan cəmi 12 gün sonra Qazaxıstan və Azərbaycan prezidentləri neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisindən

Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə beynəlxalq bazarlara nəqlinin asanlaşdırılması və dəstəklənməsi haqqında saziş imzaladılar. Müqavilənin məqsədi Qazaxıstan neftinin Xəzər sahilindəki Kurık terminalından Bakıya daşınmasını təmin etmək, daha sonra onun BTC marşrutu üzrə Şərq-Qərb enerji dəhlizi vasitəsilə Aralıq dənizinə nəqlinə şərait yaratmaq idi. Trans-Xəzər sistemi ilkin mərhələdə 5 milyon ton neftin tankerlərlə nəqlini, sonradan bu həcmin borularla ildə 38 milyon tona çatdırılmasını təmin etməli idi.

Qazaxıstan və Azərbaycan ərazisindəki terminallardan, tankerlərdən və Bakı-Tbilisi-Ceyhan sisteminə birləşdirən qurğulardan və Eskene-Kurık neft boru kəmərindən ibarət Trans-Xəzər sistemi vahid nəqliyyat dəhlizinə – Qazaxıstan Xəzər Nəqliyyat Sisteminə çevrilməsini nəzərdə tuturdu.

Bəli, planlar çox böyük və genişmiqyaslı idi. Sonralar bu deyilənlərin az bir hissəsi yerinə yetirilsə də, Bakı-Tbilisi-Ceyhan boru xətti ilə tranzit nefti kimi axan məhz Qazaxıstan nefti oldu. 2008-ci ilin sonlarında ABŞ-nin “Chevron”[22] şirkəti operatoru olduğu Qazaxıstanın “Tengiz” yatağında hasil etdiyi neftin bir hissəsini tankerlərlə Bakıya çatdırır, daha sonra onu Səngəçal terminalına ötürür, nəhayət, Ceyhanda təhvil alırdı. Amma Qazaxıstan neftinin tranziti çox çəkmədi, heç 1 il müddətində də davam etmədi, çünki 2009-cu ildə dünya bazarlarında neft qiymətlərinin xeyli ucuzlaşması səbəbindən neftin əvvəlcə dəmir yolu ilə Qazaxıstan sahilindəki terminala, sonra tankerlə Bakıya və buradan boru kəməri ilə Ceyhana, nəhayət, bir daha tankerə yükləyərək alıcıya çatdırılması xərcləri xeyli artırırdı. Buna görə də Qazaxıstandan olan yükgöndərənlər BTC ilə daşımaları müvəqqəti olaraq dayandırdılar.

Amma 2010-cu ilin iyulunda BTC-nin imkanlarından Türkmənistanda olan xarici neft istehsalçıları (“Petronas” və “Dragon Oil”) yararlanmağa başladılar. Türkmənistan neftinin tranziti həcmlər stabil olmasa da, davamlı olaraq indiyə qədər davam edir.

2013-cü ilin noyabr ayından isə Qazaxıstan yenidən Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə tranzit həcmlərin göndərilməsini bərpa etdi və bir ay ərzində 243,7 min ton neft nəql etdi. Qazaxıstanın BTC-dən istifadə etməsi davamlı xarakter daşımasa da, onlar bu istiqaməti son 15 ildə faktiki olaraq unutmurlar. 2023-cü ilin martında BTC üzərindən bərpa edilən daşımalar aydan-aya artır və 2023-cü ildə bu həcmlərin 1,5 milyon ton təşkil edəcəyi proqnozlaşdırılır.

Qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Rusiya nefti də dünya bazarlarına çıxarılır. Bu, Rusiyanın özəl neft şirkəti "LUKoil"un Xəzərin Rusiya sektorundakı iki yataqdan hasil etdiyi neftin bir hissəsini 2016-cı ildən başlayaraq müntəzəm şəkildə Azərbaycanın əsas ixrac boru kəməri vasitəsilə dünya bazarlarına daşıması istəyindən doğub. Ancaq 2022-ci il dekabrın 5-dən Qərbin Rusiya neftinə qarşı tətbiq etdiyi sanksiyalarla əlaqədar "BTC Co." şirkətinin Qərb səhmdarları Rusiya şirkəti ilə neft daşımaları müqaviləsini dayandırmaq qərarına gəldilər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi özünün aylıq, rüblük və illik hesabatlarında BTC ilə nə qədər tranzit neftinin daşınmasına dair məlumatlar yayır. Bu məlumatlar ümumidir, yəni ayırd etmək olmur ki, Azərbaycanın əsas ixrac boru kəməri ilə hansı ölkə nə qədər "qara qızıl" göndərib.

Amma Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il noyabrın 30-da Türkiyə-Yunanıstan sərhədində yerləşən İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində çıxış edərkən bu haqda maraqlı məlumatlar açıqlamışdı: "Bu günə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə

Qazaxıstan Xəzər Nəqliyyat Sisteminin BTC-yə qoşularaq yeni ixrac istiqaməti yaradılması hələ 2006-cı ildən düşünülüb



Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini - 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistan, 12 milyon tonunu Qazaxıstan, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni, bir sözlə, Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir”.

## Qazaxıstan neftinin BTC ilə daşınmasına dair qanunun təsdiqi

“Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında” Müqavilənin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. “Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında” 2006-cı il iyunun 16-da Almatı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.
2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 oktyabr 2006-cı il

## Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında

# MÜQAVİLƏ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Qazaxıstan Respublikası,

"neftin Azərbaycan Respublikası ərazisi ilə beynəlxalq bazarlara göndərilməsi məqsədilə Xəzər dənizinin Qazaxıstan sahilindəki neft yükləmə-boşaltma terminallarından Xəzər dənizinin Azərbaycan sahilindəki neft yükləmə-boşaltma terminalları vasitəsilə Bakı-Tbilisi-Ceyhan sisteminədək (BTC) nəql edilməsi üçün Trans-Xəzər sisteminin yaradılmasına şərait yaratmağı arzu edərək,

Trans-Xəzər sisteminin məqsədinin neftin beynəlxalq bazarlara nəql olunmasından ibarət olduğuna və Qazaxıstan Respublikasında hasil olunan neftin beynəlxalq bazarlara ixrac olunması üçün BTC sisteminin Azərbaycan Respublikasının ərazisindən keçən əsas marşrut olduğuna diqqət yetirərək,

BTC sisteminin və Trans-Xəzər sisteminin iki ayrı sistem olduğunu və birlikdə enerjidaşıyıcılarının nəqli üçün vahid dəhliz təşkil etdiklərini və neftin Qazaxıstan Respublikasından beynəlxalq bazarlara nəqlinə şərait yaradılmasına imkan verəcəklərini nəzərə alaraq,

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında Müqavilənin (bundan sonra – bu Müqavilə) müddəalarının Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası ərazilərindən nəql olunmasına dair imzalanmış 18 noyabr 1999-cu il tarixli

Sazişin müddəalarına təsir göstərmədiyini nəzərə alaraq, enerjidaşıyıcılarının fasiləsiz nəqlində istifadə olunacaq vahid dəhlizin beynəlxalq standartlara uyğun olmasını arzu edərək, 29 oktyabr 1998-ci il tarixində imzalanmış Ankara Bəyannaməsinin və 18 noyabr 1999-cu il tarixində imzalanmış İstanbul Bəyannaməsinin şərtlərini qəbul edərək, aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Bu Müqavilədə istifadə olunan anlayışlar:

**"BTC Sistemi"** – Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının ərazilərindən nəql olunmasına dair imzalanmış 18 noyabr 1999-cu il tarixli Sazişin mətnində "Nəqletmə sistemi" kimi müəyyənləşdirilən boru kəməri (o cümlədən köməkçi qurğu və avadanlıqlar);

**"Energetika Xartiyası Müqaviləsi"** – Tərəflərin ratifikasiya etdikləri dəyişiklik və əlavələr nəzərə alınmaqla 17 dekabr 1994-cü il tarixində imzalanmış Energetika Xartiyası Müqaviləsi və ona əlavə olan, bu Müqavilənin imzalandığı tarixdə Tərəflər üçün məcburi qüvvəsi olan protokollar;

**"Xarici valyuta"** – bu Müqavilənin Tərəfi olmayan dövlətin sərbəst dönərli valyutası, eləcə də beynəlxalq pul vahidləri;

**"Saziş"** – bir tərəfdən Tərəfin hökuməti, digər tərəfdən isə bundan sonra "Layihə İnvestorları" adlandırılacaq bir və ya bir neçə şəxs arasında bağlanmış və onun iştirakçılarının Trans-Xəzər Layihəsi üzrə hüquqlarını, öhdəliklərini və Trans-Xəzər Layihəsinin həyata keçirilməsi şərtlərini müəyyən edən saziş;

**"Dəniz Daşıyıcısı"** – neftin Tərəflərin bayraqları altında olan Tankerlər vasitəsilə Qazaxıstan Respublikasının sahilindəki terminal(lar)dan Xəzər dənizi üzərindən Azərbaycan Respublikasının sahilindəki terminal(lar)a Trans-Xəzər Sistemi çərçivəsində daşınmasını həyata keçirmək üçün Tərəflərin hökumətlərinin birgə səlahiyyət verdikləri şəxs;

**"Birgə Komitə"** – bu Müqavilənin 10-cu maddəsiylə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək üçün Tərəflərin hökumətlərinin yaratdıqları komitə;

**"Şəxs"** – hər hansı fiziki və ya hüquqi şəxs, o cümlədən mülkiyyət formasından asılı olmayaraq, korporasiya, ortaqlıq, birgə müəssisə və ya digər təsisat və ya təşkilat;

**"Neft"** – maye şəklində olan hər hansı karbohidrogenlər, o cümlədən xam neft və təbii qaz kondensatı;

**"Layihə İnvestoru"** – sazişlər əsasında Trans-Xəzər Layihəsinin fərdi şəkildə və ya digər şəxslərlə birlikdə investoru olan hər hansı Şəxs;

**"Layihə Gəmisi"** – tanker olmayan, Trans-Xəzər Layihəsi çərçivəsində dəniz və ya liman yedək əməliyyatlarında, həmçinin digər işlərdə istifadə olunan, hər hansı Tərəfin bayrağı altında olan, özü hərəkət edən və ya özü hərəkət etməyən üzən vasitə;

**"Tanker"** – neftin Trans-Xəzər Sistemi çərçivəsində nəql edilməsi üçün Dəniz Daşıyıcısının qanuni əsaslarla sahibi olduğu və ya istifadə etdiyi və Tərəflərin hər hansı birinin bayrağı altında olan üzən vasitə;

**"Trans-Xəzər Nəqletmə İnfrastrukturu"** – obyektlərinin tam siyahısı və tərkibi müvafiq Sazişlərdə müəyyən olunacaq Xəzər dənizinin Qazaxıstan sahilində yerləşən neft yükləmə-boşaltma terminalları, Tankerlər, Layihə Gəmiləri, Xəzər dənizinin Azərbaycan sahilindəki neft yükləmə-boşaltma terminalları və BTC sisteminə qoşulma qurğuları;

**"Trans-Xəzər Layihəsi"** – Trans-Xəzər Nəqletmə İnfrastrukturunun layihələndirilməsi, tikintisi və istismarı üzrə görülən işlər və xidmətlər;

**"Trans-Xəzər Sistemi"** – Trans-Xəzər Nəqletmə İnfrastrukturundan istifadə etməklə Qazaxıstan Respublikasında hasil olunmuş Nefti beynəlxalq bazarlara nəql etmək üçün nəzərdə tutulan sistem.

## Maddə 2

Tərəflər Neftin Trans-Xəzər Sistemiylə nəql olunmasına şərait yaradılması və bu Müqavilənin və Sazişlərin şərtlərinə uyğun olaraq, Trans-Xəzər Layihəsinin həyata keçirilməsinin dəstəklənməsi üçün bütün lazımi səyləri göstərirlər.

## Maddə 3

**3.1.** Layihə İnvestorunun Trans-Xəzər Nəqletmə İnfrastrukturuna dair hüquq və öhdəlikləri Sazişlərlə müəyyənləşdirilir.

**3.2.** Heç bir Tərəf Trans-Xəzər Nəqletmə İnfrastrukturu vasitəsilə nəql olunan Neftlə mülkiyyət hüququna iddia etmir.

## Maddə 4

**4.1.** Energetika Xartiyası Müqaviləsində müəyyən edilmiş hallar istisna olmaqla heç bir Tərəf Layihə İnvestorunun Trans-Xəzər Layihəsi çərçivəsində istifadə etdiyi hər hansı əmlakı (və ya onun hissəsi) ekspropriasiya (birbaşa və ya dolayı yolla) etmir, bu əmlakın rekvizisiyasını və ya milliləşdirilməsini həyata keçirmir (eyni nəticəyə gətirən və ya buna imkan verən hər hansı tədbirlər də daxil olmaqla).

**4.2.** Tərəflər aşağıdakı hallar istisna olmaqla Neftin Trans-Xəzər Nəqletmə İnfrastrukturu vasitəsilə nəql olunmasını dayandırmır və ya bu nəqlə mane olmur:

**4.2.1.** Müvafiq Sazişlə nəzərdə tutulan hallarda;

**4.2.2.** Trans-Xəzər Nəqletmə İnfrastrukturunun istismarı Tərəfin milli təhlükəsizliyinə, ətraf mühitə, əhalinin sağlamlığına və ya Şəxslərin əmlakına təhlükə yaratdıqda;

**4.2.3.** Trans-Xəzər Nəqletmə İnfrastrukturu Neftin nəqli ilə bağlı işlər üzrə təhlükəsizlik qaydalarını pozmaqla istismar edildikdə.

**4.3.** Əgər Tərəflərdən biri bu Müqavilənin 4.2-ci bəndində göstərilən hallar istisna olmaqla Neftin Trans-Xəzər Nəqletmə İnfrastrukturu vasitəsilə nəqlini dayandıran və ya bu nəqlə mane olan hər hansı tədbir görərsə, bu Tərəf Trans-Xəzər Sistemi üzrə nəqlin ağlabatan müddətdə bərpa edilməsinə şərait yaradacaqdır.

**4.4.** Hər bir Tərəf öz dövlətinin milli təhlükəsizliyi, əhalinin sağlamlığı, Şəxslərin əmlakı, işlərin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi ilə bağlı maraqlarının qorunması şərtilə:

**4.4.1.** onun suverenliyi və/və ya yurisdiksiyası altındakı ərazi daxilində torpağa və suya Trans-Xəzər Layihəsinin

həyata keçirilməsi üçün hər bir Layihə İnvestoruna lazım olan bütün hüquqları öz milli qanunvericiliyinə uyğun olaraq, razılaşdırılmış şəffaf kommersiya şərtləriylə verir.

**4.4.2.** tələb olunduqda torpaq və suya giriş və onlardan istifadə hüquqlarının hər hansı Şəxslərdən əldə edilməsini və ya onlar tərəfindən təqdim olunmasını təmin etmək üçün ağlabatan səylər göstərir.

**4.5.** Hər bir Tərəf Trans-Xəzər Nəqletmə İnfrastrukturunun bir hissəsini təşkil edən və ya Trans-Xəzər Layihəsi çərçivəsində istifadə olunan Tankerlər və Layihə Gəmilərinə, belə Tankerlər və Layihə Gəmilərinin milli təhlükəsizlik və/və ya ətraf mühit üçün təhlükə yaratdığı hallar istisna olmaqla:

**4.5.1.** zəruri keçid hüququnu verir;

**4.5.2.** gəmiçilik azadlığı verir;

**4.5.3.** liman və terminallara diskriminasiyasız əsaslarla giriş hüququ verir;

**4.5.4.** hər hansı icbari liman haqlarını, gömrük rüsumlarını və digər oxşar icbari ödənişləri müəyyənləşdirərkən ədalətliliyi, şəffaflığı və qeyri-diskriminasiyalılığı və onların tətbiqində əsassız ləngitmələrə yol verilməməsini təmin edir;

**4.5.5.** lövbər atma, yükləmə və yükboşaltma əməliyyatları üzrə bütün lazımi inzibati prosedurların icrasının vaxtında və səmərəli yerinə yetirilməsində, dəniz ticarət və nəqletmə terminallarına tətbiq olunan beynəlxalq standartlardan istifadə olunmasına şərait yaradır.

**4.6.** Tərəflər Trans-Xəzər Layihəsi çərçivəsində ən yaxşı beynəlxalq təcrübəyə uyğun olan vahid standartların tətbiq edilməsi məqsədilə əməkdaşlıq edirlər.

## Maddə 5

**5.1.** Hər bir Tərəf milli təhlükəsizlik maraqlarının təmin edilməsi şərtilə öz milli qanunvericiliyində müəyyən olunmuş prosedurlara uyğun olaraq, hər bir Layihə İnvestoruna aşağıdakı hüquqları verir:

**5.1.1.** Xarici valyutanın transsərhəd köçürmələrini və ödənişlərini aparmaq;

**5.1.2.** Xarici valyutanı cari bazar məzənnəsinə uyğun mübadilə etmək;

**5.1.3.** Tərəflərin banklarında Xarici Valyuta üzrə bank hesabları açmaq, istifadə etmək və saxlamaq.

## Maddə 6

**6.1.** Tərəflər Trans-Xəzər Layihəsinə maliyyələşmənin cəlb olunmasında Layihə İnvestoruna şərait yaradırlar.

**6.2.** Layihə İnvestoru Sazişi bağladığı Tərəfin hökumətiylə razılaşdırmaqla Trans-Xəzər Nəqletmə İnfrastrukturunda hüquqlarından, mülkiyyətindən və iştirak payından girov təminatı kimi istifadə etmək hüququna malikdir.

**6.3.** Tərəflərin hökumətləri Trans-Xəzər Layihəsi üzrə hər hansı kreditora və ya sığortaçıya icazə verir ki, Layihə İnvestoru onlar qarşısında öz öhdəliklərini yerinə yetirmədikdə bu kreditor və ya sığortaçı Saziş bağlamaqla Layihəyə daxil olsun və Layihə İnvestorunun öhdəliklərini öz üzərinə götürsün.

## Maddə 7

**7.1.** Bu Müqavilə çərçivəsindəki fəaliyyətin vergiyə cəlb edilməsi Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

**7.2.** Tərəfin milli qanunvericiliyinə, bu Müqavilə çərçivəsində Layihə İnvestorlarının vergiyə cəlb olunması şərtlərinin pisləşməsinə gətirib çıxaran düzəlişlər edildiyi təqdirdə Layihə İnvestorlarının vergiyə cəlb edilməsi bu Müqavilənin imzalandığı tarixdə Tərəfin qüvvədə olan milli qanunvericiliyinə uyğun həyata keçirilir.

## Maddə 8

Ehtimal olunan Layihə İnvestoru və/və ya onun təklifləri Tərəfin milli təhlükəsizliyinə və ya əhalinin sağlamlığına, Şəxslərin əmlakına, habelə ətraf mühitə təhlükə yaratdığı təqdirdə belə Tərəf

onunla Saziş bağlamaqdan və ya onun Sazişə qoşulmasından imtina etmək hüququna malikdir.

## Maddə 9

Trans-Xəzər Nəqletmə İnfrastrukturu bu Müqavilənin müddəalarına xələl gətirmədən Neftin digər nəqletmə marşrutları ilə nəql olunması üçün qismən istifadə oluna bilər. Hər hansı anlaşılmazlıqların qarşısının alınması məqsədilə Neftin Trans-Xəzər Sistemindən kənar nəqli bu Müqavilənin şərtləri ilə əhatə olunmur.

## Maddə 10

**10.1.** Bir Tərəfin yazılı xahişi ilə digər Tərəf ona bu Müqavilə və Saziş üzrə öhdəliklərin yerinə yetirilməsinə dair məlumat təqdim edir.

**10.2.** Tərəflərin hökumətləri aşağıdakı məqsədlərlə hər Tərəfin hökumətinin nümayəndələrindən ibarət olan Birgə Komitə yaradırlar:

- **10.2.1.** Bu Müqavilənin icrasının müşahidə edilməsi və onun həyata keçirilməsinə şərait yaradılması;
- **10.2.2.** Bu Müqavilə və ya Trans-Xəzər Layihəsi ilə əlaqədar yarana bilən hər hansı məsələlərin müzakirə edilməsi və onların həlli üçün səylərin göstərilməsi.

**10.3.** Bir Tərəfin hökuməti ağlabatan müddətdə, lakin, hər halda, bu Müqavilə 12-ci maddədə qeyd edilən qaydada qüvvəyə mindikdən sonra otuz (30) gündən gec olmayaraq öz nümayəndələri barədə digər Tərəfin hökumətinə məlumat verir.

**10.4.** Tərəflərin nümayəndələri Birgə Komitə tərəfindən müəyyənləşdirilmiş prosedurlara uyğun olaraq dəyişdirilə bilərlər.

**10.5.** Tərəflər razılaşırlar ki, Birgə Komitənin iclasına Layihə İnvestorunun nümayəndələri dəvət oluna bilərlər.

**10.6.** Birgə Komitənin iş qaydasını Tərəflərin hökumətləri müəyyən edir.

**10.7.** Birgə Komitə öz iclaslarını ildə ən azı iki dəfə keçirir.

## Maddə 11

**11.1.** Bu Müqavilənin tətbiqi və ya təfsiri ilə əlaqədar fikir ayrılığı yarandığı halda Tərəflər onu danışıqlar yolu ilə həll edirlər.

**11.2.** Tərəflərin hökumətləri və Layihə İnvestoru arasındakı mübahisələr müvafiq Sazişlə müəyyən edilmiş qaydada həll edilir.

## Maddə 12

**12.1.** Bu Müqavilə onun ratifikasiyası haqqında verilmiş sonuncu yazılı bildiriş tarixindən etibarən qüvvəyə minir.

**12.2.** Bu Müqavilə bütün Sazişlərə xitam verilməsi və ya onların qüvvədə olma müddətinin bitməsi ilə və bu Müqavilə və həm də Sazişlər üzrə bütün öhdəliklər yerinə yetirildikdən sonra öz qüvvəsini itirir.

Bu Müqavilə 2006-cı il iyunun 16-da Almatı şəhərində bütün mətnlər eyni qüvvəyə malik olmaqla, hər biri iki əsl nüsxədə olan Azərbaycan, qazax, rus və ingilis dillərində tərtib edilmişdir.

Bu Müqavilənin müddəaları təfsir edilərkən fikir ayrılığı yaranarsa, rus dilindəki mətndən istifadə edilir.

**2007-ci il noyabrın 13-də Bakı şəhərində imzalanmış "Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsi, Cənubi Qafqaz Boru Kəməri layihəsi, Qərb İxrac Boru Kəməri, Şimal İxrac Boru Kəməri və hamısı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqları, "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsi, "Şahdəniz" yatağı ilə əlaqədar qurğular və Səngəçal terminalında yerləşən müvafiq sahil qurğuları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi zamanı təhlükəsizlik və insan hüquqları prinsiplərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Hökuməti və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında Protokol"un təsdiq edilməsi barədə**

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

1. 2007-ci il noyabrın 13-də Bakı şəhərində imzalanmış "Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsi, Cənubi Qafqaz Boru Kəməri layihəsi, Qərb İxrac Boru Kəməri, Şimal İxrac Boru Kəməri və hamısı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqları, "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsi, "Şahdəniz" yatağı ilə əlaqədar qurğular və Səngəçal terminalında yerləşən müvafiq sahil qurğuları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi zamanı təhlükəsizlik və insan hüquqları prinsiplərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Hökuməti və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında Protokol" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə BP Eksploreyşn (Kaspian Si) Limited Şirkətini xəbərdar etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 may 2008-ci il

**Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsi, Cənubi Qafqaz Boru Kəməri layihəsi, Qərb İxrac Boru Kəməri, Şimal İxrac Boru Kəməri və hamısı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqları, "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsi, "Şahdəniz" yatağı ilə əlaqədar qurğular və Səngəçal terminalında yerləşən müvafiq sahil qurğuları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi zamanı təhlükəsizlik və insan hüquqları prinsiplərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Hökuməti və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında**

# PROTOKOL

Azərbaycan Respublikasının Hökuməti ("Hökumət") və BP Eksploreyşn (Kaspian Si) Limited ("BP" və ya "Əməliyyat Şirkəti"), bundan sonra Hökumət ilə birlikdə "Tərəflər" və ayrılıqda "Tərəf" adlanacaq;

nəzərə alaraq ki:

- Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsini (BTC) təşviq və təşkil etmək məqsədilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin hökumətləri arasında 1999-cu il 18 noyabr tarixində Hökumətlərarası Saziş ("BTC üzrə HAS"), 2000-ci ilin oktyabr ayında isə Tranzit Əraziyə Malik Ölkə Hökumətləri ilə müvafiq Sazişlər ("BTC üzrə TƏMÖHS-lər") imzalanmışdır. Cənubi Qafqaz Boru Kəməri layihəsini (CQBK) təşviq və təşkil etmək məqsədilə 2001-ci il 29 sentyabr tarixində Azərbaycan Respublikası və Gürcüstan arasında Hökumətlərarası Saziş ("CQBK üzrə HAS"), 2002-ci ilin mart ayında isə Tranzit Əraziyə Malik Ölkə Hökumətləri ilə müvafiq Sazişlər ("CQBK üzrə TƏMÖHS-lər") imzalanmışdır. Qərb İxrac Boru Kəmərinin (QİBK) inkişaf etdirilməsi və yenilənməsi məqsədilə Azərbaycan Respublikası və Gürcüstan arasında 1996-cı il 8 mart tarixində Hökumətlərarası Saziş ("QİBK üzrə HAS") imzalanmışdır. Dənizdə yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin işlənməsi, QİBK-nin və Şimal İxrac Boru Kəmərinin (ŞİBK) təmir

edilməsi məqsədilə Azərbaycan Respublikasının Hökuməti 1994-cü il 24 sentyabr tarixində "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin işlənilməsi üzrə Hasilatın Pay Bölgüsü Sazişini ("AÇG üzrə HPBS") imzalamışdır. Dənizdə yerləşən "Şahdəniz" yatağının işlənilməsi məqsədilə Azərbaycan Hökuməti 1996-cı il 4 iyun tarixində "Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişini ("Şahdəniz üzrə HPBS") imzalamışdır və bu sazişlərin hər birində beynəlxalq hüquqa riayət olunması və Hökumət tərəfindən təhlükəsizliyin təmin edilməsinə dair mahiyyət etibarilə bir-birinə bənzər müəyyən öhdəliklər əks olunmuşdur (birlikdə "Layihə Sənədləri");

- BTC və CQBK Layihələri, o cümlədən QİBK ilə əlaqədar Hökumət tərəfindən təhlükəsizliyin təmin edilməsi ilə bağlı mövcud əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi, xüsusilə də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Birləşmiş Millətlər Təşkilatının Hüquq-Mühafizə Orqanları Əməkdaşlarının Davranış Məcəlləsində, Hüquq-Mühafizə Orqanlarının Əməkdaşları tərəfindən Güc və Odlu Silahdan İstifadəyə dair Birləşmiş Millətlər Təşkilatının əsas Prinsipləri və Təhlükəsizlik üzrə Könüllülük Prinsiplərində ("Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər") öz əksini tapmış, beynəlxalq müstəvidə qəbul edilmiş və mütəmadi olaraq təkmilləşən insan hüquqları prinsipləri də daxil olmaqla insan hüquqları üzrə qanunvericiliyə və müvafiq olaraq hər bir ölkənin qanunvericiliyində öz əksini tapmış prinsiplərə hörmət və riayət olunmasının daha da gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında imzalanmış Terrorizm, Mütəşəkkil Cinayətkarlıq və Digər Ağır Cinayətlərə Qarşı Mübarizə haqqında 2002-ci il 30 aprel tarixli Sazişin ("Trabzon Sazişi") müddəalarına uyğun olaraq, 2003-cü il 23 iyul tarixində Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Şərq-Qərb Enerji Dəhlizində Təhlükəsizliyin Təmin Edilməsi haqqında Protokol ("Hökumət tərəfindən təhlükəsizliyin təmin edilməsinə dair Protokol") imzalanmışdır;

- Azərbaycan Respublikasına məlumdur ki, dəniz və transsərhəd zonalarını əhatə etməklə özəl sektor tərəfindən həyata keçirilən və respublikanın geniş infrastruktura malik ərazisində və yaxud respublika ərazisindən keçməklə karbohidrogen resurslarının hasilatını və daşınmasını nəzərdə tutan iri işlənmə layihələri ilə bağlı təhlükəsizlik məsələləri yüksək həssaslıq tələb edir və buna görə də dənizdə yerləşən "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin işlənməsi ("AÇG"), dənizdə yerləşən "Şahdəniz" yatağı, Bakı-Tbilisi-Ceyhan ("BTC") və Cənubi Qafqaz Boru Kəməri ("CQBK") Layihələri, habelə Qərb İxrac Boru Kəməri ("QİBK") və Şimal İxrac Boru Kəməri ("ŞİBK") ilə əlaqədar yarana biləcək təhlükələrə qarşı müvafiq və mütənasib təhlükəsizliyin təmin olunması və bu zaman Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərə riayət olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 15 aprel tarixli 685 nömrəli Fərmanı ilə neft və qaz ixrac boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi üzrə komissiya ("BTK") yaradılmışdır;
- BP AÇG və "Şahdəniz" dəniz layihələrinin, Səngəçal qəsəbəsində yerləşən əlaqədar terminalın, BTC və CQBK Layihələrinin, QİBK və ŞİBK-nin Əməliyyat Şirkətidir və BTK vasitəsilə Hökumət tərəfindən BTC və CQBK Layihələri, QİBK və ŞİBK üzrə təhlükəsizliyin təmin edilməsi, habelə BTC Ko., CQBK Ko., ABƏŞ və BP Eksploreyşn ("Şahdəniz") Ltd. ilə bağlanmış ayrı-ayrı müqavilələr əsasında Əməliyyat Şirkəti tərəfindən istifadə olunan müxtəlif AÇG, "Şahdəniz", BTC, CQBK, QİBK və ŞİBK obyektlərində özəl silahsız təhlükəsizlik xidmətlərinin təmin olunması üçün BTK ilə birgə çalışmaq arzusundadır;
- Tərəflər məxfiliyin qorunmasının zəruriliyini nəzərə almaqla Hökumət tərəfindən təhlükəsizliyin təmin olunması ilə bağlı öhdəliklərinin icrasında şəffaflığa, məlumat və təcrübə mübadiləsinə ehtiyacın olduğunu birlikdə təsdiqləyirlər;
- Tərəflər Hökumət tərəfindən təmin olunan, əlverişli və münasib təhlükəsizlik tədbirlərinin icrasını nəzərdə tutan təhlükəsizlik sisteminin yaradılması və tətbiq edilməsi üçün

Azərbaycan Respublikası tərəfindən götürülən öhdəliyin yerinə yetirilməsində Azərbaycan Respublikası ilə əməkdaşlıq etmək və Azərbaycan Respublikasına kömək göstərmək, habelə özlərinin təhlükəsizlik və insan hüquqları ilə bağlı müvafiq öhdəliklərinə ardıcıl surətdə riayət edilməsinə şərait yaratmaq üçün müvafiq monitorinq tədbirlərini əlaqələndirmək istəyində olduqlarını bildirirlər; və

- Tərəflər yuxarıda qeyd edilən Layihə Sənədlərində təhlükəsizliyin təmin edilməsi üzrə insan hüquqları ilə bağlı öhdəlik olaraq nəzərdə tutulmuş standartları, o cümlədən təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərdə öz əksini tapmış standartları həyata keçirmək və bu standartların işlək olmasını təmin etmək arzusundadırlar.

Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

## I FƏSİL ANLAYIŞLAR

**Maddə 1. Bu Protokolun məqsədləri üçün:**

**1.1.** "Hökumət tərəfindən təmin olunan təhlükəsizlik" dedikdə BTC və CQBK üzrə HAS-lar, BTC və CQBK üzrə TƏMÖHS-lər, QİBK üzrə HAS, AÇG və "Şahdəniz" üzrə HPBS-lər, Trabzon Sazişi və Hökumət Tərəfindən Təmin Olunan Təhlükəsizlik haqqında Protokolda təfsilatı ilə qeyd olunduğu kimi, Dövlətlərin layihə ilə bağlı məsuliyyət daşıdığı təhlükəsizlik aspektləri nəzərdə tutulur.

**1.2.** "Dövlət Təhlükəsizlik Xidməti Orqanları" dedikdə Hökumət tərəfindən təmin edilən təhlükəsizliyin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları, o cümlədən BTK nəzərdə tutulur.

**1.3.** "Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizlik" dedikdə Əməliyyat Şirkəti ilə BTC və CQBK Layihələri, QİBK, ŞİBK və Səngəçal qəsəbəsindəki əlaqədar terminal arasında bağlanmış müxtəlif sazişlərə uyğun olaraq, qeyd olunanların istismarı və ya idarə edilməsi məqsədilə Əməliyyat Şirkətinin layihə çərçivəsində birbaşa və ya üçüncü tərəflər ilə bağladığı müqavilələr vasitəsilə dolayı şəkildə həyata

keçirə biləcəyi təhlükəsizlik məsələləri nəzərdə tutulur, lakin bir şərtlə ki, Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizlik onun Azərbaycan Respublikasının ərazisində əməliyyat və idarəetmə sazişlərinə müvafiq olaraq istismar etdiyi müxtəlif layihə obyektlərinin və binalarının perimetri boyu çəkilmiş hasarın daxili ilə məhdudlaşacaqdır.

**1.4.** "Əməliyyat Şirkəti" dedikdə BP Eksploreyşn (Kaspian Si) Limited nəzərdə tutulur.

**1.5.** "Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər" bu Protokolun ayrılmaz tərkib hissəsini təşkil edir və Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyində əksini tapmış prinsipləri, habelə ABŞ Dövlət Departamentinin və Böyük Britaniyanın Xarici İşlər və Birlik Ölkələri ilə Münasibətlər İdarəsinin Təhlükəsizlik və İnsan Hüquqları üzrə Könüllü Prinsiplərini, Birləşmiş Millətlər Təşkilatının Hüquq-Mühafizə Orqanları Əməkdaşlarının Davranış Məcəlləsini, Hüquq-Mühafizə Orqanlarının Əməkdaşları Tərəfindən Güc və Odlu Silahdan İstifadəyə dair Birləşmiş Millətlər Təşkilatının Əsas Prinsiplərini, Ümumdünya İnsan Hüquqları Bəyannaməsini və İnsan Hüquqları üzrə Avropa Konvensiyasında sadalanan şərtləri ehtiva edir.

**1.6.** "Qüvvəyəminmə tarixi" dedikdə bu sənədin 12.3-cü bəndində əks edilmiş prosedurlara müvafiq olaraq, bu Protokolun hüquqi baxımdan qüvvəyə mindiyi tarix nəzərdə tutulur.

**1.7.** Bu sənədin mətnində xüsusi olaraq tərifi verilməmiş bütün ifadələr BTC, CQBK və QİBK üzrə HAS-larda, habelə AÇG və "Şahdəniz" üzrə HPBS-lərdə onlar üçün müəyyən edilmiş mənaları bildirir.

## II FƏSİL HÖKUMƏT TƏRƏFİNDƏN TƏMİN OLUNAN TƏHLÜKƏSİZLİK

### Maddə 2. Təhlükəsizliyin təmin edilməsi

**2.1.** Hökumət razılaşır ki, o, Hökumət tərəfindən təmin olunan təhlükəsizliklə əlaqədar bütün tədbirləri təhlükəsizlik və

insan hüquqları üzrə prinsiplərə, qüvvədə olan müvafiq milli qanunvericiliyə və beynəlxalq hüquqa, o cümlədən Azərbaycan Respublikasının tərəf olduğu insan hüquqları ilə bağlı beynəlxalq konvensiya və sazişlərə müvafiq şəkildə, eləcə də yerli şəraiti nəzərə almaqla həyata keçirəcək və belə tədbirlərin digər dövlət orqan və qurumları tərəfindən də görülməsini təmin edəcəkdir.

**2.2.** Hökumət bu Protokolda və BTC, CQBK və QİBK üzrə müvafiq HAS-lar və TƏMÖHS-lərdə, AÇG və "Şahdəniz" üzrə HPBS-lərdə, Trabzon Sazişində, Hökumət tərəfindən təmin olunan təhlükəsizlik haqqında Protokolda və digər müvafiq Layihə Sənədlərində nəzərdə tutulmuş öhdəliklərini icra edərkən müvafiq yerli orqanlarla əməkdaşlıq etməyə və Hökumət tərəfindən təmin olunan təhlükəsizlik məsələləri barədə bu orqanlarla məsləhətləşmələr apararaq, onları da aidiyyəti olan məsələlərə cəlb etməyə çalışacaqdır.

## Maddə 3. Güc və odlu silah tətbiq edilməsinə dair qaydalar

**3.1.** Hökumət:

**(i)** Dövlət Təhlükəsizlik Xidməti Orqanlarının əməkdaşları tərəfindən gücün yalnız ciddi ehtiyac duyulan hallarda, münasib təhlükəyə uyğun dərəcədə, milli qanunvericilik müddəalarına, Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərdə öz əksini tapmış xüsusi təlimatlara uyğun şəkildə tətbiq olunmasını təmin etmək məqsədilə bütün müvafiq tədbirləri görməyə; və

**(ii)** lazım gələrsə, təhlükəsizlik orqanlarına cəlb edilmiş əməkdaşları özünümüdafiə vasitələri və hərəkəti məhdudlaşdıran, lakin ölüm saçmayan silah növləri ilə təchiz etməyə razı olduğunu bildirir.

**3.2.** Eyni zamanda Hökumət razılıq verir ki, o, Dövlət Təhlükəsizlik Xidməti Orqanları tərəfindən təmin olunan təhlükəsizliklə əlaqədar güc tətbiq edildiyi hallarda, qanunu pozan şəxslər də daxil olmaqla xəsarət almış şəxslərə tibbi yardım göstərəcəkdir.

### Maddə 4. Təhlükəsizlik xidməti əməkdaşlarının işə götürülməsi üzrə qaydalar

**4.1.** Hökumət insan hüquqlarının pozulmasında və ya cinayət əməllərində iştirak etməsi etibarlı dəlillər əsasında sübuta yetirilmiş, yaxud əvvəllər cinayət məsuliyyətinə cəlb olunmuş və təqsirli bilinmiş şəxslərin ixrac boru kəmərinin və digər əlaqədar məntəqələrin təhlükəsizliyini təmin edən Dövlət Təhlükəsizlik Xidməti Orqanlarına cəlb olunmasını təmin etmək məqsədilə milli qanunvericiliyə, o cümlədən Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərdə və Layihə Sənədlərində öz əksini tapmış standartlara uyğun lazımi tədbirləri həyata keçirməyə razılıq verir.

**4.2.** Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərə və Layihə Sənədlərinə uyğun olaraq, Əməliyyat Şirkəti təhlükəsizliyi özünün birbaşa təmin etdiyi halda:

(i) təhlükəsizlik xidməti əməkdaşlarının müvafiq qaydada yoxlanılmasını təşkil etməyə;

(ii) təhlükəsizlik xidməti əməkdaşlarının yoxlanılmaları nəticəsində Dövlət Təhlükəsizlik Xidməti Orqanlarının verdikləri tövsiyələri nəzərə almağa;

(iii) etibarlı sübutlar əsasında, insan hüquqlarının pozulmasında və ya cinayət əməllərində iştirak etməsi sübuta yetirilmiş şəxsləri təhlükəsizlik xidmətlərinin göstərilməsi prosesinə cəlb etməməyə; və

(iv) təhlükəsizlik xidmətləri göstərəcək şəxsləri Azərbaycan Respublikasının vətəndaşları arasından seçməyə razılıq verir.

### Maddə 5. Təhlükəsizlik xidməti əməkdaşları üçün təlim

**5.1.** Hökumət təsdiq edir ki, Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşlarının işə qəbulu və onlar üçün təlim keçilməsi Azərbaycan Respublikası Hökumətinin vəzifəsidir və Hökumət bu vəzifəni yerinə yetirərkən Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərlə uzlaşan və Dövlət Təhlükəsizlik Xidməti Orqanlarının əsas bacarıq və qabiliyyətlərini müəyyən edən standartlar sistemini ("Təhlükəsizlik

Standartları") işləyib-hazırlamalı və müntəzəm vaxt kəsiklərində bu bacarıq və qabiliyyətlərin obyektiv şəkildə qiymətləndirilməsinə şərait yaratmalıdır.

**5.2.** Hökumət razılaşır ki, o, təhlükəsizliyin Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərə və yerli şəraitə uyğun təmin edilməsi məqsədilə Dövlət Təhlükəsizlik Xidməti Orqanlarında çalışacaq əməkdaşların seçilməsini və onlara təlim keçilməsini müvafiq qaydada aparmaq üçün tələb olunan bütün zəruri tədbirləri həyata keçirəcəkdir.

**5.3.** Hökumət razılaşır ki, Təhlükəsizlik Standartlarında əks olunmuş əsas tələblərə cavab verməyən Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşlarının sözügedən standartlara cavab verdikləri təsdiq edilməyənə qədər onlar öz vəzifələri üzrə işlərə cəlb olunmayacaqlar.

## Maddə 6. Bəyanat və zəmanətlər

**6.1.** Hökumət bununla bəyan edir və zəmanət verir ki, qüvvəyəminmə tarixi üçün bu Protokolda ifadə olunan öhdəliklər Azərbaycan Respublikasının milli qanunvericiliyinə müvafiqdir və bu Protokolun imzalanması və bu Protokolda öz əksini tapmış öhdəliklərin icrası zamanı görülən tədbirlər bu qanunvericiliyin pozulması halını təşkil etməyəcək və buna səbəb olmayacaqdır.

**6.2.** Hökumət bununla bəyan edir və zəmanət verir ki, o bu Protokola zidd ola bilən, ona xələl gətirə və ya müdaxilə edə bilən, yaxud bu Protokolun icrası ilə əlaqədar Hökumətin imkanlarını məhdudlaşdıra bilən hər hansı yerli və ya beynəlxalq sazişə və ya öhdəliyə tərəf deyil, yaxud bu kimi yerli qanun və ya qaydalara, beynəlxalq müqavilələrə və ya sazişlərə əməl etmək, yaxud onları icra etmək üçün hüquqi öhdəlik daşımır.

**6.3.** Hökumət bu Protokolda öz əksini tapmış öhdəliklərin etibarlı olduğunu bəyan edir və həmin öhdəliklərin yerinə yetirilməsinə zəmanət verir.

**6.4.** Hökumət bununla bəyan edir ki, AÇG və "Şahdəniz" Layihələri, Səngəçal qəsəbəsindəki müvafiq terminal, BTC

və CQBK Layihələri, eləcə də QİBK və ŞİBK çərçivəsində Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirmək məqsədilə Əməliyyat Şirkəti tərəfindən hər hansı Dövlət Təşkilatı cəlb olunduğu təqdirdə, müqavilədən irəli gələn öhdəlik müddəaları istənilən halda (Layihə Sənədlərinə uyğun olaraq) Əməliyyat Şirkəti ilə Dövlət Təşkilatı arasındakı əlaqələrin mahiyyətini müəyyənləşdirir. Anlaşılmazlığın aradan qaldırılması üçün müəyyən edilir ki, Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirmək məqsədilə Əməliyyat Şirkətinin cəlb etmiş olduğu hər hansı dövlət təşkilatı Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi onlar arasındakı münasibətləri tənzimləyən müqavilə razılaşmasının şərt və müddəalarına ciddi şəkildə əməl etməklə təmin edəcəkdir.

## III FƏSİL ƏMƏLİYYATÇI VƏ BTK ARASINDA ƏMƏKDAŞLIQ

### Maddə 7. Təhlükəsizlik xidməti əməkdaşlarının təlimi

7.1. Əgər Hökumət münasib bilərsə, o bu sənədin 5-ci maddəsində ifadə edilmiş Hökumət öhdəliklərinin yerinə yetirilməsinə kömək etmək üçün Əməliyyat Şirkəti ilə məsləhətləşmələr apara bilər. Tərəflər anlaşılmazlığın aradan qaldırılması məqsədilə razılaşırlar ki, Hökumət tərəfindən təmin edilən təhlükəsizlik üçün yalnız Hökumət özü məsuliyyət daşıyır və təhlükəsizlik üzrə təlimlərin keçilməsi ilə əlaqədar Əməliyyat Şirkəti heç bir öhdəliyə malik deyildir. Həmçinin Əməliyyat Şirkətinin Hökumət, Dövlət Təhlükəsizlik Xidməti Orqanları, BTK və ya digər Hökumət nümayəndələri ilə qarşılıqlı əlaqələri Əməliyyat Şirkətinin Hökumətin, Dövlət Təhlükəsizlik Xidməti Orqanlarının, BTK-nın və ya Hökumət nümayəndələrinin fəaliyyətinə nəzarət etməsi və ya onların işini istiqamətləndirməsi kimi başa düşülməməlidir.

7.2. Əməliyyat Şirkəti təsdiq edir ki, Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşların qəbulu və onlar üçün təlim keçilməsi Əməliyyat Şirkətinin üzərinə düşən vəzifədir və o, Əməliyyat Şirkəti tərəfindən

təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşların əsas bacarıq və qabiliyyətini müəyyənləşdirən standartlar sistemini, habelə belə bacarıq və qabiliyyətlərin müntəzəm vaxt kəsiklərində ölçülməsi üçün müvafiq yoxlama sistemini yaradacaqdır. Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirərkən yuxarıda qeyd edilmiş standartlara cavab verə bilməyən təhlükəsizlik xidməti əməkdaşları onların sözügedən standartlara cavab verdikləri milli qanunvericiliyə uyğun formada təsdiq edilənə kimi öz vəzifələri üzrə işlərə cəlb olunmayacaqlar.

### Maddə 8. Məsləhətləşmələr

**8.1.** Tərəflər:

- **(i)** Hökumət tərəfindən təhlükəsizliyin təmin olunması;
- **(ii)** Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərə riayət; və
- **(iii)** Hökumət tərəfindən təhlükəsizliyin təmin edilməsindən irəli gələn və insan hüquqları ilə bağlı olan hər hansı məsələ barədə ən azı hər rüb öz aralarında mütəmadi məsləhətləşmələr aparacaqlar.

**8.2.** Tərəflər Hökumət və Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyin yerli əhaliyə faktiki və potensial təsirləri ilə bağlı yerli icma nümayəndələri ilə ən azı hər rüb məsləhətləşmələr aparacaqlar. Bu məsləhətləşmələr zamanı ortaya ciddi məsələlər çıxarsa, Tərəflər öz aralarında danışıqlar aparıb həmin məsələlərin həlli üçün birgə cavab tədbirlərinin tələb olunub-olunmamasını, tələb olunduğu təqdirdə isə belə cavab tədbirlərinin xarakterini müəyyən edəcəklər.

**8.3.** Tərəflər öz aralarında Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizlik, o cümlədən:

- **(i)** Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən təhlükəsizlik xidməti əməkdaşlarının növü və sayı;
- **(ii)** Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən təhlükəsizlik xidməti əməkdaşlarının

keçmiş zamanda cinayət əməllərində və ya insan hüquqlarının pozulmasında müqəssir hesab olunub-olunmadıqları, habelə bu sənədin 7.2-ci maddəsində bəhs olunan bacarıq və qabiliyyətlərin qiymətləndirilməsinə nə dərəcədə riayət edildiyini müəyyən etmək üçün yoxlamaların aparılması; və

**(iii)** Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyin həyata keçirilməsi zamanı ortaya çıxan istənilən etik məsələlər barədə məsləhətləşmələr aparacaqlar.

**8.4.** Tərəflər məxfi saxlanılacaq məlumat növlərini və belə məlumatları üçüncü tərəflərə açıqlaya bilmək üçün tələb olunan şərtləri, o cümlədən Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşların, Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşlarının, Təhlükəsizlik Standartlarında müəyyən olunmuş əsas tələblərə cavab verə bilməyən, nəticədə də operativ fəaliyyətdən müvəqqəti olaraq uzaqlaşdırılan Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşların və Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşlarının attestasiyası ilə əlaqədar məlumatları müəyyənləşdirmək məqsədilə müvafiq prinsip və prosedurlar məcmusunu hazırlayaraq razılaşdıracaqlar.

**8.5.** Tərəflər Əməliyyat Şirkəti və Dövlət Təhlükəsizlik Xidməti Orqanları üçün Əməliyyat Şirkətinin və onun təhlükəsizlik xidməti əməkdaşlarının, müxtəlif obyektlərin və torpaqdan istifadə hüquqlarının təhlükəsizliyi baxımından mümkün təhlükəni aradan qaldırmaq üçün birgə və səmərəli cavab tədbirlərini müəyyənləşdirmək məqsədilə, Layihə Sazişləri və Təhlükəsizlik və İnsan Hüquqları prinsiplərinə müvafiq qaydada bir sıra qaydalar işləyib-hazırlayacaq və təsdiq edəcəklər.

## Maddə 9. İnformasiya mübadiləsi

**9.1.** Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyinə, Layihə Sənədlərinə və Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərdə nəzərdə tutulmuş şərtlərə uyğun olaraq, Tərəflər:

(i) Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşları və ya Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşlar tərəfindən insan hüquqlarının və ya etik davranış qaydalarının pozulması, eləcə də Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşlarının güc tətbiq etmələri ilə bağlı əsaslandırılmış ittihamlar haqqında Dövlətin müvafiq orqanlarına, BTC və CQBK üzrə HAS-lar əsasında yaradılmış İcra Komissiyalarına və Əməliyyat Şirkəti ilə BTK-nın birgə formalaşdırdığı İşçi Qrupuna məlumat verməyə;

(ii) Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşları və ya Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşlar tərəfindən insan hüquqları və ya etik davranış qaydalarının pozulması, o cümlədən Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşlarının insan tələfatına səbəb olmuş güc tətbiqinə dair əsaslandırılmış ittihamları araşdırmağa və bu kimi halların qeydiyyatını aparmağa;

(iii) Dövlət Təhlükəsizlik Xidməti Orqanları əməkdaşları və ya Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşlar tərəfindən insan hüquqları və ya etik davranış qaydalarının pozulmasına yol verildiyi barədə əsaslandırılmış ittihamlarla bağlı məlumat və sənədləri, o cümlədən araşdırma nəticələrini bir-birinə, eləcə də hər bir Layihə Şirkətinin müvafiq nümayəndələrinə və İşçi Qrupuna ötürməyə; və

(iv) məlumatın bu qaydada ictimaiyyətə açıqlanmasının milli qanunvericilik, Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər və ya Layihə Sənədlərinə zidd olduğu, yaxud insanlar və ya əmək üçün ciddi risk törədə biləcəyi hallar istisna olmaqla belə məlumatları məntiqəuyğun şəkildə ictimaiyyətə açıqlamağa razı olduqlarını bildirirlər. Tərəflər daha sonra razılaşırlar ki, təhlükəsizlik sahəsində insan hüquqlarının pozulmasına dair məlumat təqdim etmiş şəxslərin kimliyinin məxfiliyini qorumaq məqsədilə zəruri tədbirlər görəcəklər.

**9.2.** Tərəflər AÇG və "Şahdəniz" Layihələri, BTC və ya CQBK Layihələri, yaxud QİBK və ŞİBK, yaxud onların təmsilçiləri tərəfindən layihənin təhlükəsizliyi ilə bağlı həyata keçirilən risk qiymətləndirilməsi və mübahisələrin təhlil edilməsi prosesləri üçün lazım olan bütün məlumatları vermək və adıçəkilən tədbirlərlə əlaqədar əməkdaşlıq etmək məqsədilə əvvəlcədən razılaşdırılmış qaydalar əsasında məntiqəuyğun tədbirlərdən istifadə etməlidirlər.

### Maddə 10. Öhdəliklərə riayət edilməsinin monitorinqi

**10.1.** Tərəflərin bu Protokoldan irəli gələn öhdəliklərə riayət etmələrini təmin etmək üçün Tərəflər bu Protokolun 11-ci maddəsinə uyğun olaraq, işlənib-hazırlanacaq prosedurlara müvafiq şəkildə tədbirlər görməli və vaxtaşırı monitorinq işlərinin aparılmasında İcra Komissiyası (İcra Komissiyaları), Əməliyyat Şirkəti və Boru Kəmərlərinin Təhlükəsizliyi üzrə Komissiyanın birgə iştirakı ilə yaradılmış İşçi Qrupla əməkdaşlıq etməlidirlər ("Öhdəliklərə riayət edilməsinin monitorinqi"). İcra Komissiyası (İcra Komissiyaları) Öhdəliklərə riayət edilməsinin monitorinqini aparmaq üçün təhlükəsizlik sahəsində səriştəsi olan kənar ekspertlərin köməyindən istifadə edə bilər. Belə öhdəliklərə riayət edilməsinin monitorinqi zamanı toplanmış məlumatların məxfiliyinin qorunması ilə bağlı milli qanunvericiliyə və ya Layihə Sənədlərinə zidd olmayan müddəalar tətbiq oluna bilər. İnsanlar və ya əmlakla bağlı ciddi risk törədəcəyi ağlabatan surətdə ehtimal edilə bilən məlumatlar ictimaiyyətə açıqlanmayacaqdır.

## IV FƏSİL ÜMUMİ MÜDDƏALAR

### Maddə 11. İcra

**11.1.** Tərəflər bu Protokolda nəzərdə tutulmuş şərtlərin tam şəkildə icra olunması üçün bütün zəruri tədbirləri həyata keçirməlidirlər. Bununla hər bir Tərəf digər Tərəf qarşısında zəmanət verir ki, bu Protokolun qüvvəyəminmə tarixi üçün işlərin Protokola uyğun şəkildə icra olunmasına və aparılmasına tam dəstək verilməsi ilə bağlı tələb olunan bütün

zəruri tədbirləri Layihə Sənədləri, Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər və milli qanunvericilik çərçivəsində görəcək və bunu təmin etmək məqsədilə öhdəliklərə riayət edilməsinin monitorinqinin aparılması üçün Layihə Sənədləri, milli qanunvericilik və Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplərə uyğun prosedurların işlənib-hazırlanmasında digər Tərəflə əməkdaşlıq edəcəkdir.

**11.2.** Tərəflər:

**(i)** Dövlət Təhlükəsizlik Xidməti Orqanlarının əməkdaşları və ya Əməliyyat Şirkəti tərəfindən təmin edilən təhlükəsizliyi həyata keçirən əməkdaşlar tərəfindən insan hüquqları və ya etik davranış qaydalarının pozulmasına yol verilməsi ilə bağlı hər hansı əsaslandırılmış ittiham irəli sürüldükdə; və

**(ii)** Hökumət tərəfindən təmin olunan təhlükəsizlik və Əməliyyat Şirkəti tərəfindən təmin olunan təhlükəsizliklə bağlı təlim, dislokasiya, əməli fəaliyyət, fəaliyyətsizlik və ya digər məsələlərlə əlaqədar yarana biləcək hər hansı maneə, məsələ, problem və ya mübahisələri həll etmək üçün Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər və milli qanunvericiliyə uyğun şəkildə müstəqil araşdırmaya başlayacaqlarına razılıq verirlər.

**11.3.** Tərəflər:

**(i)** təbii fəlakət, mülki iğtişaşlar, təxribat və ya digər səbəblərdən baş verib-verməməsindən asılı olmayaraq, milli və ya lokal xarakterli fövqəladə hallarda; və

**(ii)** BTK da daxil olmaqla Dövlət Təhlükəsizlik Xidməti Orqanları və ya Əməliyyat Şirkəti tərəfindən cəlb olunmuş işçi heyətinə qarşı qaldırılıb-qaldırılmamasından asılı olmayaraq, insan hüquqlarının pozulması ilə bağlı ittihamlar irəli sürüldükdə qarşılıqlı şəkildə necə əməkdaşlıq edəcəklərini müəyyən etmək üçün Layihə Sənədləri, Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər, milli qanunvericilik və insan hüquqları üzrə beynəlxalq hüquq normalarına uyğun surətdə, o cümlədən yerli şəraiti nəzərə almaqla icbari xarakter daşıyan prosedurlar məcmusunu işləyib-hazırlayacaqlarına razılıq verirlər.

## Maddə 12. Yekun müddəalar

**12.1.** Təhlükəsizlik və İnsan Hüquqları üzrə Prinsiplər Hökumətin tərəf olduğu beynəlxalq sazişlərə və milli qanunvericiliyə uyğun şəkildə təfsir və tətbiq olunmalıdır.

**12.2.** Bu Protokol ingilis və Azərbaycan dillərində iki nüsxədə imzalanmışdır. Bu Protokolda əks olunmuş hər hansı müddəaların və ya bu Protokola əsasən təqdim edilən hər hansı bildirişlərin müxtəlif dillərdə olan nüsxələri arasında hər hansı ziddiyyət yaranarsa, ingilis dilində yazılmış varianta üstünlük verilməlidir.

**12.3.** Bu Protokol Tərəflər onu imzaladıqdan sonra, Hökumət Əməliyyat Şirkətinə bu Protokolun milli qanunvericiliyə uyğun olaraq təsdiqləndiyini əks etdirən yazılı bildiriş verdiyi tarixdə qüvvəyə minir ("Qüvvəyəminmə tarixi").

**12.4.** Bu Protokol ictimaiyyətə açıqlanmalı, o cümlədən geniş ictimaiyyət üçün açıq olan internet saytında dərc olunmalıdır.

**12.5.** Bu Protokolda əks olunmuş öhdəliklər:

- **(i)** BTC Layihəsi ilə əlaqədar nəzərdə tutulmuş öhdəlik BP-nin BTC Layihəsinin Əməliyyat Şirkəti olduğu müddət ərzində;
- **(ii)** CQBK Layihəsi ilə əlaqədar nəzərdə tutulmuş öhdəlik BP-nin CQBK Layihəsinin Əməliyyat Şirkəti olduğu müddət ərzində;
- **(iii)** AÇG Layihəsi ilə əlaqədar nəzərdə tutulmuş öhdəlik BP-nin AÇG Layihəsi, QİBK, ŞİBK və Səngəçaldakı müvafiq terminal üzrə ABƏŞ-in Əməliyyat Şirkəti olduğu müddət ərzində; və
- **(iv)** "Şahdəniz" Layihəsi ilə əlaqədar nəzərdə tutulmuş öhdəlik BP-nin "Şahdəniz" Layihəsinin Əməliyyat Şirkəti olduğu müddət ərzində qüvvədə qalır.

**12.6.** Bu Protokola hər hansı Tərəfin qarşı Tərəfə altı ay öncədən yazılı bildiriş verməsi ilə xitam verilə bilər.

**12.7.** Bu Protokola hər hansı əlavə, dəyişiklik və ya düzəlişlər yalnız yazılı surətdə tərtib edildikdən və Tərəflərin deyilən əlavə, dəyişiklik və ya düzəlişləri imzalamasından sonra qüvvəyə minir.

**12.8.** Bu Protokol və bu Protokol çərçivəsində müəyyənləşdirilmiş hüquq, öhdəlik və digər müddəalar Hökumətə və BTK da daxil olmaqla Dövlət Təhlükəsizlik Xidməti Orqanlarına, o cümlədən bütün digər dövlət qurumlarına münasibətdə mütləq qüvvə daşıyır və Tərəflərə, onların hamısında və ya hər hansı birində təşkilat, nəzarət, mahiyyət və ya hüquqi qüvvə nöqteyi-nəzərindən baş verən istənilən dəyişiklik nəzərə alınmadan, habelə BTK-nın və ya hər hansı digər rəsmi dövlət orqanlarının ləğvi, yenidən təşkil olunması, birləşməsi və ya (tam və ya müəyyən həcmdə özəlləşdirmə də daxil olmaqla) bunların fəaliyyəti, sahibliyi və ya hüquqi mövcudluğu ilə bağlı hər hansı digər dəyişikliklərə varmadan tətbiq edilir.

**12.9.** Bu Protokolun tətbiqi və təfsiri ilə əlaqədar hər hansı mübahisəli məsələ yarandığı təqdirdə Tərəflər onu özlərinin bütün mümkün səylərindən istifadə etməklə, danışıqlar və məsləhətləşmələr vasitəsilə həll etməyə çalışacaqlar. Mübahisəli məsələ haqqında hər hansı bir Tərəfin verdiyi ilk xəbərdarlığından sonra Tərəflər 60 (altmış) gün ərzində ümumi razılıq əldə edə bilməzlərsə, onda hər hansı Tərəf bu Protokola mutadis mutandis şamil olunan BTC üzrə HAS-ın VIII maddəsində və CQBK üzrə HAS-ın VIII maddəsində mübahisələrin həlli ilə bağlı verilmiş prosedurlara müvafiq olaraq, bu kimi mübahisəni həll edilmək üçün arbitraj araşdırmasına təqdim edə bilər.

**12.10.** Bu Protokol heç bir mənada Hökumətin BTC üzrə HAS, CQBK üzrə HAS, BTC üzrə TƏMÖHS-lər, CQBK üzrə TƏMÖHS-lər, QİBK üzrə HAS, AÇG üzrə HPBS, "Şahdəniz" üzrə HPBS və ya Trabzon Sazişi çərçivəsində malik olduğu hüquqlara və ya götürdüyü öhdəliklərə əlavələr və dəyişikliklər etmir, onlardan imtina edilməsinə, onların ləğvinə və ya onlara ziyan vurulmasına səbəb olmur. Bu sənəddə qeyd edildiyi kimi, Hökumət təhlükəsizliyin təmin edilməsi üçün tam məsuliyyət daşıyır və bu Protokol Hökumətin, Dövlət Təhlükəsizlik Xidməti Orqanlarının, o cümlədən BTK-nın və Hökumət nümayəndələrinin fəaliyyətinin istiqamətləndirilməsində və ya bu fəaliyyətlərə nəzarət edilməsində Əməliyyat Şirkətinə hər hansı hüquq və öhdəliklər təqdim edən bir tərzdə təfsir edilmir.

Bu Protokol Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə olmaqla 2007-ci il 13 noyabr tarixində Bakı şəhərində imzalanmışdır.

Azərbaycan Respublikası Hökuməti adından

**Abid Şərifov**
Azərbaycan Respublikası Baş nazirinin müavini

BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti adından

**Bill Şreder**
BP Azərbaycan, Prezident

# YEKUN

Azərbaycanın strateji obyekt kimi dəyərləndirdiyi Bakı-Tbilisi-Ceyhan boru kəməri qapalı Xəzər hövzəsi ilə bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqədir. BTC tikinti mərhələsindən başlayaraq, regiona mühüm mənfəətlər gətirərək müsbət dəyişikliklər yaradıb.

1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in Zirvə toplantısının gedişində İstanbulun "Çırağan" sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı. Sazişin altında H.Əliyev, E.Şevardnadze və S.Dəmirəlin imzaları var.

Bakı-Tbilisi-Ceyhan layihəsini dəstəkləmək, Qazaxıstan və Türkmənistan neftini bu layihəyə cəlb etmək üçün ABŞ-nin şahidliyi ilə Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistan arasında İstanbul Bəyannaməsi imzalandı. Bəyannaməni prezidentlər H.Əliyev, S.Dəmirəl, B.Klinton E.Şevardnadze, N.Nazarbayev və S.Niyazov imzaladılar.

Bu prosesin məntiqi davamı kimi 2002-ci il sentyabrın 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin təməlqoyma mərasimi keçirildi. Mərasimdə üç dövlət başçısı: Azərbaycan Prezidenti H.Əliyev, Gürcüstan Prezidenti E.Şevardnadze və Türkiyə Prezidenti Ə.N.Sezər və ABŞ-nin Xəzər məsələləri üzrə nümayəndəsi S.Mənn iştirak ediblər. Bununla da Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın ən mühüm uğuru olan Bakı-Tbilisi-Ceyhan reallığa çevrilmiş oldu.

BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. 2006-cı il iyulun 13-də

Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Bakı-Tbilisi-Ceyhan istiqamətinin seçilməsi Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Bu kəmər nəinki Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan yaratdı, sonrakı illərdə həmçinin İpək yolunun və enerji ilə zəngin türkdilli dövlətlərin də ixrac magistral kəməri kimi gündəmə gəldi. Türkmənistan və Qazaxıstanda hasil edilən neftin bir hissəsi dünya bazarına məhz BTC vasitəsilə çıxarılır. Regionda enerji ixracının başlıca arteriyası hesab olunan bu boru kəməri Xəzər dənizinin zəngin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayıb və oynamaqda davam edir.

Eyni zamanda boru kəmərinin Bosfor və Dardanel boğazlarından yan keçməsi tranzit ölkələr üçün mühüm gəlirlərin əldə olunmasına imkan yaradaraq, neft daşımalarının qaçılmaz artımının və əlaqədar ekoloji risklərin azalmasına kömək edir və bununla yanaşı, Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb ölkələri arasında siyasi və iqtisadi əlaqələrin güclənməsinə dəstəyini davam etdirir.

BTC texniki təhlükəsizlik və istismar baxımından bu günə qədər yüksək göstəricilər nümayiş etdirib. Onun səmərəliliyi və istismar etibarlılığı ilk dövrlərdəki 75 faizdən artaraq hazırkı 99,9 faiz səviyyəsinə çatıb.

“Yeni neft strategiyası”nın uğurla həyata keçirilməsi, neft sənayesinə geniş sərmayə qoyuluşu, neft əməliyyatlarında müasir texnika və texnologiyanın tətbiqi nəticəsində Bakı-Tbilisi-Ceyhan kəmərinin texniki əhəmiyyəti ilə yanaşı, iqtisadi-siyasi rolu da böyükdür.

Bakı-Tbilisi-Ceyhan neft kəməri Azərbaycan, Gürcüstan və Türkiyəni, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdı, bölgəyə əmin-amanlıq və sabitlik gətirilməsinə, təhlükəsizliyin möhkəmlənməsinə, ölkəmizin regiondakı mövqeyinin möhkəmlənməsinə, ümumən dünyanın enerji təhlükəsizliyinin artırılmasına öz sanballı töhfəsini verdi.

Nəhayət, Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: “İndi bütün dünya üçün aydındır və hamı bunu etiraf edir ki, Bakı-Tbilisi-Ceyhanın əsas memarı Azərbaycandır. Daha doğrusu, Heydər Əliyevdir. Onun neft strategiyasıdır”.

# ƏLAVƏLƏR

## Qrafiklər

**Qrafik 1.** BTC ilə nəql olunan tranzit neft həcmləri (min ton)




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**Qrafik 2.** BTC kəmərinin xərcləri (milyon ABŞ dolları)




**Mənbə:** "BP-Azərbaycan" şirkətinin illik hesabatları

**Qrafik 3.** BTC kəməri ilə ixrac olunan neft həcmləri (milyon barel)




**Mənbə:** "BP-Azərbaycan" şirkətinin illik hesabatları

# İSTİNADLAR


1. http://caspianbarrel.org/en/2022/11/russia-has-been-suspending-oil-exports-via-azerbaijani-pipeline-since-december-due-to-sanctions/
2. https://files.preslib.az/projects/centurycontract/gl3.pdf
3. https://socar.az/az/page/bakitbilisiceyhan
4. https://www.bp.com/az_az/azerbaijan/home/news/business-updates/2010-full-year-results.html#accordion_2
5. https://www.bp.com/az_az/azerbaijan/home/news/business-updates/2022-ci-ilin-yekunlari.html#accordion_3
6. https://files.preslib.az/projects/centurycontract/gl3.pdf
7. http://kremlin.ru/events/president/transcripts/21606
8. https://socar.az/az/page/bakitbilisiceyhan
9. https://www.bp.com/az_az/azerbaijan/home/who-we-are/operationsprojects/pipelines/btc.html
10. https://www.bp.com/content/dam/bp/country-sites/en_az/azerbaijan/home/pdfs/legalagreements/psas/acg-psa-aze.pdf
11. Бюллетень информационного агентства Turan от 27 августа 1996 года.
12. https://www.azerbaijan-news.az/posts/detail/uc-denizin-gerceklesen-efsane-si-1631910647
13. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 18-ci kitab. Bakı, "Azərnəşr", 2006, səh. 58-59
14. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 18-ci kitab. Bakı, "Azərnəşr", 2006. səh. 60
15. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 23-cü kitab. Bakı, "Azərnəşr", 2008. səh. 74-75
16. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 30-cu kitab. Bakı, "Azərnəşr", 2000. səh. 107-109
17. https://www.iied.org/sites/default/files/pdfs/migrate/G02486.pdf
18. https://lib.aliyev-heritage.org/az/96560816.html
19. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 41-ci kitab. Bakı, "Azərnəşr", 2012. səh. 90-102
20. https://www.iied.org/sites/default/files/pdfs/migrate/G02486.pdf
21. https://www.bp.com/az_az/azerbaijan/home/news/business-updates/2022-ci-ilin-yekunlari.html#accordion_3
22. https://1prime.ru/oil/20131206/772428637.html

# İNDEKS


## A

ABƏŞ 6, 13-7, 21, 51, 73, 80, 112, 124
*ABN Amro* 3
ABŞ 1, 3, 5-6, 16, 21, 24, 33, 36, 47, 49, 51-3, 60, 66-8, 74, 77, 83, 85, 89, 98, 114
Abşeron 3
Adams, Terri 13, 15, 18
Ağdaş 3
Ağstafa 3, 7
Ağsu 3
Aleksandropol 16
Almaniya 3, 65
*Amoco* 16
*Ankara Bəyannaməsi* 5, 21, 24, 102
Aralıq dənizi 1, 23, 90-1
*ARDNŞ* 5-6, 17, 29, 35, 55, 62, 72, 74-5, 80. *Həmçinin bax: SOCAR*
ATƏT 29, 39, 58
Avropa 7, 22, 31, 35, 63, 65, 70, 74, 79, 86, 99, 114
*Avropa Yenidənqurma və İnkişaf Bankı* 7, 79, 86
*AzBTC* 4, 50
Azərbaycan *hər səhifədə*
*Azəri* 25, 38, 56, 72-3, 77-80, 87-8, 109, 110-12
*Azəri-Çıraq-Günəşli* xi, 1, 6, 12, 15, 21, 43-5, 47, 51, 56, 59, 70-2, 76, 80, 87

## B

Bakı 19, 50, 88, 100
*Bakı-Novorossiysk* 21, 25, 44, 46, 57, 76
*Bakı-Supsa* 5, 17, 25, 45, 57, 66, 76
*Bakı-Tbilisi-Ceyhan hər səhifədə*
*Bakı-Tbilisi-Ərzurum* 60-5, 69
*Beynəlxalq Əməliyyat Şirkəti* 15, 47, 51, 58, 80. *Həmçinin bax: ABƏŞ*
Beynəlxalq Maliyyə Korporasiyası 3, 79, 85
Binə hava limanı 20
Birləşmiş Millətlər Təşkilatı 111, 114
Bolqarıstan 16
Bosfor boğazı 16
*BOTAŞ* 2, 35, 62-3, 79, 84, 93
Böyük Britaniya 3, 52, 65, 70, 74, 81-3
Böyük Kəsik 7
Bleyer, Toni 70, 83
*BP* xi, 2-4, 7, 9, 51, 58, 62, 66-70, 74-5, 83-90, 93-4, 109-14, 124, 126
*BP Ekspləreyşn* 109-14, 126
*British Hawthorn*, tanker 2, 93
*BTC Co.* x, 2, 4, 7, 34, 51-2, 79, 84-5, 99
*BTC Sistemi* 102
Bundevik, Xyel Maqne 71, 83
Buş, Corc 6
Burqas 16
*Buyiq* 77

## C

*Catoni* 93
*CCIC* 2, 84
Ceyhan limanı 16, 20, 30, 45, 56, 59, 93
Ceyhan terminalı 2, 8, 13, 17, 91, 94, 95
Cənubi Afrika 69
*Cənubi Qafqaz Boru Kəməri* 89, 109-112. *Həmçinin bax: CQBK*
*Cənub Qaz Dəhlizi* xiv
*Citigroup* 3
*ConocoPhilips* 3
Counz, Qəri 94

## Ç

Çanturiya, Georgi 6
Çətin, Hikmət 24
*"Çırağan" sarayı* 5, 29-31, 97
*Çıraq* 25, 378, 44, 56-7, 72, 76, 80, 87, 109-12
*Çıraq-1* 13, 53, 76-7

## D

*Delta Hess* 67, 71
*Devon* 71
*Dədə Qorqud* 77, 78
Dəmirəl, Süleyman 5, 20, 22, 24, 31-2, 63
*Dövlət Neft Fondu* 6, 48-51.
*Həmçinin bax: ARDNF*
*Dövlət Neft Şirkət*i 18, 29, 38, 47-9, 79.
*Həmçinin bax:* SOCAR, *ARDNŞ*
*Dragon Oil* 98
Dünya Bankı 36

## E

Ecevit, Bülənd 42
*Ekson-Mobil* 71
*Emtunqa* 77
Eni 4, 59, 62, 71
*Enterpoz* 77
*Equinor* 3-4
*ExxonMobil* 4
*Eyfel* 77

## Ə

Əfqanıstan 16, 132
Ələsgərov, Valeh 18
Əliyev, Heydər xii-xiv, 5-7, 10, 13-24, 29-30, 33, 35, 37, 42, 49, 53, 55, 61-71, 75-6, 79-84, 93
Əliyev, İlham xiv, 5, 7, 18, 29, 33, 88, 90, 99-100, 109
Əliyev, Natiq 17, 18, 35, 55, 69, 75, 80
Ərəbistan 16
Ərsümər, Cümhur 20
*Əsrin müqaviləsi* 21, 25, 31, 42-4, 56

## F

Fars körfəzi 16
*Faza-1* 6, 72, 77, 78
*Faza-2* 72, 73, 75, 78, 80
Fransa 3, 52, 65, 69-70, 77, 81-3, 89

## G

Gil, Steynar 71
Goranboy 3, 133
*"Gülüstan" sarayı* 7
*Günəşli* 25, 37, 56, 80, 88, 109-12
Gürcüstan xiii, 1-8, 13, 16, 21-32, 35, 38-9, 41-2, 47, 55, 57-76, 79-85, 90-1, 94-5, 97, 101-2, 110-1

## H

Hacıqabul 3
Hopvud, Endi 18
*Hökumətlərarası bəyannamə* 5
Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 11-2, 111, 113-5, 125

## X

Xəzər dənizi xi, xiii, 6, 11, 23, 25, 30, 34-7, 41-5, 56, 59, 61, 67-70, 91, 95, 97-8, 101, 103, 109-10

## İ

İctimai Sərmayə Proqramı 1
*İlkin neft layihəsi* 87
*İmpeks* 59, 72
*INPEX* 4
İpsala 33, 99
İran 16, 25
İstanbul 17, 29, 35-9, 47, 58-9, 97
İtaliya 3, 52, 81-2, 94
Itocu 4, 59, 62, 71

## K

Kərimov, İslam 5, 22, 24
Klinton, Bill 31, 32, 39, 58
Kürdəmir 3

## Q

Qarabağ 10
Qaradağ 3, 87
Qara dəniz 15, 16, 21, 26, 43-5, 57-8, 65
Qazaxıstan xiii, 1, 5, 8, 21-7, 30-9, 44-7, 58-9, 62-3, 86, 95-103
*Qızıl qaynaq* 7
Qroznı-Bakı 11

## L

*Lazard Brothers* 85
Lord Braun 90
*LUKoil* 34, 71, 98

## M

*MakDermott* 77
*Mavi axın* 37
*Mərkəzi Azəri* 77
Mərkəzi Bank 49-50
Mixail Saakaşvili 7, 90
*Mizuho* 3
*MOL* 4

## N

Nazarbayev, Nursultan 5, 22, 24, 33, 59, 97
Niyazov, Saparmurad 32, 97
Norveç 52, 71, 74, 81-3

## O

*ONGC Videsh* 4
*OPEC+* xiii

## Ö

Özbəkistan xiii, 5, 21-4, 27
Özal, Turqut 63

## P

Pakistan 16
Pedersen, Torivar 18
*Petronas* 98
Pirson, Cey 18
Puare, Şantal 69
Putin, Vladimir 6

## R

Rusiya 1, 11, 16, 21, 25, 31, 33-7, 44, 57, 63, 74, 98-9
Riç, Qreqori 15, 18
Riçardson, Bill 5, 24

## S

Samux 3
*Saypem* 77
Səngəçal 1, 7, 53-4, 73, 77-8, 86-9, 91, 94-5, 98, 109-13, 117
Sezər, Əhməd Necdət 42, 46, 53, 55, 60, 64-5, 70, 75, 81, 83, 84, 90
*Siprins* 93
*SOCAR* 6, 35, 51, 94.
*Həmçinin bax: Dövlət Neft Şirkəti, ARDNŞ*
*Societe Generale* 3
Spenser, Abraham 53, 55
*Spi Petrofak* 2
SSRİ Nazirlər Soveti 10
*Statoyl* 18, 47-8, 62, 71, 83, 88
*Sullivan & Cromwell* 85
Supsa 5, 17, 25, 44-5, 57, 66, 76

## Ş

*Şahdəniz* 1, 46, 60, 72, 87, 89, 95, 109-17, 122-5
Şevardnadze, Eduard 5, 22, 24, 31-2, 42, 46, 54, 56, 58, 60, 62, 70, 75, 81, 83-4
Şərifov, Abid 18
Şəmkir 3
Şirak, Jak 69-70, 83

## T

*TANAP* 34, 99
*TDAO* 71
Tehran 16
*Tengiz* 26, 98
Tengiz-Novorossiysk 6, 35
TFE 72
*The British Hawtharne* 93
Tibber, Piter 70

*TotalEnergies* 3-4
Tovuz 3, 135
*TPAO* 4, 52, 72
Trabzon xiii, 20, 111, 113, 115, 125
Trans-Qafqaz boru kəməri 22
Trans-Xəzər 5, 22, 33, 37, 98, 101-7
Türkiyə 1-2, 5-6, 13, 16-7, 20-5, 29-46, 51, 53, 55-64, 67, 69-76, 79-85, 89-91, 94-5, 97, 99-102, 110-1
Türkiyə Böyük Millət Məclisi 5
Türkmənistan 1, 5, 16, 25, 30, 33, 34, 37, 63, 96-8, 100

## U

Ucar 3
Umbakı 7

## Ü

*Üç dənizin əfsanəsi* 17, 43, 58, 62

## V

Vaşinqton 16
Vudvord, Deyvid 6, 41, 71, 80, 82, 90

## Y

Yaponiya 3, 52, 74, 81
Yevlax 3
Yılmaz, Məsud 20, 24
*Yunokal* 48-9, 62, 67, 72

**Qeyd:**